RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 247 (9414) 14 NOYABR 2023-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




## Zəfərin Xankəndi zirvəsi



**Düşmənə gözdağı verib, dosta sevinc bəxş edən Xankəndi paradı!**

**Arzularımızın pik nöqtəsi!**

**On illərin ən ülvi arzusunun reallaşdığının nümayişi!**

*Düşmənin canına vic-vicə salan xüsusi təyinatlılarımız haqlı qürur və iftixarla, nizami addımlarla tribunanın önündən vüqarla keçirlər!*

**Onları bu zəfərin memarı və baş müəllifi, "dəmir yumruq" sahibi Müzəffər Ali Baş Komandanımız İlham Əliyev fəxrlə salamlayır!**

Xalqımız bu gözəl mənzərəyə doymaq bilmədən, göz dolusu tamaşa edir!

Sevinc seli bütün Qarabağı, Şərqi Zəngəzuru, Azərbaycan torpağını qoynuna alır!

Bu sevincdən dünyanın hər bucağında yaşayan azərbaycanlılara, Azərbaycansevərlərə də şirin pay düşür!

→ 9

## Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana səfəri

# Azərbaycan ECO-nun üzv dövlətləri ilə əməkdaşlığı genişləndirməkdə qərarlıdır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistana səfəri çərçivəsində Pakistanın Keçid Hökumətinin Baş naziri, Özbəkistan və İran Prezidentləri ilə görüş keçirmiş, İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə toplantısında iştirak və çıxış etmişdir.

Zirvə toplantısının iştirakçılarının şərəfinə rəsmi qəbul təşkil olunmuş və bununla da səfər başa çatmışdır.

→ 2-4

## İşğal və təcavüzün nəticələrinə baxılmadan regionun gələcəyi ilə bağlı baxışların irəli sürülməsi düzgün yanaşma deyil

### Azərbaycan Prezidenti İlham Əliyev ATƏT Parlament Assambleyasının prezidentini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də ATƏT Parlament Assambleyasının prezidenti Pia Kaumanı qəbul edib.**



AZƏRTAC xəbər verir ki, görüşdə Cənubi Qafqaz regionunda vəziyyətlə və ATƏT Parlament Assambleyasının rolu ilə bağlı fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı qeyd etdi ki, Cənubi Qafqaz regionunda artıq yeni reallıqlar yaranıb. Prezident İlham Əliyev vurğuladı ki, regionda baş vermiş son hadisələr Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam etmiş işğalı və hərbi təcavüzü kontekstində nəzərdən keçirilməlidir. Bu işğal və təcavüzün nəticələrinə baxılmadan regionun gələcəyi ilə bağlı baxışların irəli sürülməsi düzgün yanaşma olmaz.

Prezident İlham Əliyev bildirdi ki, Ermənistan Azərbaycan torpaqlarının işğalını əbədiləşdirməyə çalışırdı. İşğal dövründə həyata keçirilmiş vasitəçilik missiyaları tamamilə uğursuz olmuş, işğal və təcavüzün nəticələrini aradan qaldırmamışdır.

Dövlətimizin başçısı vurğuladı ki, 44 günlük Vətən müharibəsindən sonra imzalanmış 2020-ci il 10 noyabr Bəyanatından irəli gələn öhdəlikləri Ermənistan yerinə yetirmədi. Belə ki, Ermənistan nəinki Qarabağdakı silahlı qüvvələrini ərazidən çıxarmamışdır, hətta həmin ərazini hərbi texnikanın, silahlı qüvvələrinin şəxsi heyətinin və minaların daşınması üçün məqsədyönlü şəkildə istifadə edirdi. Həmçinin Ermənistan Şərqi Zəngəzurla Naxçıvan arasında əlaqənin yaradılması ilə bağlı öz öhdəliklərini yerinə yetirmədi.

Prezident İlham Əliyev qeyd etdi ki, artıq bu məsələlər keçmişdə qaldı. Hazırda regionun sülh gündəliyi üçün çox yaxşı imkanlar var. Dövlətimizin başçısı vurğuladı ki, 44 günlük Vətən müharibəsindən sonra sülh müqaviləsi və onun əsasını təşkil edən prinsiplər təşəbbüsü ilə də məhz Azərbaycan çıxış edib. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan Cənubi Qafqazda davamlı sülhün tərəfdarıdır və regional sülh gündəliyini, Ermənistanla münasibətlərin normallaşdırılmasını və sülh müqaviləsinin imzalanmasını dəstəkləyir.

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan hazırda birgəyaşayış və geriqayıtma hüququ ilə əlaqədar aydın və şəffaf proqramı təqdim etsə də, azərbaycanlıların Ermənistana geri qayıdışı ilə bağlı geriqayıtma hüququnu Ermənistan inkar edir və bununla əlaqədar olaraq hər hansı bir baxış ortaya qoymayıb.

Görüşdə qeyd olundu ki, ATƏT Parlament Assambleyası Ermənistan və Azərbaycan nümayəndə heyətləri arasında etimadın qurulması baxımından səmərəli platforma ola bilər.

## Azərbaycan bütün dünyaya müasir müharibənin necə aparıldığını göstərdi

**"Azərbaycan bütün dünyaya müasir müharibələrin necə aparılmalı olduğunu göstərdi ki, bu da Ukrayna və Qəzza zolağında gedən müharibə fonunda xüsusilə diqqəti cəlb edir".**

Bu barədə Saratov vilayət dumasının "Vahid Rusiya"dan olan keçmiş deputatı, politoloq Dmitri Çernışevski özünün yutub kanalında Ukrayna və İsraildəki qarşıdurmaları təhlil edərkən danışıb.

"Çətin ki, kimsə analogiyalar aparıb və Azərbaycanı həm İsrail, həm də Ukraynaya nümunə göstərib. Azərbaycan müasir reallıqlarda Ukraynaya, eləcə də İsrailə müharibənin necə aparılmalı olduğunu göstərir", - analitik bildirib.

O hesab edir ki, müasir müharibələrdə informasiya komponenti əvvəlki dövrlərdən daha vacib rol oynayır: "Müharibələr rabitənin sürətlə inkişaf etdiyi, hətta televiziyanın əsas mənbə kimi inhisarını itirdiyi informasiya əsrində gedir. Sosial şəbəkələr çox aktivdir, informasiya məkanı böyükdür, hətta müharibələr canlı yayımda göstərilir".

Politoloq vurğulayıb ki, Ukrayna üçün ABŞ-nin ictimai rəyi, ABŞ elitasının rəyi uğrunda mübarizə istənilən hərbi əməliyyatdan daha vacibdir: "Çünki Ukraynanın müharibədə qalib olub-olmayacağı məhz onun Qərb ictimai rəyindəki mövqeyindən asılıdır. Ukrayna başqasının pulu ilə müharibə aparır, ona görə də Ramşteyn koalisiyasındakı müttəfiqlərindən kritik dərəcədə asılıdır. Eyni zamanda Ukrayna informasiya sahəsində səylərini maksimum dərəcədə artırmadığı üçün indi belə bir vəziyyətlə üzləşib. O, hərbi komponentdən daha çox informasiya komponentindən asılıdır".

"Ancaq İsrail, qəribə də olsa, eyni şəkildə informasiya komponentindən asılıdır. Bunu amerikalılar yüksəkrütbəli rəsmilərinin dili ilə belə deyirlər - müharibənizin bitməsinə 2-3 həftə vaxtınız var, əks halda biz sizə dəstək ola, beynəlxalq və ictimai təzyiqə dözə bilməyəcəyik. Deməli, İsrail də ictimai rəydən asılıdır", - deyən D.Çernışevski qeyd edib ki, Azərbaycan da informasiya komponentindən çox asılı idi.

→ 7

## Daşkənddə Pakistanın Keçid Hökumətinin Baş naziri ilə görüş

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 9-da Daşkənddə Pakistan İslam Respublikasının Keçid Hökumətinin Baş naziri Ənvər-ul-Xak Kakar ilə görüşü olub.**



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Pakistan arasında əlaqələrin mövcud vəziyyətindən məmnunluq ifadə olundu.

Pakistanın Baş naziri Azərbaycanı antiterror tədbirlərinin uğurla başa çatması və Azərbaycanın suverenliyinin tam şəkildə təmin olunması münasibətilə təbriklərini çatdırdı. Pakistanın həmişə Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəklədiyini vurğuladı.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi, Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən işğalı dövründə, həmçinin 44 günlük Vətən müharibəsində Pakistanın ölkəmizə göstərdiyi siyasi-diplomatik dəstəyini və Ermənistanın işğalçı dövlət kimi tanımasını yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev Azərbaycanın Cəmmu və Kəşmir məsələsində BMT Təhlükəsizlik Şurasının müvafiq qərarlarını rəhbər tutaraq haqq-ədalətin tərəfdarı olduğunu diqqətə çatdırdı.

Görüşdə ölkələrimiz arasında iqtisadi-ticari münasibətlərin, biznes dairələri arasında əlaqələrin genişləndirilməsi məsələlərinə toxunuldu. Hökumətlərarası Komissiyanın fəaliyyətinin vacibliyi qeyd edildi. Həmçinin enerji və nəqliyyat bağlantıları sahələrində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

İmtiyazlı ticarət münasibətlərinin ölkələrimiz arasındakı ticarət dövriyyəsinin həcminin artırılmasına müsbət təsir göstərəcəyi qeyd edildi. İnformasiya-kommunikasiya texnologiyaları, turizm sahələrində əməkdaşlığın, iki ölkənin şəhərləri arasında bu yaxınlarda birbaşa hava əlaqəsinin yaradılmasının müsbət addım olduğu bildirildi, bunun turizm sahəsində əməkdaşlığa və insanlar arasındakı təmaslara müsbət təsir göstərəcəyi vurğulandı. İki ölkə arasında beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığın davam etdirilməsinin vacibliyi qeyd olundu.

Söhbət zamanı dünyada islamofobiya meyillərinin artmasından narahatlıq ifadə edildi.

## Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana səfəri

# Azərbaycan ECO-nun üzv dövlətləri ilə

## Azərbaycan Prezidenti İlham Əliyevin Daşkənddə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ilə görüşü olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 9-da Daşkənddə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşü olub.**



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısını salamlayan **Özbəkistan Prezidenti Şavkat Mirziyoyev** dedi:

- Özbəkistana bir daha xoş gəlmisiniz. Sizi salamlamağıma çox şadam. Mehriban xanıma mənim həyat yoldaşım və ailəmdən böyük salamlar var. Fikrimcə, biz hələ növbəti səfərlər zamanı birlikdə görüşəcəyik.

Dünən Azərbaycanda böyük bayram idi, düşünürəm ki, Özbəkistanda da böyük bayram oldu. Mən bütün Azərbaycan xalqını bu Qələbə münasibətilə təbrik edirəm. Biz həmişə buna inanmışıq. Siz Xankəndidə Bayraq qaldırdınız və biz bunun bütün məsələlərə nöqtə qoyduğunu gördük.



Güclü Azərbaycan artıq irəliyə doğru addımlayacaq və Azərbaycan xalqının, Azərbaycanın dostlarının, o cümlədən özbək xalqının, Özbəkistanın və Özbəkistan rəhbərliyinin də uzun illər gözlədiyi uğurlara nail olacaq. Ümidvarıq ki, Qarabağ gələcəkdə Azərbaycanda çiçəklənən torpaq olacaq, çünki Siz çox işlər görürsünüz. Mən Şuşada və Füzulidə həyata keçirilən bütün işləri öz gözləri ilə görmüş insanam. Çox şadam ki, orada olmuşam. Mən də onların nələr etdiklərini, özlərindən sonra nələr qoyub getdiklərini və Sizin səyləriniz sayəsində görülən işləri danışacağam. Yaxın ölkə olaraq, daha böyük uğurlar diləyirəm. Azərbaycan xalqı kimi, biz də ədalətin onsuz da zəfər çalacağını, Azərbaycan xalqının öz Qələbəsini qazanacağını gözləyirdik.

Ən xoş arzularımı çatdırıram. Əminəm ki, tezliklə Qarabağ çox inkişaf edən diyara çevriləcək. Çünki Siz Şuşada, Füzulidə nələr olacağını mənə danışdınız, biz yeni aeroportu gördük, mən də orada oldum, əgər bunun Füzulidə olmasına inanmayan varsa, özü baxa bilər. Əslində, bu, Füzulidir və bütün infrastruktur öz həllini tapır. Həm də demək istəyirəm ki, bizim bütün razılaşmalarımız həyata keçirilir.

Özbəkistan Prezidenti əməkdaşlığın möhkəmləndirilməsində qarşılıqlı səfərlərin rolunu vurğuladı. Şavkat Mirziyoyev qeyd etdi ki, Azərbaycanın bütün sahələrdə, o cümlədən iqtisadi sahədə uğurları Özbəkistanda böyük sevinc hissi doğurur.

Özbəkistan Prezidenti əmin olduğunu bildirdi ki, ikitərəfli əlaqələr qarşıdakı illərdə də inkişaf edəcək.

❖ ❖ ❖

**Azərbaycan Prezidenti İlham Əliyev** dedi:

- Şavkat Miromonoviç, sağ olun. Əziz qardaş, xoş sözlərə, təbriklərə görə sağ olun.

Biz bütün işlərimizdə şəxsən Sizin və qardaş özbək xalqının dəstəyini hiss etmişik və edirik. Dünən bizim qeyd etdiyimiz Zəfər Günü ilə bağlı təbriklərinizə görə sağ olun.

Sizin də qeyd etdiyiniz kimi, Siz Şuşa və Füzulidə olmusunuz. Mən də dünən bu yerlərdə oldum və Füzuli şəhərinin yaxınlığından keçəndə Sizin bizə təqdim etdiyiniz qardaş hədiyyəsinə - Mirzə Uluqbəy adına məktəbə bir daha böyük məmnunluq və minnətdarlıqla baxdım. Zənnimcə, Füzuliyə gələn hər kəs, orada yaşayanların hamısı belə münasibətə görə Sizə minnətdardırlar. Bu, qardaş dövlətin ərazilərimizin bərpası prosesində aldığımız birinci hədiyyəsidir.

Azərbaycanın suverenliyinin bərpası ilə əlaqədar təbrikə görə minnətdaram. Bu, tarixi hadisədir. Biz sentyabrda separatizmlə bağlı çoxillik məsələyə son qoyduq. Bu gün Azərbaycanın ərazisində Azərbaycan Bayrağının dalğalanmadığı heç bir guşə yoxdur. Sizin bu məsələyə şəxsi münasibətinizi və bütün qardaş özbək xalqının münasibətini, dəstəyini, həmrəyliyini çox yüksək qiymətləndiririk.

Sizi böyük uğurlar münasibətilə təbrik etmək istərdim. Dünəndən Daşkənddə olarkən, düşünürəm ki, bu, zənnimcə, mənim hələ olmadığım şəhərdir. Çünki aeroportdan gələrkən və mehmanxananın pəncərəsindən gördüklərim həqiqətən də xoş təsir bağışlayır və sevindirir. Qısa vaxt ərzində Siz bu günün Özbəkistanını təcəssüm etdirən ən müasir infrastruktur yaradırsınız. Sizin rəhbərliyinizlə, Sizin islahatlarınız və yorulmaz əməyiniz sayəsində Siz islahatlarınızı və quruculuq gündəliyinizi irəli aparırsınız. Biz, dostlarınız və qardaşlarınız kimi, buna səmimi-qəlbdən sevinirik. Sevinirik ki, Özbəkistan inkişaf edir, iqtisadi potensial, sənaye potensialı güclənir və əlbəttə, beynəlxalq arenada nüfuzunuz artır.

Bütün bunlar Sizin sayənizdədir, çünki son illər qazanılan bütün nailiyyətlər məhz Sizin adınızla bağlıdır. Əminəm və bilirəm ki, Özbəkistan vətəndaşları bunu yüksək qiymətləndirirlər. Təsadüfi deyil ki, prezident seçkilərində Sizə yenidən böyük etimad göstərilib. Sizin seçkilərdən sonra ilk dövlət səfərinizi Azərbaycana etməyinizi biz hamımız çox yüksək qiymətləndiririk. Başa düşürük ki, bu, düşünülmüş addımdır, bizim qardaşlıq münasibətlərimizin nümayişidir.

Mütəmadi qarşılıqlı səfərlərin ikitərəfli əlaqələrin möhkəmləndirilməsində əhəmiyyətini qeyd edən dövlət başçısı vurğuladı ki, keçirilən görüşlərdə sənaye kooperasiyası, kənd təsərrüfatı, investisiya və digər sahələrdə qarşılıqlı fəaliyyət məsələləri müzakirə olunur. Prezident İlham Əliyev bildirdi ki, həyata keçirilən əməkdaşlıq gələcəkdə iki ölkənin iqtisadi potensialının gücləndirilməsinə xidmət edir. Azərbaycan Prezidenti Özbəkistan Prezidentinin əlaqələrin genişləndirilməsinə töhfəsini yüksək qiymətləndirdi.

❖ ❖ ❖

Görüşdə beynəlxalq təşkilatlar, o cümlədən İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olundu, energetika, sənaye sahələrində birgə layihələrin həyata keçirilməsinin, investisiya, nəqliyyat, humanitar və digər sahələrdə əlaqələrin genişləndirilməsinin yaxşı potensialı olduğu qeyd edildi, münasibətlərin dərinləşdirilməsi istiqamətində konkret sahələrdə fəal iş aparıldığı məmnunluqla vurğulandı.

Söhbət zamanı gələcək təmaslar və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Daşkənddə Azərbaycan Prezidenti İlham Əliyevin İran Prezidenti Seyid İbrahim Rəisi ilə görüşü olub

**Noyabrın 9-da Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşü olub.**



AZƏRTAC xəbər verir ki, İran Prezidenti **Seyid İbrahim Rəisi** dövlətimizin başçısını salamlayaraq dedi:

- Mərhəmətli və rəhimli Allahın adı ilə.

Mən çox şadam ki, İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə toplantısı çərçivəsində biz Sizinlə görüşə, ikitərəfli və bizi maraqlandıran məsələləri müzakirə edə bildik. Xoşbəxtlikdən, əlaqələrimiz qənaətbəxş səviyyədədir və müxtəlif sahələrdə işlərimiz, layihələrimiz uğurla davam edir.

Biz həmçinin çox sevinirik ki, Qarabağ uzun illərdən sonra öz əzəli ərazisinə qovuşdu. Bu, Azərbaycandır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edə



bildi. Ümid edirik ki, Qarabağ yenidən qurulacaq və bərpa olunacaq. Biz bu planda əvvəlki kimi, Qarabağın bərpasında Sizə dəstək verməyə, öz xidmətlərimizi, o cümlədən mühəndis-texniki sahədə təklif etməyə hazırıq. İran şirkətləri Qarabağın bərpasında və ümumiyyətlə, Azərbaycanın inkişafında Azərbaycandan olan əziz dostlarımıza kömək etməyə hazırdırlar.

Biz nəqliyyat və tranzit sahələrində vəziyyətin gündən-günə yaxşılaşdığını müşahidə edirik. Ölkələrimiz arasında nəqliyyat işi getdikcə artır. Bu həm sizin, həm də bizim hədəflədiyimiz məsələdir. Araz çayı üzərindən keçən Ağbənd marşrutu və bizim orada bir-birimizlə razılaşdıraraq həyata keçirdiyimiz layihələr hər iki ölkənin maraqlarına cavab verir. Bu, Azərbaycan, İran və Naxçıvan arasında nəqliyyat əlaqələrinə zəmanət verir və bu sahədəki qayğıları aradan qaldırır.

Əminik ki, rəqiblərimizin istəklərinin əksinə olaraq, münasibətlərimiz gündən-günə yaxşılaşır və əlaqələrimizə mane olmaq istəyən ölkələr öz planlarını həyata keçirə bilmir və məyus olurlar.

Biz əminik ki, Azərbaycan ilə İran arasındakı münasibətlər təkcə diplomatik qonşuluq əlaqələri deyil, bu, iki xalq arasında çox dərin münasibətlərdir.

Xalqlarımız qəlbən bir-birinə yaxındır və münasibətlərimiz sarsılmazdır. Ona görə liderlərimiz də bu əlaqələrin inkişafına çox ciddi yanaşırlar. Sizinlə görüşdən dərin sevinc duyduğumu bir daha təkrar edirəm.

❖ ❖ ❖

**Azərbaycan Prezidenti İlham Əliyev** dedi:

- Hörmətli cənab Prezident, mən də Sizi görməyimə çox şadam. Bu, ikitərəfli gündəliyin və regional əməkdaşlığın mühüm məsələlərinin müzakirəsi üçün yaxşı fürsətdir. Əvvəlki görüşlərimizi, həmçinin hər görüşdən sonra münasibətlərimizin inamlı inkişafına çox ciddi təkan verdiyimizi xatırlayıram. Azərbaycanın ərazi bütövlüyünün və bütün ərazisində suverenliyinin bərpası münasibətilə təbriklərinizə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm.

Sentyabrda biz antiterror əməliyyatı keçirdik, nəticədə Azərbaycanda separatizmə son qoyuldu. Bu, Azərbaycanın daha fəal inkişafına şərait yaratmaqla yanaşı, həm də bütün regionda əlverişli mühit yaradır. Siz ikitərəfli münasibətlərimizin tarixində mühüm mərhələni, yəni Ağbənd yaxınlığında Araz çayı üzərindən körpülərin tikintisinə başlanılmasını qeyd etdiniz. Bu, böyük perspektivi olan layihədir.

İkinci Qarabağ müharibəsindən sonrakı üç il ərzində Ermənistan öz öhdəliklərini yerinə yetirməkdən, məhz Azərbaycanın əsas hissəsindən Naxçıvana gediş-gəlişi təmin etməkdən imtina edirdi və imtina etməkdə davam edir. Bu onların seçimidir, düşünürəm ki, onlar böyük səhvə yol veriblər.

Çox şadam ki, İran və Azərbaycan nümayəndələrinin birgə işi nəticəsində biz Araz çayının cənub sahili boyunca dəmir yolu və avtomobil xətti marşrutunun keçməsini razılaşdırdıq. Əminəm ki, bu layihə qısa müddətdə həyata keçiriləcək və "Şimal-Cənub" nəqliyyat dəhlizinin daha bir istiqamətinə çevriləcəkdir. Yəni nəticədə bizim iki marşrutumuz olacaq: biri Astara çayı üzərindən, digəri Ağbənd ərazisindən. Hər iki marşrut İranla Azərbaycan arasında qardaşlıq münasibətlərinin möhkəmlənməsi işinə xidmət edəcək, həmçinin qonşularımız və digər tərəfdaş ölkələr üçün əlçatan olacaq.

İki ölkənin yüksəksəviyyəli nümayəndələri arasında çox tez-tez və müntəzəm təmasların olmasını da məmnunluqla qeyd edərdim. İranın xarici işlər nazirinin səfəri, Azərbaycan Baş nazirinin müavininin səfəri, mənim nümayəndəmin səfəri və Sizin vaxt taparaq onları qəbul etməyiniz əlaqələrimizin davamlı inkişafından xəbər verir.

Əvvəlki illərdə də biz regiondankənar qüvvələrin İranla Azərbaycan arasında dostluq münasibətlərinə müdaxilə etmək cəhdlərinin də şahidi olmuşuq. Bu cəhdlər nəticəsiz qaldı. Əminəm ki, indi də düşmənlərimiz öz məqsədlərinə çatmayacaqlar. İran və Azərbaycan bundan sonra da uğurla əməkdaşlıq edəcək və münasibətləri gücləndirəcəklər.

❖ ❖ ❖

Görüşdə Araz çayı üzərində Ağbənd istiqamətində dəmir yolu və avtomobil yolu körpülərinin tikilməsi və İran ərazisindən dəhlizin çəkilməsi ilə əlaqədar məsələlər müzakirə olundu. Eyni zamanda "Şimal-Cənub" nəqliyyat dəhlizi üzrə Azərbaycan ərazisində dəmir yolu infrastrukturunun ötürmə qabiliyyətinin artırılması və bunun tikintisinin Rəşt-Astara dəmir yolu ilə sinxron qaydada həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

Söhbət zamanı energetika sahəsində əməkdaşlıq məsələləri müzakirə olundu, 3+3 formatının əhəmiyyəti qeyd edildi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu.

## Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana səfəri

# əməkdaşlığı genişləndirməkdə qərarlıdır

## Daşkənddə İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə toplantısı keçirilib

### Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə iştirak edib




**Noyabrın 9-da Özbəkistan Respublikasının paytaxtı Daşkənd şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 16-cı Zirvə toplantısı keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Prezident İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Tədbirdə ECO-nun əvvəlki Zirvə toplantıları və üzv dövlətlərin başçılarının təşkilat çərçivəsində keçirdikləri görüşlər ilə bağlı videoçarx nümayiş olundu.

Özbəkistan Prezidenti **Şavkat Mirziyoyev** iclası açaraq iştirakçıları salamladı və ötən Zirvə toplantısından keçən dövrdə görülən işlər barədə məlumat verdi.

Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatına uğurlu sədrliyi münasibətilə Prezident İlham Əliyevi təbrik edən Özbəkistan Prezidenti Şavkat Mirziyoyev "Yaşıl keçid və qarşılıqlı əlaqələr" ilində ölkəmizin sədrliyi çərçivəsində həyata keçirilən tədbirlərin və təşəbbüslərin tərəfdaşlığımızın genişlənməsinə böyük töhfə verdiyini vurğulayaraq dedi: "Bakıda Təmiz Enerji Mərkəzinin və Regional Elektrik Bazarının təşkili istiqamətində əməli tədbirlər həyata keçirilir, həmçinin ekologiya sahəsində də yüksəksəviyyəli dialoq platforması yaradılıb. Turizm sektorunda əməkdaşlığın daha da genişləndirilməsi məqsədilə ilk dəfə olaraq tur-operatorlar şəbəkəsi formalaşdırılıb və Təhlükəsiz Turizmin İnkişafı Proqramı təsdiq edilib".

Prezident Şavkat Mirziyoyev qeyd etdi ki, Özbəkistan Azərbaycan və Türkiyə ilə yükdaşımalarla bağlı məlumatları rəqəmsallaşdırıb və digər ölkələrlə də analoji layihələr həyata keçirilir.

ECO-nun Baş katibi **Xusrav Noziri** Türkmənistan, Tacikistan və Türkiyə, eləcə də Azərbaycan və İran arasında razılaşdırılmış multimodal dəhlizlərin xalqlarımız arasında əlaqələrin inkişafına xidmət edəcəyini bildirdi. Energetikanın ECO üçün çox vacib sahə olduğunu qeyd edən Baş katib bu istiqamətdə Xartiyanın imzalanmasının əhəmiyyətini vurğuladı.

Turizm sahəsində əməkdaşlığa da diqqət çəkən Xusrav Noziri dedi: "Biz həmçinin turizm potensialının inkişafına diqqət yetiririk. "Turizm paytaxtları" konsepsiyası çox mühüm təşəbbüsdür. İndiyədək 6 şəhər, o cümlədən Tacikistanın Düşənbə, İranın Sari və Ərdəbil, Özbəkistanın Şəhrisəbz, Türkiyənin Ərzurum və Azərbaycanın Şuşa şəhərləri "Turizm paytaxtları" seçilib. Çox zəngin mədəni irs və təbiətimizin gözəllikləri ideyalarının təbliği məqsədilə turizm sahəsinin seçilməsi müntəzəm yanaşma olacaq.

Dövlətimizin başçısı Zirvə toplantısında çıxış etdi.







## Prezident İlham Əliyevin çıxışı

- Hörmətli Şavkat Miromonoviç,

Hörmətli dövlət və hökumət başçıları,

Hörmətli Zirvə toplantısının iştirakçıları,

Yüksək qonaqpərvərliyə görə qardaş Özbəkistanın Prezidenti Şavkat Miromonoviç Mirziyoyevə minnətdarlığımı bildirirəm.

Azərbaycan və Özbəkistan arasında strateji tərəfdaşlıq uğurla inkişaf edir. Ötən il mən Özbəkistana bir dövlət səfəri və iki işgüzar səfər etmişəm. Hər səfərimdə Özbəkistanda hərtərəfli islahatların nəticələrinin, sosial və iqtisadi inkişafın şahidi oluram. Əldə olunmuş uğurlar münasibətilə Özbəkistan rəhbərliyini təbrik edirəm.

Şavkat Miromonoviç Mirziyoyev yenidən Özbəkistan Prezidenti seçildikdən sonra ilk dövlət səfərini Azərbaycana edib. Bu, iki ölkə arasında qardaşlıq münasibətlərinin nə dərəcədə dərin olmasını bir daha nümayiş etdirir.

İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü kimi Azərbaycan təşkilatın işində fəal iştirak edir.

Ötən ay ECO Nazirlər Şurasının iclası Şuşada keçirilib. Dünən Azərbaycan xalqı Şuşanın Ermənistanın təxminən 30 illik işğalından azad olunmasının üçüncü ildönümünü qeyd etdi.

Azərbaycanın nəqliyyat və logistika infrastrukturu ECO-nun üzv dövlətləri üçün açıqdır. Son illərdə Azərbaycan özünün nəqliyyat infrastrukturuna milyardlarla ABŞ dolları həcmində sərmayə qoyub və Avrasiyanın "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri üzərində yerləşən nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Hər iki dəhlizin Azərbaycandan keçən hissələri tam hazırdır. Biz hazırda bu dəhlizlər boyu dəmir yolu xətlərinin yükaşırma qabiliyyətinin genişləndirilməsi üzərində işləyirik.

Son 20 il ərzində Azərbaycan iqtisadiyyatına 310 milyard ABŞ dolları həcmində sərmayə qoyulub və bunun 200 milyard dolları qeyri-neft sektorunun payına düşür. Bu, ölkəmizdə olan münbit sərmayə iqliminin nəticəsidir.

Məmnuniyyətlə qeyd etmək istərdik ki, Azərbaycan ECO-nun Təmiz Enerji Mərkəzinin ev sahibi kimi rəsmi olaraq təsdiqlənib.

Azərbaycanın neft və qaz ehtiyatları ilə zəngin olmasına baxmayaraq, biz bərpaolunan enerji sektorunun inkişafına xüsusi diqqət yetiririk. Azərbaycanın bərpaolunan enerji potensialı quruda 37 qiqavat külək və günəş enerjisi, Xəzər dənizinin ölkəmizə məxsus sektorunda isə 157 qiqavat külək enerjisi təşkil edir.

Azərbaycan yaxın gələcəkdə yaşıl və hidrogen enerjisinin ixracatçısına çevriləcək. Dünyanın aparıcı yaşıl enerji şirkətləri olan xarici investorlarla imzaladığımız sazişlərə və anlaşma memorandumlarına əsasən, qarşıdakı illərdə Azərbaycanda istehsal ediləcək bərpaolunan enerji 10 qiqavata çatacaq. Bu ilin oktyabr ayında Azərbaycanda "Masdar" şirkəti tərəfindən inşa edilmiş 230 meqavat gücündə Qaradağ Günəş-Elektrik Stansiyasının açılışı olub. Bu, Xəzər dənizi və Qafqaz regionunda ən böyük günəş-elektrik stansiyasıdır.

Azad olunmuş Qarabağda və Şərqi Zəngəzurda 2021-2023-cü illər ərzində 170 meqavat gücündə hidroelektrik stansiyalar istifadəyə verilib. 2024-cü ilin sonuna qədər bu rəqəm 270 meqavata çatacaq. Bir neçə ildən sonra erməni işğalından azad edilmiş ərazilərdə hidroelektrik stansiyaların ümumi gücü 500 meqavat təşkil edəcək.

Ermənistan Azərbaycanın 20 faizə yaxın ərazisini təqribən 30 il ərzində işğal altında saxlamışdır. Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz dədə-baba yurdlarından qovulmuş, qaçqın və məcburi köçkünə çevrilmişdir.

2020-ci ildə Azərbaycan BMT Nizamnaməsindən irəli gələn legitim özünümüdafiə hüququndan istifadə edərək Vətən müharibəsində Ermənistanı döyüş meydanında məğlubiyyətə uğratdı və BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il ərzində kağız üzərində qalmış dörd qətnamənin icrasını özü təmin etdi.

İşğal dövründə Ermənistan Azərbaycanın doqquz şəhərini və yüzlərlə kəndini yer üzündən silmiş, İslam dininə məxsus mədəni və tarixi irsimizi dağıtmış və təhqir etmişdir. 67 məsciddən 65-i dağıdılmış, qalanları isə inək və donuz saxlanılması üçün tövlə kimi istifadə olunmuşdur.

Bu il sentyabrın 19-20-də keçirilmiş birgünlük antiterror əməliyyatı nəticəsində Azərbaycan Qarabağdakı qanunsuz separatçı rejimin mövcudluğuna son qoydu və özünün beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində suverenliyini tam bərpa etdi. Biz ərazi bütövlüyümüzü və suverenliyimizi güc yolu ilə, beynəlxalq hüquqa və BMT Nizamnaməsinə uyğun olaraq bərpa etmişik və bununla qürur duyuruq.

Mən bu tarixi Qələbə münasibətilə Azərbaycanı təbrik edən ECO-nun üzv dövlətlərinə təşəkkürümü bildirirəm.

Çıxışımın sonunda vurğulamaq istərdim ki, Azərbaycan ECO-nun üzv dövlətləri ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığı daha da genişləndirməkdə qərarlıdır və təşkilatın növbəti Zirvə görüşünə evsahibliyi etməyə hazırdır.

Sağ olun.

❖ ❖ ❖

Zirvə görüşünün işinə uğurlar arzulayan Türkiyə Respublikasının Prezidenti **Rəcəb Tayyib Ərdoğan** Ermənistanın Azərbaycan qarşısındakı öhdəliklərini yerinə yetirməsinin bölgədə davamlı sülhün təmin olunmasında xüsusi rol oynayacağını vurğulayaraq dedi: "Qarabağda 30 ildən artıq davam edən işğalın tamamilə aradan qaldırılması ilə bölgəmizdə davamlı sülhə bir addım daha yaxınlaşdığımızı görürük. Ermənistanın Azərbaycan qarşısındakı öhdəliklərini yerinə yetirməsi bunu asanlaşdıracaq. Azərbaycanın qərb bölgələri ilə Naxçıvanı birləşdirəcək nəqliyyat xətlərinin ən yaxın dövrdə yaradılması da xüsusi strateji əhəmiyyət kəsb edir".

ECO-nun 16-cı Zirvə toplantısında həmçinin Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov, İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Pakistan İslam Respublikasının Keçid Hökumətinin Baş naziri Ənvər-ul-Xak Kakar, Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon və Qazaxıstan Respublikasının Baş naziri Alixan Smailov çıxış etdilər.

## Zirvə toplantısının iştirakçılarının şərəfinə rəsmi qəbul təşkil olunub

**Noyabrın 9-da Daşkənddə İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə toplantısı iştirakçılarının şərəfinə rəsmi qəbul təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

## Prezident İlham Əliyev Dövlət Bayrağı Günü ilə bağlı paylaşım edib




## Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana səfəri başa çatıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistana səfəri noyabrın 9-da başa çatıb.
AZƏRTAC xəbər verir ki, Daşkənd Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Azərbaycan Prezidentini Özbəkistanın Baş naziri Abdulla Aripov və digər rəsmi şəxslər yola saldılar

## Birinci vitse-prezident Mehriban Əliyeva Dövlət Bayrağı Günü ilə bağlı paylaşım edib




## Birinci vitse-prezident Mehriban Əliyeva Konstitusiya Günü ilə bağlı paylaşım edib




## "Hava gəmilərində törədilmiş cinayətlər və bəzi digər aktlar haqqında" Konvensiyada dəyişiklik edilməsinə dair Protokola qoşulmaq barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası "Hava gəmilərində törədilmiş cinayətlər və bəzi digər aktlar haqqında" Konvensiyada dəyişiklik edilməsinə dair 2014-cü il aprelin 4-də Monreal şəhərində imzalanmış Protokola qoşulsun.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 oktyabr 2023-cü il*

## M.M.Ağayevin 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında media sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Mir Şahin Mirdilavər oğlu Ağayev 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 noyabr 2023-cü il*

## Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 iyun tarixli 1043 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron məhkəmə" informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 665-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 iyun tarixli 1043 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 685; 2022, № 5, maddə 444; 2023, № 2, maddə 241) ilə təsdiq edilmiş "Elektron məhkəmə" informasiya sistemi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 11.2.21-1-ci yarımbənd əlavə edilsin:

"11.2.21-1. icra sənədinin tərtib edilməsi üçün tələbkar və borclu şəxslər barədə "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 7.1.4-cü maddəsində nəzərdə tutulmuş məlumatlar;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 noyabr 2023-cü il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Zəfər Günü münasibətilə Sizi və Sizin simanızda Azərbaycan xalqını Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat - GUAM-ın Katibliyi adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Onilliklər ərzində işğal altında qalmış Azərbaycan torpaqları Sizin rəhbərliyinizlə şanlı Silahlı Qüvvələrin 2020-ci ildə 44 günlük müharibədə qazandığı tarixi Qələbə nəticəsində azad olundu. Bu qələbə həm də 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş qısamüddətli antiterror tədbirlərindən sonra ölkənin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunmasına möhkəm zəmin yaratmışdır.

Beləliklə, Azərbaycan xalqının uzun müddətdən bəri arzuladığı Böyük qayıdış, nəhayət ki, reallığa çevrildi, ölkənin və xalqın tarixində yeni mərhələyə qədəm qoyuldu. İşğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması, eləcə də keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmaları istiqamətində göstərdiyiniz davamlı və yorulmaz səylərdə Sizə uğurlar arzulayırıq. Biz Azərbaycanın qazandığı nailiyyətləri təkcə ədalətin bərpası və beynəlxalq hüququn təsdiqi kimi deyil, həmçinin böyük milli ideyaya əsaslanan möhkəm birliyin və güclü liderliyin zəfəri kimi dəyərləndiririk. Biz həmçinin inanırıq ki, bu böyük Zəfər və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünün tam bərpası regional sülh, sabitlik və əməkdaşlığın inkişafı prosesində dönüş nöqtəsi ola bilər. Regional təşkilat olaraq biz bu məqsədlərə dəstək və töhfə verməyə hazırıq.

Zati-aliləri, Azərbaycanın daha da güclənməsi və inkişaf etməsi, xalqın rifahının daha da yaxşılaşması prosesində Sizə böyük nailiyyətlər və yeni zəfərlər, Azərbaycan xalqına isə sülh, inkişaf və firavanlıq diləyirik.

*Hörmətlə,*

***Altay ƏFƏNDİYEV,***
***GUAM-ın Baş katibi,***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY-un adından və şəxsən öz adımdan zati-alinizə və Azərbaycan xalqına 8 Noyabr - Zəfər Günü münasibətilə səmimi təbriklərimi və dərin ehtiramımı çatdırıram. Azərbaycanın işğal altındakı torpaqlarının 44 günlük Vətən müharibəsi nəticəsində azad edilməsi bütün türk dünyası üçün qürur və sevinc mənbəyi olmuşdur. Azərbaycan Bayrağı 30 illik işğala son qoyulduqdan sonra Qarabağda dalğalanır. Türk dünyasının nümayəndələrinin Şuşada bir araya gəlmələri türk xalqlarının birliyinin və bu böyük Zəfərə verilən önəmin göstəricisidir.

Əsrlər boyu bütün çətinliklərlə birlikdə mübarizə aparan Azərbaycan xalqının Sizin rəhbərliyinizlə daha parlaq gələcəyə qovuşacağına, həmrəyliyinin daha da möhkəmlənəcəyinə inanırıq.



Zəfər Günü münasibətilə zati-alinizi bir daha təbrik edir, Vətən uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsini ehtiramla yad edir, qazilərə cansağlığı arzulayıram.

Ən dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Sultan RAEV,***
***TÜRKSOY-un Baş katibi***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi və Sizin simanızda azərbaycanlı qardaş və bacılarımızı Zəfər Günü münasibətilə Mərmərə Qrupu Vəqfi adından ürəkdən təbrik edirəm.

Fərəh və sevinc mənbəyi olan böyük Zəfər Bayramınız mübarək!

Sizə hər zaman zəfər dolu günlər arzulayıram.

*Ən dərin hörmətlə,*

***Akkan SUVER,***
***Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Sizi və Sizin simanızda bütün Azərbaycan xalqını böyük dövlət bayramı - Azərbaycanın İkinci Qarabağ müharibəsində Zəfər Günü, həmçinin Dövlət Bayrağı Günü münasibətilə səmimi-qəlbdən təbrik edirik.

Zati-aliləri, hər zaman bəxtiyar olun! Qoy Sizin müdrik rəhbərliyiniz altında ərazi bütövlüyü uğrunda mübarizə aparmış Azərbaycan xalqı daim xoşbəxt olsun!

Ölkənizə sülh, tərəqqi arzulayırıq. Sizə və doğmalarınıza möhkəm cansağlığı diləyirik. Şəxsən öz adımdan, liseyimizin bütün pedaqoji, valideyn kollektivi və 2300 şagirdi adından Sizə minnətdarlığımızı bildiririk.

*Dərin hörmətlə,*

***Valentina ANTONENKO,***
***Ukraynanın İrpen şəhərindəki Zərifə Əliyeva adına humanitar"Linqvist" liseyinin direktoru, Ukraynanın Əməkdar müəllimi, Azərbaycanın "Dostluq" ordeni laureatı***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Uzaq Şərqin Azərbaycan diasporu Sizi və bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik edir. Bizim qüdrətli Ordumuz işğal altındakı torpaqları cəmi 44 gün ərzində azad edib. Qarabağ Azərbaycandır!

Sizin iştirakınızla Xankəndidə hərbi paradın keçirilməsindən böyük qürur duyduq. Vladivostok ilə Bakı arasında on min kilometrdən çox məsafə var, amma biz Uzaq Şərqdə ürəyimizdə alovla uzun müddət davam etmiş münaqişəyə necə son qoyulduğunu izləyirdik. Bu, bütün xalq üçün tarixi hadisədir. Ölkəmizin ərazi bütövlüyünün bərpası ilə bağlı missiya artıq başa çatıb. Bu, bütün xalqın, Ümummilli Lider Heydər Əliyevin arzusu, bizim arzumuz idi.

Üç il əvvəl Qarabağın tacı və mədəniyyətimizin möcüzəvi qədim abidəsi Şuşa şəhərinin düşməndən azad edilməsi Vətən müharibəsinin kulminasiyası oldu. Sizin rəhbərliyinizlə Azərbaycan xalqı hər gün Qələbəni yaxınlaşdırırdı, ordumuz isə rəşadət, güc və yüksək peşəkarlıq nümayiş etdirirdi. Nəticədə biz tarixi ədaləti bərpa etdik. Artıq bir neçə ildir ki, biz böyük sevinc və iftixarla şanlı Qələbəni qeyd edirik, bu ənənəni qoruyuruq və gələcək nəsillərə ötürəcəyik.

İnanırıq ki, Azərbaycan əmin-amanlıq şəraitində gələcəkdə də inkişaf edəcəkdir. Bunun zəmanətçisi Sizsiniz - Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevdir.

Biz, dünyanın müxtəlif guşələrində olan azərbaycanlılar Sizin dəstəyinizi hiss edirik. Biz öz liderimizlə fəxr edirik. Uzaq Şərqin diasporunun hər zaman Sizinlə birlikdə olmasından əmin ola bilərsiniz. Sizi Qələbə münasibətilə bir daha səmimi-qəlbdən təbrik edirik!

*Hörmətlə,*

***Mərdan NOVRUZOV,***
***Rusiya Federasiyası Primorsk diyarı qubernatorunun müşaviri, Primorsk diyarındakı "Azərbaycan Konqresi" Milli-Mədəni İctimai Təşkilatının sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Sizi və bütün Azərbaycan xalqını böyük Zəfər bayramı münasibətilə təbrik edirəm. Bu Qələbə bütün Azərbaycan xalqını - yaşından, təhsilindən, karyera mövqeyindən, yaşayış yerindən, dini etiqadından asılı olmayaraq, hər bir azərbaycanlını sevindirir və qəlbini fərəhlə doldurur.

Qələbə asan qazanılmayıb. Biz Birinci və İkinci Qarabağ müharibələrində şəhidlər vermişik, qəhrəmanlarımızın xatirəsi unudulmayacaq, rəşadətləri isə tərənnüm ediləcək. Mən onların məzarları, onların anaları, ataları, həyat yoldaşları, övladları qarşısında baş əyirəm!

Rəşadətli Ordumuz cəsarət möcüzəsi, hərbi ustalıq və şücaət nümayiş etdirib. Eşq olsun Azərbaycan Ordusuna!

Cənab Prezident, böyük Qələbəmizin qazanılmasında Sizin çox mühüm rolunuzu xüsusi qeyd etməliyik. Çoxəsrlik bəşər tarixi boyu dövlət rəhbəri üçün formalaşmış qiymətləndirmə meyarları vardır. Bu, dövlətin suverenliyini və sərhədlərinin təhlükəsizliyini mühafizə etmək, millətin sağlamlığı, demoqrafik və ekoloji sabitlik, siyasi və iqtisadi müstəqillik, mənəvi dəyərlərin və xalqın kimliyinin qorunub saxlanılmasıdır. Siz bunların hamısına tam şəkildə nail olmusunuz.

İrəlidə böyük işlər var. Yeni tarixi reallıqlar fonunda Sizə və bütün Azərbaycan xalqına qarşıda duran məqsəd və vəzifələrin həyata keçirilməsini və yeni-yeni qələbələr arzulayıram.

Sizi bir daha Zəfər bayramı münasibətilə təbrik edirəm.

Eşq olsun Azərbaycana!

*Dərin hörmətlə, Sizin*

***Məmməd ƏLİYEV,***
***Rusiya Elmlər Akademiyasının və Rusiya Tibb Elmləri Akademiyasının akademiki, "Dostluq", "Şöhrət" ordenləri, Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomu ilə təltif edilmiş, Rusiya Federasiyasının dövlət mükafatı laureatı, Rusiya Hökumətinin mükafatı laureatı, Rusiyanın Əməkdar elm xadimi***

# İqtisadi inkişafın real göstəricisi

## Parlamentdə büdcə müzakirələri başladı

**Noyabrın 13-də Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib. İclasda Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov və hökumət üzvləri iştirak ediblər.**




İclasda ilk olaraq "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi (birinci oxunuş) müzakirə olunub. Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası ölkəmizdə təşəkkül tapmış makroiqtisadi sabitliyi və maliyyə dayanıqlığını daha da möhkəmləndirməyə, iqtisadi inkişaf və təhlükəsizlik sahəsində dövlət siyasətinin prioritetlərini və məqsədlərini əldə etməyə imkan yaradıb. "Milli Məclisdə müzakirəsinə başladığımız dövlət büdcəsinin layihəsi və büdcə zərfinə daxil olan digər sənədlər ölkə həyatında müşahidə olunan müsbət meyilləri əks etdirir. Məmnunluqla qeyd edilməlidir ki, dövlət büdcəsinin həm gəlirləri, həm də xərcləri ildən-ilə artırılır. Gələn il bu göstəricilərin rekord həcmdə olması dövlətimizin artan iqtisadi potensialının təzahürüdür", - deyə Sahibə Qafarova bildirib.

Milli Məclisin Sədri qeyd edib ki, dövlət büdcəsinin layihəsi müasir dövrün çağırışları nəzərə alınmaqla tərtib edilib. Büdcənin sosialyönümlü olmasına xüsusi diqqət yetirilib. Belə ki, gələn il sosialyönümlü xərclərin cari ilə nisbətən 1 milyard 35 milyon manat və ya 7 faiz çox olması nəzərdə tutulur. Dövlət büdcəsinin digər prioritetləri sırasında təhsil, işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri, müdafiə potensialının gücləndirilməsi və silahlı qüvvələrin maddi-texniki təminatı da vardır.

Həmçinin sahibkarlığın inkişafına rəvac verilməsi, ölkənin ərzaq təhlükəsizliyi ilə bağlı tədbirlərin, nəqliyyat, sənaye, energetika və digər sahələrdə infrastruktur layihələrinin dəstəklənməsi diqqət mərkəzində saxlanacaq.

Spiker gələn ilin dövlət büdcəsinin icrası üçün Azərbaycan hökumətinin həyata keçirəcəyi tədbirlərin ölkə Prezidenti tərəfindən müəyyən edilmiş hədəflərin əldə olunmasına, o cümlədən Azərbaycan iqtisadiyyatının davamlı inkişafına, nəzərdə tutulan dövlət proqramlarının və strategiyaların reallaşmasına zəmin yaradacağına inamını ifadə edib.

Sahibə Qafarova onu da bildirib ki, 2024-cü ilin dövlət büdcəsinin layihəsi və büdcə zərfinə daxil olan sənədlər parlament komitələrinin iclaslarında geniş müzakirə olunub və Milli Məclisin plenar iclasına tövsiyə edilib. Hesablama Palatası da büdcə zərfi barəsində müsbət rəyini bildirib. Milli Məclisin Sədri aparılacaq müzakirələrin səmərəli olacağına əminliyini bildirib. O qeyd edib ki, deputatların fikirləri və təklifləri dinləniləcək. Spiker millət vəkillərini müzakirələrdə fəal iştiraka dəvət edib.

İclasda Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili çıxış edib. O qeyd edib ki, 2023-cü ildə qlobal pandemiya ilə mübarizə, torpaqları uğrunda müharibə aparmış, antiterror tədbirləri həyata keçirmiş ölkəmizin iqtisadiyyatının kifayət qədər dözümlü olması dövlət başçısı İlham Əliyevin böyük nailiyyətidir.

Komitə sədri nəzərə çatdırıb ki, Azərbaycan iqtisadiyyatında cari ilin yanvar-sentyabr aylarında əlverişli makroiqtisadi meyillər izlənilib, tamamilə qeyri-neft/qaz sahələri hesabına iqtisadi artım təmin edilib, inflyasiya tempində zəifləmə müşahidə olunub, tədiyyə balansında profisit izlənilib. Belə ki, cari ilin 9 ayı ərzində ölkədə ümumi daxili məhsul 0,8 faiz, qeyri-neft/qaz ümumi daxili məhsulu 3 faiz artıb, neft-qaz ümumi daxili məhsulu isə 1,5 faiz azalıb. Bu dövrdə orta illik inflyasiyanın səviyyəsi 10,9 faiz olub. İlin sonuna bu göstəricinin 9,5 faiz olacağı proqnozlaşdırılır. İl ərzində Mərkəzi Bank tərəfindən uçot dərəcəsi artırılsa da, bu ay ilk dəfə olaraq uçot dərəcəsi aşağı salınıb. Cari ilin 8 ayı ərzində strateji valyuta ehtiyatlarımız artaraq 67,5 milyard dollara çatıb. Bu müddətdə büdcə gəlirləri proqnoza nisbətən 106 faiz icra edilib. Dövlət Neft Fondunun vəsaitlərindən 6,5 milyard manat istifadə etmək proqnozlaşdırılsa da, bu məbləğin yalnız yarısından istifadə edilib. Büdcə xərcləri proqnozla müqayisədə 105,6 faiz icra edilib, 218 milyon manat kəsir qeydə alınıb.

Bildirilib ki, 2024-cü ilin dövlət büdcəsi ilə birlikdə təqdim olunmuş makroiqtisadi çərçivəyə əsasən, növbəti il ölkə iqtisadiyyatında əlverişli makroiqtisadi mühitin müşahidə ediləcəyi, o cümlədən ölkə iqtisadiyyatının real artım, məqbul inflyasiya, profisitli tədiyyə balansı və sabit məzənnə ilə xarakterizə olunacağı nəzərdə tutulur. Növbəti il və sonrakı üç ilin makroiqtisadi çərçivəsi baza, optimist və pessimist olmaqla 3 ssenaridə hazırlanıb, növbəti ilin büdcə layihəsinin tərtibi zamanı baza ssenari əsas olaraq qəbul edilib. Baza ssenari üzrə proqnozların hazırlanması zamanı neftin qiyməti 60 ABŞ dolları müəyyən edilib.

Tahir Mirkişili qeyd edib ki, layihədə baza ssenaridə 2024-cü ildə ümumi daxili məhsulun real artım tempinin 2,4 faiz, qeyri-neft/qaz ümumi daxili məhsulun real artım tempinin isə 4,6 faiz olacağı, artımın əsasən qeyri-neft sektoru hesabına təmin olunacağı, qeyri-neft/qaz sektorunun ümumi daxili məhsulda payının 71,2 faizə, orta aylıq əməkhaqqının 980 manata çatacağı, orta illik inflyasiyanın 5,3 faiz olacağı, tədiyyə balansının, cari əməliyyatlar hesabının və xarici ticarət balansının profisitli olacağı proqnozlaşdırılır. Növbəti ildə dövlət büdcəsinə hesablanan vergi və gömrük rüsumları üzrə daxilolmaların ümumi həcmi 19,8 milyard manatı keçəcəkdir.

Komitə sədri bildirib ki, layihədə 2024-cü il üçün dövlət büdcəsinin gəlirləri 2023-cü ilin dövlət büdcəsi gəlirlərindən 282,5 milyon manat çox olaraq, 34 milyard 173 milyon manat nəzərdə tutulub. Dövlət büdcəsi gəlirlərinin 50,2 faizi qeyri-neft sektorunun, 49,8 faizi isə neft-qaz sektorunun hesabına formalaşacaq. Qeyri-neft/qaz sektorunda büdcə daxilolmalarının 1058,2 milyon manat artması, neft qaz sektorundan büdcə daxilolmalarının isə 775,7 milyon manat azalması proqnozlaşdırılır. Son 5 il ərzində dövlət büdcəsinin qeyri-neft gəlirləri təqribən 6,3 milyard manat və ya 60 faiz artıb.

O qeyd edib ki, 2024-cü il dövlət büdcəsi xərclərinin 2023-cü ilə nisbətən 138,2 milyon manat artırılaraq, 36 milyard 763 milyon manata çatdırılması məqbul hesab edilir. Dövlət büdcəsi xərclərində sosialyönümlü xərclərin 1034,5 milyon manat artırılaraq 15 772,9 milyard manata və ya xərclərin 42,9 faizə çatdırılması dövlətin sosial siyasətinin icra edilməsini lazımi maliyyə resursları ilə təmin edəcək.

Tahir Mirkişili deyib ki, işğaldan azad olunmuş ərazilərə Böyük qayıdışın təmin edilməsi üçün şəhər və kəndlərin yenidən qurulması və bərpası, həmin ərazilərdə müasir infrastrukturların yaradılması məqsədilə dövlət büdcəsindən 4 milyard manat vəsait nəzərdə tutulması bu regionun iqtisadi və sosial həyata reinteqrasiyasına mühüm töhfə verəcək. O, müdafiə, təhlükəsizlik, məhkəmə, hüquq-mühafizə və prokurorluq xərclərinin təxminən 560 milyon manat artırılmasını ölkəmizin bu sahədə olan təhlükələrdən qorunması baxımından müsbət hesab edib.

Komitə sədri təhsilə ayrılan xərclərin 142,8 milyon manat artırılmasını bu istiqamətdə aparılan islahatların həyata keçirilməsi baxımından müsbət qiymətləndirib. O, keçmiş məcburi köçkün, ölkənin suverenliyi, ərazi bütövlüyü uğrunda həlak olmuş, əlil şəxslərin övladları olan tələbələr, döyüş əməliyyatlarında iştirak etdiyinə görə müharibə veteranı adı almış şəxslər və digər güzəştli kateqoriyaya aid şəxslərin təhsili üçün dövlət büdcəsindən 38 milyon manat vəsait ayrılmasının sosial ədalət baxımından vacib olduğunu deyib.

O, səhiyyə xərcləri çərçivəsində İcbari Tibbi Sığorta büdcədən kənar fonduna dövlət büdcəsindən köçürmənin 112 milyon manat artırılmasını təqdirəlayiq hesab edib.

Qeyd olunub ki, təqdim edilmiş layihədə 2024-cü ildə dövlət büdcəsinin kəsiri 144,3 mln manat azaldılaraq 2 590 milyon manat, dövlət büdcəsinin kəsirinin ÜDM-ə nisbəti isə 2,2 faiz təşkil edəcək.

Sonra iclasda maliyyə naziri Samir Şərifov çıxış edib. O bildirib ki, Azərbaycan dövləti artıq 3 ildir ki, müasir sosial-iqtisadi inkişafının ən vacib prioriteti kimi müəyyən etdiyi işğaldan azad edilmiş ərazilərimizdə quruculuq prosesini sürətlə həyata keçirir. 2020-ci ilin sonundan etibarən yenidənqurma və bərpa tədbirlərinə hər il dövlət büdcəsindən ayrılan vəsaitlə yanaşı, büdcənin əlavə gəlirləri və qənaətləri səfərbər edilməklə 11 milyard manatdan çox vəsait xərclənib. Cari ilin sonunda isə bu xərclərin 12 milyard manata çatması gözlənilir. Bu vəsaitlər hesabına Qarabağ və Şərqi Zəngəzurda bir sıra böyük infrastruktur layihələr tamamlanaraq istifadəyə verilib, irimiqyaslı layihələrin əsası qoyulub. "Böyük qayıdış" proqramı çərçivəsində Zəngilan, Laçın, Füzuliyə vətəndaşların qayıdışına başlanılıb. Qarabağın və Şərqi Zəngəzurun ölkə iqtisadiyyatına reinteqrasiyası qarşıdakı illərdə də əsas milli prioritetlərdən biri olacaq.

Nazir qeyd edib ki, Cənubi Qafqaz regionunda Azərbaycanın yaratdığı yeni reallıqlar şəraitində dövlətimizin haqlı mövqeyinin və maraqlarının müdafiəsi, ərazi bütövlüyümüzün və sərhədlərimizin toxunulmazlığının təmin edilməsi baxımından ölkənin müdafiə qabiliyyətinin, milli təhlükəsizliyinin daha da möhkəmləndirilməsi xərclərinin yüksək səviyyədə saxlanılması növbəti il üçün də əsas prioritet olaraq qəbul edilib.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin Milli Məclisə təqdim etdiyi "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsində dövlət büdcəsinin gəlirləri 34 milyard 173 milyon manat, xərcləri 36 milyard 763 milyon manat, dövlət büdcəsinin kəsiri 2 milyard 590 milyon manat məbləğində nəzərdə tutulub. Dövlət büdcəsinin xərcləri növbəti il üçün proqnozlaşdırılan ümumi daxili məhsula nisbətdə 31,1 faiz, 2023-cü illə müqayisədə 0,5 faiz bənd çox, gəlirləri 28,9 faiz, 2023-cü illə müqayisədə 0,6 faiz bənd çox, kəsiri isə 2,2 faiz, 2023-cü illə müqayisədə 0,1 faiz bənd az təşkil edəcək.

Qeyd olunub ki, cari ilin iyununda yenidən baxılma ilə 3,4 milyard manat məbləğində və ya 10,2 faiz artırılmış 2023-cü ilin dövlət büdcəsinin xərcləri ilə müqayisədə növbəti ilin dövlət büdcəsinin xərcləri 0,4 faiz artımla proqnozlaşdırılsa da, 2020-ci illə müqayisədə 2024-cü ildə dövlət büdcəsinin xərcləri 10 milyard 347 milyon manat və ya 40 faiz artıb. Növbəti ilin dövlət büdcəsi xərclərinin 18,8 milyard manatı və ya 51 faizdən artıq hissəsi məqsədli dövlət proqramlarının və tədbirlərin maliyyələşdirilməsinə yönəldiləcək. Müdafiə və milli təhlükəsizliyin daha da möhkəmləndirilməsi, Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın məqsədlərinin reallaşdırılması üzrə tədbirlərin maliyyələşdirilməsi prioritet olaraq qəbul edilib. Buna uyğun olaraq, 2024-cü ildə azad edilmiş ərazilərdə yenidənqurma və bərpa işlərinə dövlət büdcəsi xərclərinin 10,9 faizi və ya 4 milyard manat məbləğində vəsait ayrılacaq. Müdafiə və milli təhlükəsizlik xərclərinə 17,5 faiz və ya 6 milyard 421 milyon manat məbləğində vəsait nəzərdə tutulub və bu, 2023-cü illə müqayisədə 366 milyon manat və ya 6 faiz çoxdur.

Qeyd edilib ki, 2024-cü ildə dövlət büdcəsi xərclərinin 43 faizi, onun cari xərclərinin isə 70 faizi və ya 15 milyard 773 milyon manatı sosialyönümlü xərclərin maliyyələşdirilməsinə istifadə olunacaq. Cari ilin göstəriciləri ilə müqayisədə bu, 1 milyard 35 milyon manat və ya 7 faiz çoxdur. Xərclərin 24,5 faizi və ya 9 milyard manatı, sosialyönümlü xərclərin isə 57 faizi əməyin ödənişi xərclərinin payına düşür. Əhalinin sosial müdafiəsi və sosial təminat xərcləri üçün 4 milyard 542 milyon manat, sosial müavinətlər, təqaüdlər və digər sosial xarakterli ödənişlərin maliyyə təminatı üçün 2 milyard 631 milyon manat, keçmiş məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı 355 milyon manat vəsait nəzərdə tutulur. Dövlət büdcəsindən səhiyyə xərcləri üçün 1 milyard 871 milyon manat, bütövlükdə dövlət və icmal büdcələrindən bu sahəyə isə 3 milyard 307 milyon manat vəsait ayrılacaq. Təhsil və elm xərclərinə 4 milyard 779 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi ilə bağlı tədbirlərin maliyyə təminatı üçün 1 milyard 110 milyon manat vəsaitin ayrılması proqnozlaşdırılır.

Bildirilib ki, təqdim edilən layihədə dövlət büdcəsi xərclərinin 93 faizinin və ya 34 milyard 173 milyon manatının dövlət büdcəsinin gəlirləri hesabına maliyyələşdirilməsi nəzərdə tutulub. Nəzərə çatdırılıb ki, növbəti ildə dövlət büdcəsinin gəlirləri bərabər səviyyədə neft və qeyri-neft sektorlarından toplanacaq daxilolmalar hesabına təmin olunur. Qeyri-neft sektorundan proqnozlaşdırılan gəlirlərin 58,2 faiz və ya 9 milyard 890 milyon manatını vergi daxilolmaları, 34,7 faiz və ya 5 milyard 9 milyon manatını gömrük rüsumları və idxala vergi daxilolmaları, 4,9 faiz və ya 831 milyon manatını büdcə təşkilatlarının ödənişli xidmətləri üzrə daxilolmalar, 2,2 faiz və ya 388 milyon manatını digər daxilolmalar təşkil edəcək. Dövlət büdcəsinin neft-qaz sektorundan gəlirləri Dövlət Neft Fondundan dövlət büdcəsinə ediləcək 12 milyard 781 milyon manat məbləğində transfert nəzərə alınmadan, 4 milyard 384 milyon manat məbləğində proqnozlaşdırılıb.

Maliyyə naziri nəzərə çatdırıb ki, 2024-cü il üçün icmal büdcənin gəlirləri 38 milyard 998 milyon manat, xərcləri 42 milyard 376 milyon manat, kəsiri isə 3 milyard 379 milyon manat həcmində proqnozlaşdırılır. O qeyd edib ki, Dövlət Neft Fondunun gəlirləri 12 milyard 73 milyon manat, xərcləri isə 12 milyard 862 milyon manat təşkil edəcək. Növbəti ildə Dövlət Sosial Müdafiə Fondunun büdcəsi 6 milyard 920 milyon manat, İcbari Tibbi Sığorta Fondunun büdcəsi 2 milyard 811 milyon manat, İşsizlikdən Sığorta Fondunun büdcəsi 238 milyon manat, Naxçıvan Muxtar Respublikasının büdcəsi 516 milyon manat təşkil edəcək.

İclasda çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, cari ilin 9 ayında neft-qaz sektorunda real ÜDM-in 1,5 faiz azalmasına baxmayaraq, qeyri-neft/qaz sektorunda iqtisadi artımın 3 faiz təşkil etməsi ümumi iqtisadi artıma müsbət təsir göstərmişdir. Belə ki, qeyri-neft/qaz sənayesi 6,3 faiz, tikinti sektoru 12,5 faiz, informasiya və rabitə sektoru 14,7 faiz, turizm sektoru 26 faiz, kənd təsərrüfatı 3 faiz, ticarət sektoru isə 3,3 faiz artmışdır. Əsas kapitala investisiya qoyuluşlarının real artım tempinin 21 faizi, o cümlədən qeyri-neft/qaz sektorunda 23 faizi ötməsi iqtisadi artıma və məşğulluğa müsbət təsir etmişdir ki, burada da işğaldan azad edilmiş ərazilərin bərpası üzrə həyata keçirilən investisiyalar mühüm amillərdən biridir.

Nazir diqqətə çatdırıb ki, neft və qazın dünya bazar qiymətlərinin ötən illə müqayisədə aşağı düşməsinə baxmayaraq, xarici ticarət balansında böyükhəcmli profisit müşahidə olunmaqdadır. Belə ki, cari ilin 10 ayında ixrac 29 mlrd. ABŞ dollarını ötmüş, ticarət balansının profisiti 15 mlrd. ABŞ dollarından çox olmuşdur. Qeyri-neft/qaz sektorunun ixracı isə 11 faizdən çox artaraq 2,7 mlrd. ABŞ dollarını ötmüşdür. Emal olunmuş kənd təsərrüfatı məhsulları çıxılmaqla qeyri-neft sənaye məhsullarının qeyri-neft/qaz ixracında payı 68 faizə çatmaqdadır. Cari ilin 9 ayında qeyri-neft/qaz sənaye məhsullarının ixracında sənaye zonalarının payı 23 faizə çatmışdır. Həmçinin hökumət tərəfindən həyata keçirilən antiinflyasiya tədbirləri sayəsində inflyasiya tədricən yavaşlamış, nəticədə, 2023-cü ilin 9 ayında inflyasiya 10,9 faiz olmuşdur.

Nazir bildirib ki, iqtisadi artımın davam etməsi və şəffaflaşma şəraitində cari ilin 10 ayında dövlət büdcəsinə 14,6 mlrd. manat vergi daxilolmaları təmin edilmiş, proqnozdan əlavə 1,1 mlrd. manata yaxın vergi toplanmışdır. Qeyri-neft/qaz sektoru üzrə dövlət büdcəsinə 8,4 mlrd. manat vergi daxilolmaları (proqnozdan əlavə 550 mln. manat) təmin edilmiş, sektor üzrə daxilolmalar ötən ilin eyni dövrünə nisbətən 19 faizdən çox artmışdır. Cari ilin 9 ayında dövlət büdcəsinin gəlirlərində qeyri-neft/qaz gəlirlərinin xüsusi çəkisi 59,5 faiz təşkil etmişdir.

Sosial sığorta yığımları üzrə də yüksək artım dinamikasının müşahidə olunduğunu deyən Mikayıl Cabbarov cari ilin 10 ayında məcburi dövlət sosial sığortası üzrə daxilolmaların ötən ilin eyni dövrü ilə müqayisədə 14 faizdən çox artaraq 4,2 mlrd. manat təşkil etdiyini diqqətə çatdırıb. Ölkə Prezidentinin təşəbbüsünə uyğun olaraq, əmək bazarının leqallaşdırılması məqsədilə əməkhaqqı üzrə islahatların uğurla həyata keçirildiyini vurğulayan nazir əmək bazarında müşahidə olunan müsbət tendensiyalarla bağlı göstəriciləri diqqətə çatdırıb.

Mikayıl Cabbarov cari ildə ölkə iqtisadiyyatında həyata keçirilən bəzi struktur islahatları və onların nəticələri barədə də qısa məlumat verib. O bildirib ki, özəlləşdirmədən dövlət büdcəsinə 104 mln. manata yaxın vəsait daxil olub və 10 aylıq proqnoz 116 faizdən çox icra edilib. Nazir həmçinin ölkə başçısının tapşırıqlarına əsasən, iri dövlət müəssisələrinin restrukturizasiyası və sağlamlaşdırılması, ölkədə azad və sağlam rəqabətin, bazar subyektlərinin hüquqlarının təmin olunması, dövlət satınalmaları sahəsində şəffaflığın artırılması kimi istiqamətlərdə həyata keçirilən tədbirləri diqqətə çatdırıb.

Sahibkarlığa dəstək tədbirləri ilə bağlı nazir qeyd edib ki, cari ilin 10 ayında sahibkarların ümumi dəyəri 294 mln. manatdan çox 2,4 mindən artıq layihəsinə 127 mln. manatadək güzəştli kredit verilib. Həmçinin cari ildə yerli istehsalın maya dəyərinin aşağı salınması, ixrac potensialının və istehsal olunan malların xarici bazarlarda rəqabət qabiliyyətinin artırılması məqsədilə yerli istehsalı olmayan və istehsal prosesində istifadə olunan 300-ə yaxın aralıq mallar idxal gömrük rüsumlarından azad edilib.

Cari ildə dövlət başçısının sərəncamı ilə təsdiq olunmuş Naxçıvanın sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının icrasından danışan nazir bu ilin 10 ayında ötən ilin eyni dövrü ilə müqayisədə muxtar respublika üzrə vergi daxilolmalarının 32 faizdən çox artdığını bildirib. İqtisadiyyat naziri işğaldan azad edilmiş ərazilərdə istehsalın və sahibkarlıq fəaliyyətinin dəstəklənməsi tədbirlərindən söz açaraq, yerli və xarici sərmayəçilər üçün əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə yaradılan sənaye parkları və görülən digər işlər barədə danışıb.

Mikayıl Cabbarov bildirib ki, 2024-cü il və orta müddətli dövr üçün İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanmış makroiqtisadi proqnozlar 3 ssenaridə - baza, optimist və pessimist ssenarilərdə hazırlanaraq, büdcə tərtibi prosesində risklərin qiymətləndirilməsi üçün istifadə edilmişdir.

Sonra iclasda Mərkəzi Bankın İdarə Heyətinin sədri Taleh Kazımov çıxış edərək, ölkəmizdə iqtisadi artımla bağlı proqnozları nəzərə çatdırıb. O qeyd edib ki, iqtisadi artımın 2024-cü ildə 3,3 faiz, 2025-ci ildə isə 3,2 faiz olacağı proqnozlaşdırılır. Qeyri-neft/qaz sektorunda ÜDM üzrə artımın 2023-cü ildə 2,8 faiz, 2024-cü ildə 5,4 faiz, 2025-ci ildə 5,1 faiz olacağı gözlənilir. Növbəti ildə cari əməliyyat balansı 8,5 milyard ABŞ dolları, 2025-ci ildə isə 7 milyard ABŞ dolları təşkil edəcək. Oktyabrın sonuna valyuta ehtiyatları 66 milyard ABŞ dollar səviyyəsinə qalxıb, bu isə 13,4 faiz artım təşkil edir. Mərkəzi Bankın ehtiyatları 16,8 faiz artaraq, 10,5 milyard ABŞ dolları təşkil edib.

Taleh Kazımov 25 aylıq fasilədən sonra illik inflyasiyanın 5,1 faizə endiyini söyləyib, inflyasiyaya həm xarici, həm də daxili amillərin təsiri barədə danışıb.

Pul siyasəti ilə bağlı qeyd edilib ki, hesabat dövründə Mərkəzi Bank öz səlahiyyətləri çərçivəsində inflyasiyanı məhdudlaşdırmağa çalışıb, pul siyasətinin əməliyyat çərçivəsinin təkmilləşdirilməsi üzrə bir sıra tədbirlər görülüb. Tətbiq olunan yeni pul siyasətinə görə sterilizasiya portfelinin həcminin artaraq 6,4 milyard manata çatdığı, ilk dəfə olaraq banklararası bazarın yarandığı bildirilib. Qeyd olunub ki, Mərkəzi Bankın maliyyə sabitliyi siyasəti və nəzarət tədbirləri maliyyə sektorunun stabil fəaliyyətinə və ödənişlərin fasiləsizliyinə yönəlib. Sahibkarların maliyyə çıxışının genişləndirilməsi diqqətdə saxlanılıb.

Bank sektoruna və manata inamın artdığını deyən Taleh Kazımov cari ilin 9 ayı ərzində milli valyutada əhalinin əmanətlərinin 15,6 faiz və ya 1,1 milyard manat artaraq 8 milyard manat təşkil etdiyini söyləyib.

Sonra Mərkəzi Bankın sədri 2024-cü ilin pul siyasətinin əsas istiqamətləri barədə məlumat verib. Qeyd edilib ki, növbəti ildə pul siyasəti inflyasiyanın müəyyən edilmiş dəhliz daxilində formalaşmasına yönələcək, pul siyasətinin əməliyyat çərçivəsinin təkmilləşdirilməsi davam etdiriləcək. Mərkəzi Bankın proqnozlarına əsasən, 2023-cü ilin illik inflyasiyasının 4,3 faizdən aşağı olacağı, 2024-cü ildə illik inflyasiyanın 5,3 faiz, 2025-ci ildə isə 3,4 faiz olacağı proqnozlaşdırılır.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi və bu qanunla birgə təqdim edilmiş sənədlərə palata tərəfindən hazırlanmış rəyi təqdim edib. Palatanın sədri rəyin hazırlanmasında istifadə olunan məlumat mənbələrini, riayət edilən tələbləri və standartları diqqətə çatdırıb. Qeyd edib ki, proqnoz maliyyə məlumatlarının yoxlanması zamanı 3 istiqamətə dair yetərli sübutların toplanmasına çalışılıb. Çıxışında bu istiqamətlər üzrə bəzi məqamlara toxunan Vüqar Gülməmmədov proqnoz maliyyə məlumatlarının əsasını təşkil edən fərziyyələrin əsaslı olması ilə bağlı qeyd edib ki, aparılan qiymətləndirmələr baza ssenaridə əsas şərtlər yerinə yetiriləcəyi təqdirdə makroiqtisadi çərçivənin reallaşacağını deməyə imkan verir.

Proqnoz maliyyə məlumatlarının adekvat şəkildə açıqlanması ilə bağlı palata sədri bildirib ki, qanun layihəsində gəlir və xərclərin ümumi məbləği, mənbələri və istiqamətləri, eləcə də onların müxtəlif təsnifləşdirmə meyarları əsasında bölgüsü, həmçinin kəsir və borclanmaya dair parametrlər əks olunub. Bu da "Büdcə sistemi haqqında" qanunun 16-cı maddəsindəki əsas göstəricilərə tam əhatə edir. Eyni zamanda 2024-cü il üçün dövlət büdcəsinin layihəsi ilə birlikdə təqdim olunan sənədlərdə bir sıra yeniliklər tətbiq olunub, keyfiyyətin artırılması istiqamətində addımlar atılıb, ilk dəfə olaraq, məqsədli proqram və tədbirlərə dair ayrıca sənəd büdcə sənədləşməsinə daxil edilib.

Büdcə layihəsinin xərc və gəlir parametrləri üzrə qeydləri səsləndirən palata sədri dövlət maliyyəsinin idarəedilməsi üzrə bəzi məqamları və bu istiqamətdə Hesablama Palatasının tövsiyələrini də diqqətə çatdırıb.

Sonra iclasda "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi ətrafında müzakirələr aparılıb. Deputat Elşən Musayev sənəd barədə fikirlərini səsləndirib.

Fasilədən sonra qanun layihəsinin müzakirəsi davam etdirilib. Milli Məclisin komitə sədrləri Musa Quliyev, Siyavuş Novruzov, Səməd Seyidov, deputatlar Əli Məsimli, Fatma Yıldırım, Elşad Mirbəşiroğlu, Bəhruz Məhərrəmov, Jalə Əhmədova, Müşfiq Məmmədli, Kamran Bayramov, Fazil Mustafa, Azər Badamov, Elman Nəsirov, Şahin İsmayılov, Sahib Alıyev, Səttar Möhbalıyev, Ceyhun Məmmədov və Fəzail Ağamalı çıxış ediblər. Millət vəkilləri gələn ilin dövlət büdcəsini tariximizin ən şərəfli dövründə hazırlanmış büdcə kimi xarakterizə edərək sənədin Azərbaycan reallıqlarına, qarşıya qoyulmuş hədəflərə, müasir çağırışlara uyğun olduğunu vurğulayıblar. Onlar müzakirə edilən büdcə layihəsinin parametrləri, proqnoz göstəriciləri, gəlirləri, xərc istiqamətləri, büdcə vəsaitlərinin icrasında şəffaflığın artırılması, istehsal sahələrinin, iş yerlərinin açılması, regionların iqtisadi inkişafı, bölgələrin iqtisadi tərəqqisi kimi məsələlərlə bağlı fikirlərini bildiriblər, rəy və təkliflərini səsləndiriblər.

2024-cü ilin dövlət büdcəsi layihəsinin müzakirələri bu gün davam etdiriləcək.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Azərbaycan regionda sülh gündəliyinin irəliləyişinə sadiqdir



**Milli Məclisin Sədri Sahibə Qafarova noyabrın 13-də ATƏT Parlament Assambleyasının prezidenti Pia Kaumanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Cənubi Qafqaz regionunda vəziyyət haqqında fikir mübadiləsi aparılıb. Spiker Sahibə Qafarova Ermənistanın Azərbaycan ərazilərini 30 illik işğalı və onun nəticələri, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti haqqında fikirlərini bildirib. O, 2020-ci ildə Vətən müharibəsində Azərbaycanın öz ərazilərini Ermənistanın işğalından azad etdikdən sonra məhz ölkəmizin beynəlxalq hüququn 5 prinsipinə, o cümlədən ərazi bütövlüyünə və bir-birinin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmətə əsaslanan sülh gündəliyini irəli sürdüyünü diqqətə çatdırıb. O, təəssüflə qeyd edib ki, Ermənistan sülhə nail olmaq üçün lazımi siyasi iradə nümayiş etdirməyib. Belə ki, Ermənistan 2020-ci il 10 noyabr Bəyanatından irəli gələn öhdəliklərini yerinə yetirməyib, Azərbaycana qarşı hərbi-siyasi təxribatları davam etdirib.

Milli Məclisin Sədri bu ilin sentyabr ayında Azərbaycan Ordusu tərəfindən həyata keçirilən antiterror tədbirləri barədə məlumat verib. O qeyd edib ki, antiterror tədbirləri beynəlxalq hüquq normalarına tam uyğun olaraq həyata keçirilib. Mülki infrastruktura heç bir ziyan dəyməyib və mülki əhaliyə qarşı heç bir zorakılıq faktı qeydə alınmayıb.

Sahibə Qafarova həmçinin Qarabağın etnik erməni sakinlərinin reinteqrasiyası ilə bağlı Azərbaycan tərəfindən təklif olunan tədbirlər barədə də danışıb. O buna baxmayaraq, Ermənistanın azərbaycanlıların Ermənistana geriqayıtma hüququnu inkar etdiyini diqqətə çatdırıb.

Spiker Ermənistan tərəfindən törədilən mina təxribatları barədə də danışaraq, bildirib ki, bu ölkə tərəfindən basdırılmış 1 milyondan çox mina Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa və yenidənqurma işlərinə ciddi maneçilik törədir.

Milli Məclisin Sədri görüşdə həmçinin ölkəmizə qarşı müşahidə olunan ikili standartları sərt tənqid edib. O, istər Azərbaycan torpaqlarının Ermənistanın işğalı altında olduğu 30 ilə yaxın dövr ərzində, istərsə də ölkəmizin öz torpaqlarını azad etdikdən sonra ötən müddətdə müşahidə olunan ikili standartların qəbuledilməz olduğunu bildirib.

Görüşdə Sahibə Qafarova diqqətə çatdırıb ki, Azərbaycan Cənubi Qafqazın təhlükəsiz və sabit gələcəyi üçün əsas maraqlı tərəfdir və Azərbaycan regionda sülh gündəliyinin irəliləyişinə sadiqdir. Spiker təəssüflə qeyd edib ki, Ermənistan sülh naminə çalışmaq əvəzinə hələ də Azərbaycana qarşı yalan və əsassız ittihamlar əsasında beynəlxalq ictimaiyyəti çaşdırmağa çalışır.

O, Ermənistanın Azərbaycana qarşı qarayaxma kampaniyasında bütün imkan və platformalardan istifadə etməkdə davam etdiyini bildirib və bəzi beynəlxalq təşkilatlarda Ermənistanın bu yalanlarının dəstək görməsindən təəssüfünü ifadə edib. Sahibə Qafarova vurğulayıb ki, Azərbaycanın, guya, "etnik təmizləmə" aparması ilə bağlı Ermənistan tərəfindən irəli sürülən iddialar əsassız və yalandır. Spiker qeyd edib ki, real vəziyyəti təhrif edən, nifrət və düşmənçiliyi davam etdirən istənilən cəhdin qarşısı alınmalıdır və vəziyyəti çətinləşdirəcək birtərəfli hərəkətlərdən, bəyanatlardan çəkinmək vacibdir. Milli Məclisin Sədri bu çərçivədə ATƏT PA-nın tədbirlərinin Ermənistanın Azərbaycana qarşı yalan təbliğatı üçün bir platformaya çevrilməməsinin əhəmiyyətini qeyd edib.

Görüşdə ATƏT PA-nın Ermənistan və Azərbaycan nümayəndə heyətləri arasında etimadın qurulması baxımından mümkün rolu barədə də fikirlər səsləndirilib.

Tərəflər həmçinin Azərbaycan Milli Məclisi ilə ATƏT Parlament Assambleyası arasında əməkdaşlıq məsələləri haqqında da müzakirələr aparıb.

*"Azərbaycan"*

# Milli Məclisdə vətəndaş qəbulu keçirilib



**Noyabrın 13-də Milli Məclisin Sədr müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev qəbul qrafikinə uyğun olaraq, Milli Məclisdə növbəti dəfə vətəndaşların qəbulunu keçirib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, vitse-spiker Adil Əliyev qəbulda şəhidlərin ailə üzvlərinin, qazilərin və digər vətəndaşların müraciətlərini dinləyib. Qəbul zamanı qaldırılmış müxtəlif məzmunlu müraciətlərin bir qisminin yerindəcə həllinə nail olunub. Habelə sosial, humanitar, məişət və digər mövzularla əlaqədar qaldırılan müraciətlərin araşdırılması və həll edilməsi məqsədilə aidiyyəti orqanlara sorğular hazırlanıb.

Qəbulda bildirilib ki, ölkə Prezidenti tərəfindən vətəndaşların müraciətlərinə yüksək həssaslıqla yanaşılması barədə verilən tapşırıq və tövsiyələrə uyğun olaraq, mütəmadi şəkildə qəbulların keçirilməsi və vətəndaşların dinlənilməsi həyata keçirilir. Qeyd olunub ki, Milli Məclisin Sədr müavini Adil Əliyevin də ünvanına daxil olan bütün müraciətlərə yüksək həssaslıqla yanaşılır, müraciətlərdə qaldırılan məsələlərin həlli məqsədilə mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq tədbirlər görülür.

*"Azərbaycan"*

# ATƏT Parlament Assambleyasının prezidenti ilə görüş

**ATƏT Parlament Assambleyasında (ATƏT PA) Azərbaycan nümayəndə heyətinin üzvləri noyabrın 13-də ölkəmizdə səfərdə olan ATƏT PA-nın prezidenti Pia Kaumanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüblər.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları salamlayan bu qurumda Azərbaycan nümayəndə heyətinin rəhbəri Azay Quliyev ATƏT PA sədrinin regiona səfərindən danışıb. O bu səfərin daha düzgün informasiya almaq baxımından əhəmiyyətini qeyd edib və əməkdaşlığa müsbət töhfə verəcəyinə inandığını deyib. Azay Quliyev qonaqların keçirdikləri görüşlərdə faydalı müzakirələrin aparılmasından məmnunluğunu ifadə edib. O, ATƏT PA prezidentinin regionda sülhə dair səylərinin yüksək qiymətləndirildiyini söyləyib.

Qonaqpərvərliyə görə təşəkkür edən ATƏT PA-nın prezidenti Pia Kauman sonuncu dəfə Bakıda 9 il əvvəl olduğunu diqqətə çatdırıb və ölkəmizdəki inkişafı təqdir edib. O, Prezident İlham Əliyevlə keçirdiyi görüş barədə təəssüratlarını bölüşüb, onun gələcək barədə optimist və pozitiv olmasından məmnunluqla danışıb. Qonaq Cənubi Qafqaz ölkələrinin regionda sülhə nail olacaqlarına və birgə güclü iqtisadi əlaqələr yaradacaqlarına inamını bildirib.

Söhbət zamanı Azərbaycanın sülh gündəliyinin dəstəklənməsi, işğaldan azad olunmuş ərazilərdə mina probleminin həlli, Cənubi Qafqazda regional əməkdaşlıq, qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıtması, Ermənistan və Azərbaycan arasında normallaşma prosesində ATƏT PA-nın rolu və digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Azərbaycanın müdafiə naziri Birləşmiş Ərəb Əmirliklərinə səfərə gedib

Noyabrın 13-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) keçirilən "Dubai Airshow - 2023" beynəlxalq sərgisində iştirak etmək məqsədilə bu ölkəyə səfər edib. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində general-polkovnik Z.Həsənovun konfrans və panel müzakirələrdə iştirakı nəzərdə tutulur.

# Azərbaycan ilə Türkiyə arasında mədəniyyət sahəsində əməkdaşlığa dair saziş imzalanıb

**Azərbaycan ilə Türkiyənin mədəni əlaqələrini daha da dərinləşdirəcək daha bir addım atılıb. Mədəniyyət naziri Adil Kərimlinin rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyəyə səfəri zamanı noyabrın 13-də Ankarada "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlığa dair Saziş" imzalanıb.**



Bu barədə AZƏRTAC-a Mədəniyyət Nazirliyindən bildirilib.

Sənədi Azərbaycanın mədəniyyət naziri Adil Kərimli və Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy imzalayıblar.

Sənəddə iki ölkə arasında mədəniyyətin müxtəlif sahələrində təbliğatın təşviqi, qarşılıqlı mədəniyyət günlərinin, müxtəlif mədəni tədbirlərin keçirilməsi, ədəbiyyat, təsviri və tətbiqi incəsənət, musiqi, film festivalları, müsabiqə və konfranslarda iştirakla bağlı müddəalar yer alıb. Sazişdə qeyri-maddi mədəni irs, eləcə də iki ölkənin muzey və kitabxanaları arasında əməkdaşlığın genişləndirilməsi kimi məsələlər də öz əksini tapıb.

İmzalanma mərasimindən sonra iki ölkənin nazirləri media nümayəndələri qarşısında çıxış ediblər.

Azərbaycan nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirən Adil Kərimli sazişin əhəmiyyətini yüksək qiymətləndirib. Qeyd edilib ki, sənəd ölkələrimiz arasında mədəni əməkdaşlığın inkişaf etdirilməsi, bu sahədə hüquqi bazanın genişləndirilməsini nəzərdə tutur.

Nazirin çıxışında vurğulanıb ki, Prezident İlham Əliyevin 6 oktyabr 2023-cü il tarixli sərəncamı ilə Azərbaycan mədəniyyətinin, tarixinin və dilinin qardaş ölkədə daha geniş təbliği məqsədilə Türkiyədəki səfirliyimizin tabeliyində Azərbaycan Mədəniyyət Mərkəzi yaradılıb. Mərkəz iki ölkənin mədəniyyət sahəsində əməkdaşlığına öz töhfəsini verəcək.

Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy da mədəniyyət sahəsində əməkdaşlığa dair sazişin əhəmiyyətini qeyd edib. Bildirilib ki, sənəd qardaş ölkələrimizin möhkəm təməllər üzərində inkişaf edən mədəni əlaqələrində yeni səhifə açacaq.

# Uşaq İncəsənət Festivalının qalibləri mükafatlandırılıblar

**Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Mədəniyyət, Elm və Təhsil nazirliklərinin və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən Uşaq İncəsənət Festivalına noyabrın 13-də yekun vurulub.**




AZƏRTAC xəbər verir ki, əvvəlcə iştirakçılar sərgi və festival zamanı hazırlanmış əl işləri ilə tanış olublar.

Heydər Əliyev Mərkəzinin direktorunun birinci müavini Fərqan Novruzov çıxış edərək bildirib ki, festivala respublikanın bütün rayon və bölgələrindən iştirakçılar cəlb olunublar. Qeyd edib ki, uşaqların diqqət və qayğı ilə əhatə olunması, onların mənəvi və fərdi inkişafı, maarifləndirilməsi və s. fəaliyyətlər Heydər Əliyev Mərkəzinin əsas prioritet istiqamətlərindəndir.

"Bu festival respublikamızda keçirilən ən mühüm layihələrdən biridir. Burada gənc dostlarımız, uşaqlar iştirak edir. Eyni zamanda Heydər Əliyev Mərkəzini hər gün məktəblilər ziyarət edirlər. Onlar Heydər Əliyev irsinin, Azərbaycan tarixinin və mədəniyyətinin öyrənilməsi istiqamətində geniş məlumatlandırılırlar", - deyə F.Novruzov diqqətə çatdırıb.

Mədəniyyət Nazirliyinin Aparat rəhbəri Xanlar Ağalarov bildirib ki, Uşaq İncəsənət Festivalı uşaqlarda mədəniyyətin ayrı-ayrı sahələrinə maraq oyatmaq, yaradıcı fəaliyyətlərinə dəstək məqsədi daşıyıb.

"Onu deyə bilərəm ki, qarşıya qoyulmuş məqsədə çata bildik. Çünki layihəmiz ölkədə, sözün əsl mənasında, mədəniyyət festivalına çevrildi. Xüsusi olaraq vurğulamaq istəyirəm ki, incəsənət festivalı uşaqlarla yanaşı, regionlar üzrə mədəni müəssisələrin də fəallıq göstərməsinə, təcrübə toplamasına təkan verib. Təsadüfi deyil ki, ümumilikdə festivala 2500-dən çox mütəxəssis münsif kimi öz töhfəsini verib", - deyə aparat rəhbəri diqqətə çatdırıb.

Elm və təhsil nazirinin müavini Həsən Həsənli və layihənin baş sponsoru "BP" şirkətinin Xəzər regionunda xarici əlaqələr və kommunikasiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli festival haqqında məlumat veriblər.

Bildirilib ki, bu qədər dövlət qurumunun və özəl partnyorların bir araya gəldiyi, uşaqların hərtərəfli inkişafına yönələn tədbirin keçirilməsi ölkəmizin həm mədəni həyatında, həm də təhsil sahəsində böyük əhəmiyyət daşıyır.

Daha sonra mükafatlandırma mərasimi keçirilib.

# Heydər Əliyev Fondunun dəstəyi ilə təşkil olunan Çin dili kurslarının məzunlarına sertifikatlar verilib

**Heydər Əliyev Fondu, Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı səfirliyi və Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) birgə əməkdaşlığı çərçivəsində təşkil edilən distant Çin dili kurslarını bitirən tələbələrə sertifikatlar təqdim edilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Heydər Əliyev Fondunun departament direktoru, Milli Məclisin deputatı Soltan Məmmədov layihənin ilk günlərindən Çinin Azərbaycandakı səfirliyi və Azərbaycan Dövlət İqtisad Universiteti arasında sıx əməkdaşlıq qurulduğunu bildirib. Layihə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə reallaşıb. "Sevindirici haldır ki, Azərbaycanda Çin dilini öyrənmək istəyən tələbələr kifayət qədər çoxdur. İnanıram ki, belə layihələrin sayı gələcəkdə artacaq, Azərbaycan-Çin əməkdaşlığı daha da inkişaf etdiriləcək. Bu gün artıq 50-dək tələbəmiz bir neçə kursu uğurla başa vurub", - deyə S.Məmmədov əlavə edib.

Çinin Azərbaycandakı səfiri xanım Qo Min bildirib ki, Azərbaycanda bir sıra orta məktəblərdə Çin dilinin tədrisi barədə razılıq əldə edilib, həmçinin universitetlərdə belə layihələrin davam etdirilməsi nəzərdə tutulur. Çin dili kurslarını bitirən tələbələrə uğurlar arzulayan xanım Qo Min gələcəkdə onların iki ölkə arasında əlaqələrin genişləndirilməsinə töhfə verəcəklərini deyib.

Qeyd olunub ki, Çin dili kursları 2019-2022-ci illəri əhatə edib. Ümumilikdə 35 tələbə həmin kurslarda iştirak edərək, Çin dilində dinləmək, danışmaq, oxumaq və yazmaq kimi ilkin biliklərə yiyələnib. Hazırda dünyada Çin dilinə maraq göstərənlərin sayı artır. Son illərdə iqtisadi sahədə əldə etdiyi uğurlar səbəbindən Çin dili dünyada ən çox yayılan dillər siyahısında qərarlaşıb.

Bakıdakı Çin dili kursları layihəsinin tərəfdaşları UNEC, Azərbaycan Dillər Universitetinin nəzdindəki Konfutsi İnstitutu və Pekin Xarici Dillər Universitetidir.

Tədbirin sonunda tələbələrə sertifikatlar təqdim olunub.

# Bakı Beynəlxalq Kitab Sərgisində "Uzun Həsən - Ağqoyunlu dövlətinin hökmdarı" kitabının təqdimatı olub

**Heydər Əliyev Fondu IX Bakı Beynəlxalq Kitab Sərgisində təmsil olunur. Sərgidə Fondun müxtəlif nəşrləri təqdim edilir.**




AZƏRTAC xəbər verir ki, noyabrın 13-də Beynəlxalq Kitab Sərgisi çərçivəsində "Uzun Həsən - Ağqoyunlu dövlətinin hökmdarı" kitabının təqdimatı keçirilib.

Fond tərəfindən nəşr olunan kitab iki hissədən ibarətdir. Birinci hissədə Uzun Həsənin şəcərəsi, tərcümeyi-halı haqqında məlumat verilir.

Nəşrdə həmçinin Uzun Həsən, onun oğlu Sultan Yaqubun daxili və xarici siyasəti, XV əsrdə Azərbaycanda və dünyada baş vermiş siyasi proseslər, XIV-XV əsrlərdə Azərbaycana gəlmiş və Ağqoyunlu sarayında olmuş avropalı səyyahlar, Azərbaycanın ilk qadın diplomatı, Uzun Həsənin anası Sara Xatunun fəaliyyəti, Uzun Həsənin həyat yoldaşı Despina Xatunun obrazının Avropa mədəniyyətində tərənnüm olunması haqqında tarixi məlumatlar yer alıb.

Kitabda dünya muzeylərində Ağqoyunlu dövlətinə aid maddi-mədəniyyət nümunələrinin kolleksiyaları haqqında da məlumatlar verilir.

Nəşrin ikinci hissəsi kataloqdur. Burada İstanbul şəhərində yerləşən Hərb Muzeyindəki nadir eksponatların, Milli Azərbaycan Tarixi Muzeyi, Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Milli Xalça Muzeyi və Gəncə Tarix-Diyarşünaslıq Muzeyinin, Azərbaycan Milli Kitabxanasının fondlarında saxlanılan və Ağqoyunlu dövrünə aid 50-dən çox eksponat haqqında məlumatlar əldə etmək mümkündür.

Qeyd edək ki, kitab Heydər Əliyev Mərkəzində hazırda davam edən "Uzun Həsən - Ağqoyunlu dövlətinin hökmdarı" sərgisi çərçivəsində nəşr olunub.

# Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti YAP nümayəndə heyətini qəbul edib

**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Şimali Kipr Türk Cümhuriyyətində (ŞKTC) səfərdədir.**

Səfər çərçivəsində noyabrın 13-də Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar YAP nümayəndə heyətini qəbul edib.

Görüşdə xalqlarımız arasında ortaq dəyərlərə və tarixi ənənələrə əsaslanan dostluq və qardaşlıq münasibətlərindən, türk dünyasında çoxşaxəli əməkdaşlığın əhəmiyyətindən bəhs edilib, müştərək hədəflər və qarşıda duran vəzifələr diqqətə çatdırılıb.

Qonaqları salamlayan Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar xalqlarımız arasında qardaşlıq münasibətlərinin sarsılmaz olduğunu və nümunəvi xarakter daşıdığını vurğulayıb. O bu ilin oktyabr ayında rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycanda səfərdə olduğunu məmnunluqla xatırlayaraq Bakıda təşkil olunan Şimali Kiprin Mədəniyyət Günləri çərçivəsində keçirilən tədbirlərin önəmini diqqətə çatdırıb.

Türk xalqları arasında müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsinin böyük əhəmiyyətə malik olduğunu söyləyən Ersin Tatar Türk Dövlətləri Təşkilatının (TDT) bu baxımdan önəmli platforma olduğunu söyləyib. O, TDT-nin 2022-ci ilin noyabr ayında Səmərqənddə keçirilən IX Zirvə görüşündə Şimali Kipr Türk Cümhuriyyətinin təşkilata müşahidəçi üzv statusunda qəbul olunmasının əhəmiyyətindən bəhs edib, Azərbaycanın qardaş dəstəyinin Şimali Kipr Türk xalqı tərəfindən yüksək qiymətləndirildiyini bildirib.





"Türkiyə ilə bərabər Azərbaycan da Şimali Kipr türklərinin yanındadır. Buna görə Prezident İlham Əliyevə və Azərbaycan xalqına sonsuz dərəcədə minnətdarıq", - deyən E.Tatar Azərbaycanın suverenliyini və konstitusiya quruluşunu bərpa etməsini tarixi hadisə kimi dəyərləndirib. Şimali Kipr Türk xalqının Azərbaycan xalqı ilə həmrəy olduğunu bildirən Ersin Tatar "Sizin qətiyyətli mübarizəniz, Qarabağ Zəfəriniz bizi ürəkdən sevindirib. Şimali Kipr xalqı hər zaman yanınızdadır", - deyib.

Dəvətə, səmimi qəbula və yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Şimali Kipr Türk Cümhuriyyətinin yaradılmasının 40-cı ildönümü münasibətilə Yeni Azərbaycan Partiyası adından və öz adından təbriklərini çatdırıb. YAP nümayəndə heyətinin ötən ilin dekabr ayında Şimali Kipr Türk Cümhuriyyətinə səfərini məmnunluqla xatırlayan Tahir Budaqov müxtəlif sahələri əhatə edən çoxşaxəli və qarşılıqlı faydalı əməkdaşlıq üçün geniş imkanların mövcud olduğunu, xalqlarımız arasında münasibətlərin yüksələn xətt üzrə inkişafının mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

YAP Sədrinin müavini Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin dost ölkə və xalqlarla, o cümlədən Şimali Kipr Türk Cümhuriyyəti ilə münasibətlərin inkişafına xüsusi önəm verdiyini, türk dövlətləri arasında əməkdaşlığın dərinləşdirilməsi istiqamətində məqsədyönlü siyasət həyata keçirdiyini vurğulayıb. O, TDT-nin IX Zirvə görüşündə Türkiyə ilə Azərbaycanın ortaq mövqeyi və siyasi iradəsi əsasında Şimali Kipr türk Cümhuriyyətinin təşkilata müşahidəçi üzv statusunda qəbul olunmasının mühüm tarixi hadisə kimi böyük əhəmiyyətə malik olduğunu vurğulayıb. YAP Mərkəzi Aparatının rəhbəri qeyd edib ki, Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi, uzun müddət davam edən işğal faktına və separatizmə birdəfəlik son qoyması bütövlükdə regionda yeni situasiya yaradıb, həm respublikamız, həm də bölgə dövlətləri, o cümlədən dost və tərəfdaş ölkələr üçün yeni perspektivlər müəyyən edib. "Azərbaycanın formalaşdırdığı yeni geostrateji reallıqlar türk dünyasında da etibarlı təhlükəsizlik və əməkdaşlığın təmin edilməsi baxımından xüsusi önəm daşıyır, regiona rifah və inkişaf vəd edir", - deyən Tahir Budaqov xalqlarımızın bundan sonra da sıx əməkdaşlıq və birgə təşəbbüslər nəticəsində mühüm nailiyyətlər qazanacaqlarına əminliyini ifadə edib.

Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri, hakim Ulusal Birlik Partiyasının sədri Ünal Üstünün də iştirak etdiyi görüşdə türk dövlətlərinin hakim siyasi partiyaları arasında əməkdaşlığın dərinləşdirilməsinin də diqqət mərkəzində olduğu vurğulanıb.

Görüş zamanı qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin tərkibinə millət vəkilləri - YAP İdarə Heyətinin üzvləri Pərvin Kərimzadə və Rəşad Mahmudov, YAP ilə AK Parti arasında əlaqələndirici Ramil Həsən, YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov və Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin məsləhətçisi Nizami Məmmədov daxildir.

# Nazir Ceyhun Bayramov mərakeşli həmkarı ilə görüşüb

**Noyabrın 13-də xarici işlər naziri, Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında ikitərəfli əməkdaşlıq üzrə Birgə Komissiyanın (Komissiya) Azərbaycan tərəfdən həmsədri Ceyhun Bayramov Mərakeş Krallığına rəsmi səfəri çərçivəsində bu ölkənin xarici işlər, Afrika ilə əməkdaşlıq və xaricdəki mərakeşlilər naziri, Komissiyanın Mərakeş tərəfdən həmsədri Nasser Bourita ilə görüşüb.**




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Ceyhun Bayramov və Nasser Bourita arasında baş tutan təkbətək görüş daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib.

İkitərəfli görüşlərdən sonra Azərbaycan və Mərakeşin aidiyyəti dövlət qurumlarının rəsmilərinin də iştirak etdiyi ikitərəfli əməkdaşlıq üzrə Birgə Komissiyanın 2-ci iclası keçirilib.

Görüşlər zamanı Azərbaycan ilə Mərakeş arasında ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlıq əlaqələri, habelə regional məsələlər barədə fikir mübadiləsi aparılıb.

Komissiyanın iclası zamanı Ulu Öndər Heydər Əliyevin Mərakeşə 1994-cü ildə səfəri məmnunluqla xatırlanıb. Azərbaycan-Mərakeş ikitərəfli əməkdaşlıq gündəliyinin inkişafına yeni impuls verilməsi baxımından bu və digər ali səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti və rolu qeyd olunub. İki ölkə arasında siyasi dialoqun daha dayanıqlı edilməsi və zənginləşdirilməsi xüsusunda Xarici İşlər nazirlikləri arasında mövcud siyasi məsləhətləşmələr mexanizminin önəmi vurğulanıb.

Azərbaycan ilə Mərakeşin indiyədək bir-birinin suverenliyinə və ərazi bütövlüyünə göstərdikləri dəstək məmnunluqla xatırlanıb, BMT, İƏT və QH kimi çoxtərəfli platformalar çərçivəsində qarşılıqlı faydalı fəaliyyətlərin bundan sonra da davam etdirilməsinin əhəmiyyəti barədə həmfikirlik ifadə olunub.

Mərakeş ilə iqtisadiyyat, ticarət və investisiyalar üzrə əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunub, bu xüsusda Komissiyanın iclaslarının daha müntəzəm şəkildə təşkilinin və sözügedən iclaslar çərçivəsində iki ölkənin iş adamlarının iştirakı ilə biznes-forumların keçirilməsinin vacibliyi diqqətə çatdırılıb.

Həmçinin iqtisadi əməkdaşlıq üçün hüquqi baza rolunu oynayacaq müvafiq ikitərəfli sənədlərin tezliklə qüvvəyə minməsi üçün dövlətdaxili prosedurların sürətləndirilməsinin əhəmiyyəti vurğulanıb.

İnfrastruktur quruculuğu sahəsində əməkdaşlıq potensialından danışılıb, habelə beynəlxalq limançılıq sahəsi üzrə təcrübə mübadiləsinin ikitərəfli gündəliyimizə əlavə töhfə verəcəyi barədə həmfikirlik ifadə olunub.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində mövcud aqrar potensialdan bəhs olunub və bu ərazilərdə fermer təsərrüfatlarının qurulması və idarəçiliyi sahəsində mümkün Azərbaycan-Mərakeş tərəfdaşlığı barədə fikir mübadiləsi aparılıb.

Azərbaycan ilə Mərakeş arasında turizm, mədəniyyət, təhsil və beynəlxalq inkişafa yardım istiqamətləri üzrə əməkdaşlığın təşviqinin ölkələrimizin xalqlarını bir-birinə daha da yaxınlaşdırmaqla yanaşı, dövlətlərarası əlaqələrimizin dərinləşməsinə də töhfə verə biləcəyi vurğulanıb.

Görüşlərdə nazir Ceyhun Bayramov ölkəmiz tərəfindən 24 saat ərzində həyata keçirilmiş antiterror tədbirlərini şərtləndirən amillər, xüsusilə öhdəliklərə zidd olaraq Azərbaycan ərazilərindən çıxarılmamış erməni silahlı qüvvələrindən irəli gələn təhdidlər, mövcud regional vəziyyət və Azərbaycanın bölgədə sülh və sabitliyin təmin edilməsi istiqamətində planları barədə məlumat verib.

Ermənistan ilə münasibətlərin normallaşdırılması üzrə Azərbaycanın davamlı sülh gündəliyini təşviq etməsinə baxmayaraq, Ermənistan tərəfindən ölkəmizə qarşı ardıcıl şəkildə qarayaxma kampaniyasının sülhə xidmət etmədiyi bildirilib. Eyni zamanda Ermənistan tərəfindən ölkəmizə qarşı yaradılmış mina təhdidləri diqqətə çatdırılıb. Görüşlər zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

Sonda enerji, logistika, ətraf mühit sahələri daxil olmaqla, Azərbaycan-Mərakeş ikitərəfli sənədləri, o cümlədən Komissiyanın 2-ci iclasının protokolu imzalanıb.

Daha sonra keçirilmiş brifinqdə nazirlər görüşlərin nəticələrinə dair bəyanatlarla çıxış ediblər.

# Baş prokuror Litvanın Xüsusi İstintaq Xidmətinin nümayəndə heyəti ilə görüşüb



**Noyabrın 13-də Baş prokuror Kamran Əliyev "Avropa Qonşuluq Aləti" çərçivəsində reallaşdırılan "Azərbaycanda əmlakların bərpası və idarə edilməsi sistemində islahatlara dəstək" adlı "Tvinninq" layihəsi üzrə ölkəmizdə işgüzar səfərdə olan Litva Respublikasının Xüsusi İstintaq Xidmətinin rəisinin birinci müavini Yovitas Razkeviçiusun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Qonaqları salamlayan Baş prokuror dövlət başçısı cənab İlham Əliyevin diqqət və qayğısı ilə işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda sürətlə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri, məcburi köçkünlərin daimi yaşayış yerlərinə qayıdışı və reinteqrasiyası, həmin rayonlarda prokurorluq orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən işlər barədə məlumat verib. Həmçinin litvalı qonaqlara prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlar çərçivəsində Azərbaycan Respublikası Prezidentinin 2022-ci ilin 3 mart tarixli fərmanı ilə təsdiq edilmiş "Elektron prokurorluq informasiya sistemi"nin fəaliyyəti barədə məlumat verilib. Səmimi qəbula görə təşəkkürünü bildirən Yovitas Razkeviçius Litva Respublikası tərəfindən Azərbaycanla ənənəvi dostluq əlaqələrinə böyük önəm verildiyini və hüquqi sahədə əməkdaşlığın müvəffəqiyyətlə inkişaf etdiyini vurğulayıb. Görüşdə tərəfləri maraqlandıran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# BMT-yə çağırış: Mina qurbanlarının hüquqları təmin edilməlidir

## İHŞ-də Azərbaycanda mina qurbanlarına həsr edilmiş hesabat təqdim edilib

**"Mina qurbanları həssas təbəqə kimi tanınmalı və onların hüquqları təmin edilməlidir". AZƏRTAC xəbər verir ki, bu fikir dünən BMT-nin Cenevrə Mərkəzində, təşkilatın İnsan Hüquqları Şurasının (İHŞ) Universal Dövri İcmal (UDİ) mexanizminin 31-ci sessiyası çərçivəsində mina təcavüzünün insan haqlarına təsiri mövzusunda keçirilmiş tədbirdə aparılan müzakirələrin ana xəttini təşkil etdi.**

Tədbirdə "Cənubi Qafqazda minaların insan haqlarına dağıdıcı təsiri" mövzusunda hesabatı təqdim edən İtaliya İnsan Haqları Federasiyasının prezidenti Antonio Stanqo Qarabağın minalarla çirkləndirilməsinin humanitar faciə miqyasını qeyd edərək, bunun nəticəsində Azərbaycanın Avropada ikinci ən çox mina ilə çirkləndirilmiş ölkə olduğunu nəzərə çatdırıb. Hesabatın təhlil qismində Ermənistanın apardığı 30 illik mina terroru nəticəsində beynəlxalq adət və humanitar hüququn, həmçinin təməl insan hüquqlarını kobud şəkildə pozduğu bildirilib. 700 mindən artıq azərbaycanlı keçmiş məcburi köçkünün vətənlərinə qayıtmasını əngəlləyən, onların səhhət, iş və təhsil hüququnun kütləvi şəkildə pozulduğunu qeyd edən A.Stanqo beynəlxalq insan hüquqları mexanizminin işə salınmasını, minalardan zərər çəkmiş Azərbaycan vətəndaşlarına təzminatın ödənilməsinin təmin olunmasının vacibliyini qeyd edib.

Tədbirin aparıcısı "Universal Human Rights" təşkilatının icraçı direktoru Mark Limon beynəlxalq insan hüquqları sistemində mina qurbanlarının ayrıca, xüsusilə həssas qrup kimi tanınmasının vacibliyini qeyd etdi.

Bu fikri dəstəkləyən tədbirin təşkilatçısı, Fransanın Vicdan Azadlığı Assosiasiyasının sədri Tyeri Valle həmkarlarının bu ilin əvvəlində azad edilmiş Ağdam şəhərinə səfəri zamanı qəbiristanlıq və dini abidələrin belə minalandırıldığını, bunun nəticəsində qurbanların əsasən mülki əhali olduğunu vurğulayıb. Natiq hazırkı postmünaqişə dövründə Ermənistanı humanitar minatəmizləmə sahəsində Azərbaycanla əməkdaşlıq etməyə çağırıb.

Avropada ən çox mina çirklənməsinə məruz qalan ölkə olaraq Bosniya-Herseqovinanı təmsil edən mina qurbanlarının hüquqlarının müdafiəçisi Leyla Alaybegoviç BMT səviyyəsində mina qurbanlarının sadəcə hüquqlarının tanınması deyil, onların pozulmuş haqlarının bərpası üçün təzminat mexanizminin işlənməsini təklif etdi. "Bosniyada və Qarabağda mina terroru törədənlər təzminat ödəməsələr, gələcəkdə dünyanın digər guşələrində də bu qeyri-insani müharibə üslubu milyonlarla insanın gələcəyini məhv etməyə davam edəcək", - deyə xanım Alaybegoviç qeyd etdi.

Tədbirdə yekun məruzə ilə çıxış edən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Xüsusi tapşırıqlar üzrə səfiri Elşad İsgəndərov 30 ilə yaxın davam edən işğal nəticəsində ölkəmizin ərazisinin onda bir hissəsinin Ermənistan tərəfindən məqsədyönlü şəkildə minalarla çirkləndirildiyini, bu ərazilərdə 1,5 milyondan çox minanın basdırıldığını diqqətə çatdırdı. Natiq İkinci Qarabağ müharibəsindən sonra Ermənistan tərəfinin öncə mina haqqında məlumatları verməməkdə israrlı olduğunu, daha sonra Azərbaycan rəhbərliyinin iradəsi qarşısında mina xəritələrini təhvil verdiyini, lakin bu xəritələrin yoxlanılması nəticəsində onların yalnız 25 faiz səhihliyinin müəyyən olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırdı. Rəsmi Yerevanın bu cinayətkar mövqeyi nəticəsində təkcə postmünaqişə dövründə 300-dən artıq insanın mina partlamasının qurbanı olduğunu bildirən E.İsgəndərov xüsusi beynəlxalq mexanizm çərçivəsində Ermənistana inspeksiyanın göndərilməsi, bu ölkənin Azərbaycana qarşı minalaşdırma fəaliyyəti haqqında dəqiq məlumatların əldə edilməsinin zəruriliyini vurğuladı. "Bu məlumatların verilməsi üçün Ermənistana təzyiq etməkdə beynəlxalq birliyin gecikdiyi hər gün yeni insan itkilərinə gətirir, yüz minlərlə insanın doğma evlərinə geri dönüşünü əngəlləyir, bölgədə sülhün gəlişini gecikdirir", - deyə E.İskəndərov qeyd etdi.

Tədbir iştirakçıları İHŞ-nin növbəti sessiyasında mina qurbanlarının hüquqlarının tanınması və təmin edilməsinin zəruriliyini tələb edən birgə bəyanatla çıxış etmək haqqında qərar qəbul ediblər.

# Azərbaycan bütün dünyaya müasir müharibənin necə aparıldığını göstərdi

*Əvvəli 1-ci səh.*



"Ermənistan Azərbaycanın bir hissəsini işğal etdikdə ölkədə ən azı 700 min, bəlkə də, bir milyon qaçqın var idi. Yurd-yuvalarından didərgin salınan, mülkləri əlindən alınan, öldürülən, təcavüzə uğrayan bu insanlar üçün Qərbdə heç kim göz yaşı tökməyib. Qərb hər şeyə göz yumub. Çünki o vaxtlar, 1990-cı illərdə Ermənistan informasiya gündəminə tamamilə hakim idi. Bu illərdə Azərbaycan təkcə Birinci Qarabağ müharibəsində deyil, informasiya müharibəsində də uduzdu", - ekspert bildirib.

"İndi isə nə görürük? Azərbaycan həm informasiya sahəsində, həm də İkinci Qarabağ müharibəsində parlaq qələbə qazandı. Qərb daxil olmaqla, müxtəlif yerlərdə Azərbaycanın əleyhinə və tamamilə yalan fikirlər səsləndirilir. Çünki onlar reallığa məhəl qoymurlar. Lakin bu fikirlər Azərbaycana olan müsbət münasibətlər fonunda nəzərə çarpmır", - politoloq qeyd edib.

Onun sözlərinə görə, Azərbaycan Qarabağ məsələsini həll edib: "Doğrudur, ermənilər bu ərazidən gediblər. Amma heç kim onları buradan qovmayıb. Hətta bunu Avropa Parlamenti və bu qurumun deputatları etiraf ediblər. Ermənilər özləri getdilər, onları heç kəs qovmadı, çünki onların vicdanları təmiz deyildi. Onlar ya 30 il əvvəl azərbaycanlıların bu ərazilərdən didərgin salınmasında iştirak ediblər, ya da onların "Dağlıq Qarabağ ordusu" adlı terrorçu strukturda qohumları olub. Buna görə də azərbaycanlı qonşularının onlara belə bir sual ünvanlayacaqlarından qorxurdular: "Mənim mülküm, evim, avtomobilim haradadır?" Bundan başqa, azərbaycanlılar buraya qayıtdıqdan sonra təhqir edilmiş məscidlərini, yerlə yeksan olunmuş kəndlərini görəcəklər".

O əlavə edib ki, ermənilər özlərini günahkar hesab etdikləri, öz əməllərinə görə utandıqları üçün bu əraziləri tərk ediblər.

Politoloq vurğulayıb ki, Azərbaycan qalib gəlməyin çox çətin olduğu bir vəziyyətdə qələbə qazanıb: "Bu, kifayət qədər həssas və çətin vəziyyət idi. Burada günahkar tərəf olmaq çox asan idi. Amma Azərbaycan bu vəziyyətlə üzləşmədi. Yəni Azərbaycan informasiya sahəsində tam qələbə qazandı. Lokal antiterror tədbirləri cəmi bir gün davam edib. Bu müddət ərzində Azərbaycan qalib gəlib və bununla da "blitskriq" təmin edilib. Əslində, bu, zəruri şərtdir".

D.Çernışevskinin fikrincə, Ukrayna da İsrail kimi haqlı tərəf olduğunu göstərmək üçün heç nə etmir: "Azərbaycan bizə nəyi və necə edəcəyini göstərdi. Azərbaycan müharibəyə hazırlaşdı, informasiya platforması hazırladı, informasiya müharibəsində Ermənistan dövlətini tamamilə məğlub etdi və "blitskriq" həyata keçirdi".

Ekspertin sözlərinə görə, Azərbaycan öz "blitskriqi" və informasiya komponenti ilə həm Ukraynaya, həm də İsrailə tamamilə qüsursuz nümunə göstərir: "Son üç müharibədən yalnız biri müasir idi. Söhbət İkinci Qarabağ müharibəsindən gedir. Bu, çox güclü informasiya dəstəyi ilə müşayiət edilən ildırımsürətli müharibə idi".

O qeyd edib ki, Ukrayna müharibəsi 1915-ci ilin, İsrail müharibəsi isə 1980-ci ilin müharibəsidir: "Yəni bunlar köhnəlmiş qaydalarla aparılan müharibələrdir. Buna görə də problemlər yaranır. Ukrayna bu müharibəni necə aparacağını başa düşsə də, qalib gələ bilmir. Sadəcə müxtəlif səbəblərə görə kifayət qədər gücü yoxdur. İsrail də qalib gələ bilər, amma bunu necə edəcəyini bilmir. Məhz bu amillər sadalanan ölkələrin əleyhinə işləyir".

# XİN Fransa tərəfindən Ermənistana zirehli avtomobillərin göndərilməsini pisləyib

**Fransa tərəfindən Ermənistana hücum xarakterli "Bastion" zirehli avtomobillərinin göndərilməsini qətiyyətlə pisləyirik.**

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Fransanın Ermənistana hərbi texnika göndərməsi ilə bağlı suala cavabında bildirilib.

Qeyd olunub ki, sözügedən hərbi texnikanın ötürülməsi Azərbaycan ərazilərinin bir hissəsini 30 ilə yaxın işğal altında saxlayan, hazırda da təcavüzkar siyasətdən və ritorikadan əl çəkməyən Ermənistanın hərbi potensialını gücləndirməyə və bölgədə destruktiv fəaliyyətinə xidmət edəcək.

Özünü beynəlxalq hüququn təbliğatçısı, bölgədə sülh və sabitliyin tərəfdarı kimi təqdim edən Fransanın bu addımları regionda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərinin qarşılıqlı şəkildə tanınması və hörmət edilməsi əsasında əlaqələrin normallaşdırılması səylərini ciddi şəkildə sual altına qoyur və vəziyyətin gərginləşdirilməsinə xidmət edir.

Fransanın Azərbaycana qarşı apardığı qarayaxma kampaniyası və bölgədəki destruktiv fəaliyyəti fonunda Ermənistanın hərbiləşmə siyasətinə xidmət edən bu addımları Fransanın bölgədə yanlış maraqlardan çıxış etdiyini göstərir.

Ermənistan və Fransa bölgədə silahlanmaya və hərbiləşmə siyasətinə son qoymalı, regionda sülh və əməkdaşlığın alternativinin olmadığını, nəhayət, anlamalıdırlar.

"Beynəlxalq ictimaiyyəti öz təcavüzkar siyasəti və əməlləri ilə tanınan Ermənistanı silahlandırmaqdan, buna şərait yaratmaqdan çəkinməyə, regionda sülh və firavanlığın bərqərar olunmasının qarşısını alan belə qeyri-legitim fəaliyyəti dayandırmağa və pisləməyə çağırırıq", - deyə açıqlamada vurğulanır.

## "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Notariat haqqında" və "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci, 6-cı, 13-cü və 17-ci bəndlərini rəhbər tutaraq, "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 665-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016, № 11, maddələr 1761, 1763, № 12, maddə 2047; 2017, № 2, maddə 155, № 4, maddə 523, № 5, maddələr 706, 750, № 11, maddələr 1935, 1975; 2018, № 5, maddə 879, № 8, maddə 1672, № 11, maddələr 2209, 2225, № 12 (I kitab), maddələr 2524, 2534; 2019, № 1, maddə 23, № 5, maddələr 792, 812, № 7, maddə 1197, № 12, maddələr 1897, 1907; 2020, № 7, maddə 832, № 11, maddə 1333; 2021, № 4, maddə 309, № 7, maddələr 711, 713, № 8, maddə 894, № 12, maddə 1346; 2022, № 6, maddə 580, № 8, maddə 828; 2023, № 1, maddələr 19, 23, 40, № 2, maddə 200, № 6, maddə 742, № 7, maddə 892; Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 961-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 281.1.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"281.1.3. kreditor və borclu fiziki şəxsin soyadı, adı, atasının adı, fərdi identifikasiya nömrəsi (əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin müvəqqəti, yaxud daimi yaşamaq üçün icazə vəsiqələrinin, habelə qaçqın vəsiqəsinin seriyası və nömrəsi), yaşayış yeri və olduğu yer, doğum tarixi, işlədiyi halda borclu fiziki şəxsin iş yeri, sahibkarlıq fəaliyyəti ilə məşğul olduqda VÖEN-i, kreditor və borclu hüquqi şəxsin adı, hüquqi və faktiki ünvanları, VÖEN-i;";

1.2. 281.2-ci maddədən "borclunun anadan olduğu gün və yer, onun iş yeri," sözləri çıxarılsın.

**Maddə 2.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 9, maddə 1138, № 11, maddələr 1332, 1333, 1336, № 12 (I kitab), maddələr 1432, 1440; 2021, № 4, maddə 306, № 5, maddə 428, № 6 (I kitab), maddələr 535, 541, 546, 560, № 7, maddələr 701, 705, 711, № 8, maddə 894, № 11, maddə 1208, № 12, maddələr 1306, 1334; 2022, № 1, maddə 2, № 2, maddə 89, № 4, maddə 293, № 5, maddə 435, № 7, maddələr 694, 699, 703, № 8, maddələr 822, 825, 828, № 11, maddə 1236, № 12, maddələr 1364, 1399; 2023, № 1, maddələr 17, 20, 32, 39, № 2, maddələr 149, 201, 204, № 4, maddə 466, № 6, maddələr 743, 754, № 7, maddələr 905, 907; Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 938-VIQD nömrəli, 14 iyul tarixli 974-VIQD və 980-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 127-4.2.4-cü maddədə "ünvanı" sözü "və faktiki ünvanları" sözləri ilə əvəz edilsin;

2.2. 127-4.3.4-cü maddədə "adı, soyadı, atasının adı, FİN-i və yaşadığı ünvan" sözləri "soyadı, adı, atasının adı, fərdi identifikasiya nömrəsi (əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin müvəqqəti, yaxud daimi yaşamaq üçün icazə vəsiqələrinin, habelə qaçqın vəsiqəsinin seriyası və nömrəsi), yaşayış yeri və olduğu yer, doğum tarixi, fiziki şəxs işlədiyi halda iş yeri, sahibkarlıq fəaliyyəti ilə məşğul olduqda VÖEN-i" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 10, № 6, maddə 414; 2001, № 5, maddə 293, № 11, maddə 687, № 12, maddə 740; 2002, № 5, maddə 241, № 6, maddə 328, № 12, maddə 706; 2004, № 5, maddə 318; 2005, № 4, maddə 281, № 8, maddə 699, № 10, maddə 903, № 11, maddə 993; 2007, № 1, maddə 4, № 2, maddə 69, № 8, maddə 745, № 11, maddələr 1053, 1075; 2008, № 6, maddə 462, № 7, maddə 602; 2009, № 1, maddə 5, № 7, maddə 517, № 11, maddə 878; 2010, № 7, maddə 597, № 11, maddə 938; 2011, № 4, maddə 258, № 12, maddə 1098; 2012, № 10, maddə 946; 2013, № 11, maddə 1271; 2014, № 11, maddə 1353; 2015, № 5, maddə 487; 2016, № 1, maddə 11, № 7, maddə 1243, № 12, maddə 2025; 2017, № 2, maddə 148, № 12 (I kitab), maddə 2236; 2018, № 7 (I kitab), maddə 1388, № 8, maddə 1673, № 11, maddə 2230; 2019, № 1, maddə 22, № 6, maddələr 993, 997, № 11, maddə 1681; 2020, № 8, maddə 1014; 2021, № 2, maddə 116; 2022, № 8, maddə 831, № 11, maddə 1232, № 12, maddə 1379; 2023, № 1, maddə 9, № 5, maddə 629, № 6, maddə 742) 77-ci maddəsinin birinci hissəsinin 2-ci və 3-cü bəndləri aşağıdakı redaksiyada verilsin:

"2) tələbkar fiziki şəxsin soyadı, adı, atasının adı, fərdi identifikasiya nömrəsi (əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin müvəqqəti, yaxud daimi yaşamaq üçün icazə vəsiqələrinin, habelə qaçqın vəsiqəsinin seriyası və nömrəsi), yaşayış yeri və olduğu yer, doğum tarixi, hüquqi şəxsin adı, hüquqi və faktiki ünvanları, VÖEN-i;

3) borclu fiziki şəxsin soyadı, adı, atasının adı, fərdi identifikasiya nömrəsi (əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin müvəqqəti, yaxud daimi yaşamaq üçün icazə vəsiqələrinin, habelə qaçqın vəsiqəsinin seriyası və nömrəsi), yaşayış yeri və olduğu yer, doğum tarixi, işlədiyi halda iş yeri, sahibkarlıq fəaliyyəti ilə məşğul olduqda VÖEN-i, hüquqi şəxsin adı, hüquqi və faktiki ünvanları, VÖEN-i;".

**Maddə 4.** "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1084; 2006, № 12, maddə 1031; 2008, № 6, maddə 462; 2011, № 7, maddə 592; 2014, № 12, maddə 1516; 2016, № 4, maddə 643; 2018, № 12 (I kitab), maddələr 2470, 2530; 2019, № 1, maddələr 5, 21, № 2, maddə 184, № 12, maddə 1901; 2020, № 6, maddə 669, № 7, maddə 829; 2021, № 7, maddə 711; 2023, № 2, maddə 180, № 4, maddə 451; Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 989-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

4.1. aşağıdakı məzmunda 82.4-cü maddə əlavə edilsin:

"82.4. İnzibati aktı qəbul etmiş inzibati orqanın tələbin icraya yönəldilməsi haqqında qərarında "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsində göstərilən müvafiq məlumatlar əks olunmalı və həmin qərar pul tələblərinin ödənilməsi ilə bağlı inzibati aktla birlikdə icra qurumuna göndərilməlidir.";

4.2. 87-ci maddənin mətni 87.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 87.2-ci maddə əlavə edilsin:

"87.2. Bələdiyyələrin tələbin icraya yönəldilməsi haqqında qərarında "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsində qeyd olunan müvafiq məlumatlar əks olunmalı və həmin qərar bələdiyyənin inzibati aktı ilə birlikdə icra qurumuna göndərilməlidir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 oktyabr 2023-cü il*

## "Bakı şəhəri Binəqədi rayonunun, Sumqayıt şəhərinin və Abşeron rayonunun sərhədlərinin müəyyənləşdirilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 17 oktyabr tarixli 1005-VIQ nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Bakı şəhəri Binəqədi rayonunun, Sumqayıt şəhərinin və Abşeron rayonunun sərhədlərinin müəyyənləşdirilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 17 oktyabr tarixli 1005-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Bakı və Sumqayıt şəhərlərinin, Bakı şəhəri Binəqədi, Abşeron və Xızı rayonlarının icra hakimiyyətləri ilə birlikdə "Bakı şəhəri Binəqədi rayonunun, Sumqayıt şəhərinin və Abşeron rayonunun sərhədlərinin müəyyənləşdirilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 17 oktyabr tarixli 1005-VIQ nömrəli Qanunu ilə yeni müəyyən edilmiş sərhədlərdə üç ay müddətində mərzçəkmə işlərinin yerinə yetirilməsini təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Bakı şəhəri Binəqədi rayonunun, Sumqayıt şəhərinin və Abşeron rayonunun sərhədlərinin müəyyənləşdirilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 17 oktyabr tarixli 1005-VIQ nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 noyabr 2023-cü il*

## "Poçt ödəniş xidmətləri haqqında Saziş"ə və "Poçt ödəniş xidmətləri haqqında Saziş"in Yekun Protokolu"na qoşulmaq barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

1. Azərbaycan Respublikası 2021-ci il avqustun 26-da Abican şəhərində imzalanmış "Poçt ödəniş xidmətləri haqqında Saziş"ə və "Poçt ödəniş xidmətləri haqqında Saziş"in Yekun Protokolu"na Azərbaycan Respublikasının ona dair bəyanatı ilə (bəyanatın mətni əlavə olunur) qoşulsun.

2. Bu Qanun qüvvəyə mindiyi gündən "Poçt ödəniş xidmətləri haqqında Sazişə və onun Yekun Protokoluna qoşulmaq barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 dekabr tarixli 1728-VQ nömrəli Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1914) 1-ci maddəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 oktyabr 2023-cü il*

## "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Poçt haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 604; 2007, № 5, maddə 442; 2008, № 11, maddə 958; 2009, № 7, maddə 517; 2010, № 4, maddə 276; 2014, № 10, maddə 1148; 2016, № 3, maddə 409, № 10, maddə 1602; 2017, № 1, maddə 6, № 11, maddələr 1957, 1960, № 12 (I kitab), maddə 2223; 2018, № 7 (I kitab), maddə 1390; 2019, № 1, maddə 32; 2021, № 12, maddə 1298; 2022, № 12, maddə 1399; Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 942-VIQD nömrəli Qanunu) 4.1.1-ci maddəsinə "qaydalarının" sözündən sonra "və tariflərinin" sözləri əlavə edilsin və həmin maddədən "və bu xidmətlərin tariflərinə dair təkliflər verilməsi" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 oktyabr 2023-cü il*

## "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7 (I kitab), maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45, № 4, maddələr 571, 596, № 5, maddə 797, № 7, maddələr 1176, 1181, 1190, 1192, № 8, maddələr 1360, 1363, 1371, № 11, maddələr 1681, 1694; 2020, № 5, maddələr 521, 524, № 6, maddə 665, № 7, maddələr 824, 828, 837, 851, 853, № 11, maddə 1327, № 12 (I kitab), maddə 1423; 2021, № 2, maddə 117, № 6 (I kitab), maddə 554, № 7, maddələr 711, 714, 718, № 8, maddə 898, № 10, maddə 1094, № 11, maddə 1207, № 12, maddə 1314; 2022, № 5, maddə 427, № 8, maddə 829, № 10, maddə 1125, № 12, maddələr 1366, 1379, 1389; 2023, № 1, maddələr 11, 19, № 2, maddə 210, № 3, maddə 337, № 4, maddə 463, № 6, maddə 742; Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 978-VIQD nömrəli Qanunu) 2.0.21-ci, 33-3-cü və 33-4-cü maddələri ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 oktyabr 2023-cü il*

## Bakı şəhəri Binəqədi rayonunun, Sumqayıt şəhərinin və Abşeron rayonunun sərhədlərinin müəyyənləşdirilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 3-cü bəndinə uyğun olaraq **qərara alır:**

Bakı şəhəri Binəqədi rayonunun, Sumqayıt şəhərinin və Abşeron rayonunun sərhədlərində bu Qanuna əlavə edilmiş xəritələrə uyğun olaraq aşağıdakı dəyişikliklər edilsin:

1. Bakı şəhəri Binəqədi rayonunun Binəqədi qəsəbə inzibati ərazi dairəsi tərkibindəki Binəqədi qəsəbəsinin ərazisindən 1213 ha torpaq sahəsi Sumqayıt şəhərinin inzibati ərazisinə verilsin.

2. Abşeron rayonunun inzibati ərazisində yerləşən 375 ha və 2223,67 ha torpaq sahələri Sumqayıt şəhərinin inzibati ərazisinə verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 oktyabr 2023-cü il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2023-cü il aprelin 24-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 oktyabr 2023-cü il*

## "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1012-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 767; 2006, № 12, maddə 1057; 2008, № 9, maddə 798; 2012, № 6, maddə 547, № 12, maddə 1271; 2013, № 11, maddə 1327, № 12, maddə 1510; 2014, № 4, maddə 360; 2016, № 1, maddə 43, № 5, maddə 883, № 9, maddə 1463, № 11, maddə 1807; 2017, № 3, maddə 370, № 5, maddə 757, № 7, maddə 1377, № 10, maddə 1804, № 12 (I kitab), maddə 2293; 2018, № 6, maddələr 1231, 1239, № 7 (I kitab), maddə 1489, № 12 (I kitab), maddə 2552; 2019, № 1, maddə 95, № 6, maddə 1044, № 7, maddə 1248, № 11, maddə 1699; 2020, № 5, maddə 561; 2021, № 7, maddə 735, № 12, maddə 1401; 2022, № 5, maddə 441, № 12, maddə 1404; 2023, № 8 (I kitab), maddə 1169) 2.10-cu bəndi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 noyabr 2023-cü il*

## Azərbaycan Respublikası Prezidentinin "Poçt haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 31 avqust tarixli 115 nömrəli və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2007-ci il 22 may tarixli 583 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1015-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Poçt haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 31 avqust tarixli 115 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 623; 2007, № 6, maddə 601; 2010, № 3, maddə 180; 2014, № 9, maddə 1027; 2016, № 6, maddə 1056; 2017, № 3, maddə 353, № 8, maddə 1521, № 11, maddə 1999; 2022, № 12, maddə 1440; 2023, № 8 (I kitab), maddə 1140) 3.6-cı bəndində "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası" sözləri ", Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 may tarixli 583 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 5, maddə 465; 2023, № 9, maddə 1285) 2-ci hissəsindən "Poçt rabitəsi haqqında" Azərbaycan Respublikası Qanununun 11.2-ci maddəsində," sözləri çıxarılsın.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 noyabr 2023-cü il*

# Zəfərin Xankəndi zirvəsi






Daha Azərbaycanda bir nəfər də separatçı qalmayıb!

Daha Azərbaycanda yaşayaraq Azərbaycanın ərazi bütövlüyünə xain nəzərlərlə baxan yoxdur!

30 illik işğaldan sonra "dəmir yumruq" separatizmi ölkəmizdən birdəfəlik süpürüb atdı!

**Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və Konstitusiya əsasları Müzəffər Ali Baş Komandan İlham Əliyevin 44 günlük Zəfər müharibəsi, müdrik və uzaqgörən siyasəti, qorxmaz və qətiyyətli diplomatiyası sayəsində əbədilik bərpa olundu!**

**İlham Əliyev iki yüz illik Qarabağ münaqişəsinə son qoyaraq ölkəni xainlərdən, soyqırımı canilərindən, ərazi bütövlüyümüzə qəsd edənlərdən həmişəlik xilas etdi!**

*Bu möhtəşəm qələbəni 8 noyabr 2023-cü ildə Xankəndidə keçirdiyi Zəfər paradı ilə Azərbaycan tarixinin şərəf salnaməsinə qızıl hərflərlə həkk etdi!*

❖ ❖ ❖

**Separatizm Azərbaycan ərazisində "təbii" şəkildə yaranmayıb.**

**Bu murdar toxumu ərazimizə çar Rusiyası gətirərək basdırıb.**

XIX əsrin başlanğıcında əvvəlcə Kürəkçay, sonra isə Türkmənçay və Gülüstan müqavilələri əsasında İran və Türkiyədəki ermənilərin Azərbaycana köçürülərək burada onlara "vətən" yaradılması prosesinə start verilib.

Sovet hakimiyyəti dildə "xalqlar dostluğu" söyləsə də, əməldə sələflərinin məkrli niyyətlərini "uğurla" davam etdirib.

*Belə ki, 7 iyul 1923-cü ildə "Dağlıq Qarabağ Muxtar Vilayəti" adlı qondarma qurum yaratmaqla erməni separatizminin daha yaxşı inkişafı üçün onlara bir növ "parnik" ("isti şitillik") təşkil edib.*

*Sonra "Azərbaycan ərazisində pambıqçılığın inkişaf etdirilməsi" adı ilə bir qərar verərək, Ermənistandakı azərbaycanlıları qədim ata-baba yurdlarından sürgün edərək ermənilərin yerini genişləndirib.*

Qırmızı imperiya laxlayaraq dağılmağa başlayanda isə SSRİ-nin birinci və sonuncu prezidenti Qorbaçov separatizm fitilinə od vurdu.

Həmin dövrdə Azərbaycana başçılıq edənlər maymaq, qorxaq, qətiyyətsiz və səriştəsiz olduqlarından baş verənləri düzgün qiymətləndirə, separatizm alovlarının qarşısını vaxtında ala bilmədilər.

**Beləliklə, erməni separatizmi Azərbaycan ərazisində qarayaraya çevrilərək 30 il qövr etdi.**

❖ ❖ ❖

27 sentyabr 2020-ci ildən 10 noyabr 2020-ci ilədək davam edən Zəfər müharibəsi!..

* Biz bu işğala son qoyacaq qələbəni nə qədər gözləmişdik!

* Biz ölkəmizə xəyanət, terrorçu, silah-sursat, mina, separatizmə dəstək verən əcnəbi deputat, konqresmen, senator, siyasətçi, korrupsioner və rüşvətxor gətirilən Laçın yolunun bağlanmasını nə qədər istəmişdik!

* Biz şəhərlərimizi və kəndlərimizi dağıdan, evlərimizi yağmalayıb yandıran, meşələrimizi, bağlarımızı qırıb aparan, təbii sərvətlərimizi talayaraq daşıyan, dini, tarixi, mədəni abidələrimizi uçuraraq təhqir edən murdarlardan qisasımızın alınmasını Allahdan nə qədər diləmişdik!

Nəhayət!

Nəhayət!

Nəhayət!

* Daha Azərbaycanda separatçılar yaşamırlar!

* Daha Azərbaycanda terrorçu qalmayıb!

* Daha kimsə Azərbaycanla hədə, təhdid dili ilə danışa bilmir!

* Daha heç kəs bizim razılığımız olmadan ərazimizə girə bilmir!

* Daha kimsə Azərbaycan xalqının iradəsinə heç bir şəkildə təsir etməyi bacarmır!

*Bizim Xankəndidə bütün qələbələrimizin zirvəsi sayılan parad keçirməyə qadir ordumuz var!*

*Bizim Şuşanı yalın əllə ala bilən igidlərimiz var!*

*Bizim arxasında dünya gücləri dayanan düşmənə qalib gələn müzəffər xalqımız var!*

**Bizim hər arzumuzu gerçəkləşdirən, bizi qalib millətə, hünərli xalqa çevirən İlham Əliyev kimi Müzəffər Ali Baş Komandanımız var!**

* Biz birləşərək düşmənin sinəsinə çalın-çarpaz dağ çəkməyi bacardıq!

* Biz "dəmir yumruğ"a çevrilərək təkcə erməniyə deyil, onun havadarlarına da qalib gəldik!

* Biz dünyanın ən güclü dövlətlərini pulla satın alan dünya erməniliyini məğlub etdik!

**Budur güc!**

**Budur qüdrət!**

**Budur siyasət!**

❖ ❖ ❖

*Bu qələbəyə çatmaq üçün çaylar qədər qan axıtdıq!*

*Bu istəyə qovuşmaq üçün "uf" demədən canını fəda etməyə hazır oğullar yetişdirdik!*

*Bu zəfəri qazanmaq üçün balalarımızı şəhid verdik!*

*Ən ümidsiz günlərdə belə ümidimizi itirmədik!*

*Ən ağır, köməksiz vaxtlarımızda belə geri durmadıq!*

**Ulu Öndərimizə inandıq, ona güvəndik!**

**Müzəffər Ali Baş Komandanımızın ətrafında səfərbər olduq, hünərinə, cəsarətinə, qətiyyət və müdrikliyinə sığındıq!**

*İndi isə Xankəndidə parad keçiririk!*

*Zəfərlər zəfərinin paradını!*

* Burda dalğalanan qələbə bayrağı bizimdir!

* Bu meydanda vüqarla addımlayan igidlər bizimdir!

* Bu paradı gülərək qəbul edən, bu paradı bizə bəxş edən "dəmir yumruq" sahibi İlham Əliyev bizim Müzəffər Ali Baş Komandanımızdır!

Şükür Tanrının böyüklüyünə!

Allah şəhidlərimizə rəhmət eləsin!

Bizə qələbə sevincləri bəxş edən Silahlı Qüvvələrimizə eşq olsun!

❖ ❖ ❖

**Düşmənə gözdağı verib, dosta sevinc bəxş edən Xankəndi paradı!**

**Arzularımızın pik nöqtəsi!**

**On illərin ən ülvi arzusunun reallaşdığının nümayişi!**

*Düşmənin canına vic-vicə salan xüsusi təyinatlılarımız haqlı qürur və iftixarla, nizami addımlarla tribunanın önündən vüqarla keçirlər!*

**Onları bu zəfərin memarı və baş müəllifi, "dəmir yumruq" sahibi Müzəffər Ali Baş Komandanımız İlham Əliyev fəxrlə salamlayır!**

Xalqımız bu gözəl mənzərəyə doymaq bilmədən, göz dolusu tamaşa edir!

Sevinc seli bütün Qarabağı, Şərqi Zəngəzuru, Azərbaycan torpağını qoynuna alır!

Bu sevincdən dünyanın hər bucağında yaşayan azərbaycanlılara, Azərbaycansevərlərə də şirin pay düşür!

❖ ❖ ❖

**Müzəffər Ali Baş Komandan İlham Əliyev Xankəndidəki Zəfər paradında sevinc və qürurla bəyan etdi:**

* *Mən bu 20 il ərzində heç vaxt şübhə etmirdim ki, bu gün gələcək və Xankəndi şəhərində Azərbaycan Bayrağı altında hərbi parad keçiriləcək.*

* *Oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda və Xankəndidə mən Azərbaycan Bayrağını qaldırdım. Bundan böyük xoşbəxtlik ola bilməz - həm mənim üçün, həm sizin üçün, həm Azərbaycan xalqı üçün, həm də bütün dünya azərbaycanlıları üçün.*

* *Biz göstərdik ki, Qarabağ Azərbaycandır, döyüşərək, vuruşaraq, heç nəyə baxmayaraq və bu gün hər kəs bilməlidir ki, bizimlə bundan sonra heç kim zarafat etməsin.*

* *XXI əsrdə heç bir ordu bizim qədər peşəkarlıq, fədakarlıq göstərməmişdir. Heç bir xalq öz doğma torpağını bu qədər əziz tutub uğrunda ölümə getməyə hazır olmamışdır. Bunu biz hamımız yaxşı bilirik, bunu dünya da bilsin.*

* *Biz istədiyimizə nail olduq, beynəlxalq hüququ bərpa etdik, tarixi ədaləti bərpa etdik, milli ləyaqətimizi bərpa etdik, düşmənə onun yerini göstərdik. Düşmən bizim qabağımızda diz çökdü və bu gün mən burada müzəffər Silahlı Qüvvələrin qarşısında çıxış edirəm.*

**Bu da son!**

* Alçaq niyyətlilərin sonu!

* Şərəfsiz separatçıların sonu!

* Bayquş xislətlilərin sonu!

* Barbar, dağıdıcı əməl sahiblərinin sonu!

* Yersizlərin, vətənsizlərin çirkin xülyalarının sonu!

*Amma bu sona qədər zillət çəkdik, ağır köçkün həyatı sürməyə məcbur olduq.*

*Bu sona qədər 30 il məğlub xalq adını daşımalı olduq.*

**Bütün bunlara İlham Əliyev son qoydu!**

* Separatizmə Müzəffər Ali Baş Komandan İlham Əliyev "dəmir yumruğ"u ilə son qoydu!

* Uzaqgörən, qətiyyətli, ardıcıl siyasəti ilə son qoydu!

* Dəyişməz, prinsipial mövqeyi, çevik diplomatiyası ilə son qoydu!

* Yaratdığı möhtəşəm ordu, tətbiq etdiyi yeni strategiya və taktika ilə son qoydu!

* Xalqın milli birliyini yaradaraq, ölkənin bütün imkanlarını səfərbərliyə alaraq son qoydu!

**Ən nəhayət, Xankəndidə Zəfərin ən yüksək zirvəsi sayılan hərbi paradla son qoydu!**

*Yaşasın Müzəffər Ali Baş Komandan!*

*Yaşasın azad, bütöv, suveren Azərbaycan!*

*Qarabağ Azərbaycandır!*

**Bəxtiyar SADIQOV**

# ABŞ və Avropanın növbəti avantürası

**"Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında yenilməz ordumuzun, "dəmir yumruğ"a çevrilmiş xalqımızın Vətən müharibəsində qazandığı tarixi zəfər və 19-20 sentyabr tarixlərdə keçirilmiş lokal antiterror tədbirləri nəticə etibarilə ölkəmizin ərazi bütövlüyünün tam və qəti şəkildə təmin edilməsinə gətirib çıxartdı. Beləliklə, Azərbaycan dövləti bölgədə, əslində, dünyada da yeni reallıqlar yaratdı, problemlərin həllinin müasir modelini ortaya qoydu".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Elman Nəsirov deyib. Deputat bildirib ki, Azərbaycanın yaratdığı reallıqları bu gün dünya qəbul edir və ölkəmizə tərəfdaş kimi baxır.

Azərbaycanın beynəlxalq aləmdə kifayət qədər yüksək nüfuza sahib olduğunu deyən deputat Prezident İlham Əliyevin daim yüksək hörmət və izzətlə qarşılandığını vurğulayıb. "Amma bu reallıqlar həm də başqa bir həqiqəti üzə çıxartdı. Məlum oldu ki, Amerika Birləşmiş Ştatlarında, eləcə də onun müttəfiqi olan Avropada Azərbaycanın qazandığı bu uğurlardan bəzi siyasi dairələrin yuxularına haram qatılıb və gecə-gündüz ölkəmiz əleyhinə çirkin əməllərə imza atmağa çalışırlar. Avropalı parlamentarilər Ermənistana gəlir, bu ölkənin təkcə siyasi rəhbərliyi ilə deyil, eyni zamanda Qarabağdakı keçmiş qondarma rejimin tör-töküntüləri ilə görüşlər keçirirlər. Beləliklə, revanşizmi dəstəkləyir, separatçılara ümid verirlər", - deyə o əlavə edib.

E.Nəsirov vurğulayıb ki, ABŞ Konqresində ermənipərəst deputatlar Azərbaycana qarşı sanksiyalar tələbi ilə, Dövlət Departamenti isə ölkəmiz əleyhinə iddialarla çıxış edirlər, Qarabağdan könüllü şəkildə köçmüş ermənilərin geri qaytarılması tələbini ortaya qoyurlar. Fransa Ermənistana silah-sursat satmaq öhdəliyini üzərinə götürür və bu istiqamətdə müvafiq sənədlər imzalayır.

Deputat qeyd edib ki, Azərbaycana qarşı müxtəlif cəbhələrdən təzyiq mexanizmlərini işə salmaq istəyirlər: "Ancaq bu, gedən qatarın dalınca baxmağa oxşayır. Azərbaycan dövləti, onun ali rəhbərliyi, ordusu, xalqı öz vəzifəsini şərəflə icra edib. Torpaqlarımız üzərində ərazi bütövlüyümüz və suverenliyimiz tam və qəti şəkildə təmin edilib. Bütün bu təzyiqlərin bizim üçün heç bir əhəmiyyəti yoxdur. Çünki biz güclü dövlət və güclü xalqıq. Ölkəmizdə səfərbər olunmuş cəmiyyət var və vətəndaş həmrəyliyi hökm sürür. Prezident-xalq birliyi ən yüksək səviyyədədir. Dövlət başçısı xalqının mənafeyindən irəli gələn müstəqil siyasət həyata keçirir və cəmiyyətimiz bu siyasəti birmənalı şəkildə dəstəkləyir. Belə dövlətlərə təzyiq göstərmək mənasızdır".

E.Nəsirov hesab edir ki, bu gün ABŞ və Avropadakı anti-Azərbaycan dairələri ünvanı səhv salıblar. Azərbaycana qarşı təzyiq dili ilə danışmağın real nəticələrinin sıfra bərabər olduğunu vurğulayan deputat deyib ki, Azərbaycan çirkin niyyətlərin həyata keçirilməsi üçün seçilmiş düzgün ünvan deyil.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Afrikadan qovulan "böyük bacı" indi də Qafqaza yerləşmək istəyir

## Fransa bütün səylərini yeni müharibəyə yönəldib

**Qarabağ münaqişəsinin başa çatması, Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi Qərbin ermənipərəst siyasi dairələrini rahat buraxmır.**




Təsadüfi deyil ki, həmin dairələrin başında gələn Fransa Azərbaycanla Ermənistan arasında sülhün əldə olunmasının qarşısını almaq üçün dəridən-qabıqdan çıxmaqdadır. Bu ölkə tərəfindən heç bir zərurət olmadan Ermənistanın silahlandırılması da sülh müqaviləsinin qarşısının alınmasına hesablanıb.

Qeyd edək ki, bu günlərdə kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə Fransanın Ermənistana hərbi texnika göndərməsi ilə bağlı məlumatlar yayılıb. Göndərilən hərbi texnikalar Fransanın "Acmat" şirkətinin istehsalı olan çoxfunksiyalı "Bastion" adlanan zirehli avtomobillərdir. Fransa və Ermənistan tərəfindən bu barədə rəsmi məlumatlar verilməsə də, zirehli texnikaların göndərildiyi dəqiqdir.

Məlumdur ki, Azərbaycanın öz suveren ərazilərinə nəzarəti tam olaraq təmin etməsindən sonra sülhün əldə edilməsi üçün şanslar daha da çoxalıb. Bakı hər zaman olduğu kimi, bölgədə dayanıqlı sülhün bərqərar edilməsi üçün yaranmış bu münbit şəraitdə də sülh gündəliyinin irəlilədilməsində qərarlıdır. Lakin Ermənistan tərəfi sülh prosesinin reallaşması üçün yaranmış şansdan bəhrələnmək əvəzinə yenə də müxtəlif məzmunlu manipulyasiyalarla məşğuldur. Hazırda Ermənistan rəhbərliyi sülh sazişindən, münasibətlərin normallaşdırılmasından, sərhədlərin delimitasiyası və demarkasiyasından dəm vurur, 1991-ci il Alma-Ata Bəyannaməsinə sadiqliyini bildirir. Amma əməli işə gələndə bütün bunlarla daban-dabana zidd olan davranış nümunələrini ortaya qoyur.

Sülhün əldə edilməsinə əngəl yaradan əsas amillərdən biri isə Fransa başda olmaqla erməni təəssübünü çəkən Qərbin bəzi siyasi mərkəzlərinin siyasi-hərbi avantüralarıdır. Bu baxımdan münasibətlərin normallaşdırılması ilə bağlı danışıqların nəticəsiz qalmasının əsas səbəblərindən biri də xüsusən Fransanın Ermənistan hakimiyyətinə təsir və təzyiqləridir. Ötən dövr ərzində ölkəmizə qarşı qərəzli iddialarla çıxış edən, xəstə erməni təfəkkürünün qatı müdafiəçisi olan Fransa Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması ilə bağlı müzakirələrdə İrəvanın beynəlxalq hüququn norma və prinsiplərini görməzdən gəlməsi üçün bütün imkanlarını səfərbər edib. Fransadan Ermənistana hərbi texnikanın göndərilməsi də münasibətlərin normallaşdırılmasına və sülhün əldə edilməsinə qarşı olan bir avantüradır.

Azərbaycan Xarici İşlər Nazirliyi Fransa tərəfindən Ermənistana hücum xarakterli "Bastion" zirehli avtomobillərinin göndərilməsini qətiyyətlə pisləyib. XİN-in mətbuat katibi Ayxan Hacızadə bu barədə bildirib: "Sözügedən hərbi texnikanın ötürülməsi Azərbaycan Respublikasının ərazilərinin bir hissəsini 30 ilə yaxın dövrdə işğal altında saxlayan, hal-hazırda da təcavüzkar siyasətdən və ritorikadan əl çəkməyən Ermənistanın hərbi potensialını gücləndirməyə və bölgədə destruktiv fəaliyyətinə xidmət edəcək. Özünü beynəlxalq hüququn təbliğatçısı, bölgədə sülh və sabitliyin tərəfdarı kimi təqdim edən Fransanın bu addımları regionda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərinin qarşılıqlı şəkildə tanınması və hörmət edilməsi əsasında əlaqələrin normallaşdırılması səylərini ciddi şəkildə sual altına qoyur və vəziyyətin gərginləşdirilməsinə xidmət edir".

Onu da qeyd edək ki, 8 nəfərlik "Bastion" zirehli avtomobili Afrikanın iqlim şəraitinə uyğun olaraq, məhz bu qitədə və Yaxın Şərqdə olan Fransa silahlı qüvvələrinin bölmələrinin istifadəsi üçün hazırlanıb. Fransa isə hazırda Afrikadan qovulur. Məlum olduğu kimi, son aylarda Fransa bəzi Afrika ölkələrindəki hərbi qüvvələrini çıxarmaq məcburiyyətində qalıb. Çox güman ki, indi həmin ölkələrdəki istifadə olunmuş "Bastion" zirehli avtomobillərini Fransa Ermənistana göndərir. Başqa cür desək, "böyük bacı" qoymağa yer tapmadığı və istismar müddəti bitmiş bu texnikaları Ermənistana göndərməklə həm də başından edir. Bütün konstruksiyaları və texniki parametrləri xüsusilə isti havaların hakim olduğu Afrikanın iqlim şəraitinə uyğun olan bu texnikaların ərazisi əsasən dağlıq və dağətəyi zonalardan olan Ermənistanda özünü doğrultmayacağı isə indidən aydındır. Görünən həm də odur ki, 44 günlük müharibədəki məğlubiyyətdən sonra hərbi texnikaya görə Rusiyanı günahlandıran Ermənistan yeni silahlar almaq ümidi ilə Fransaya üz tutsa da, "böyük bacı" ona sadəcə öz köhnələrini göndərir.

Bütövlükdə bu hərbi texnikanın Ermənistana göndərilməsi bir daha təsdiq edir ki, Fransa bütün imkanlarından istifadə etməklə sülhə qarşı çıxır. Bundan itirən isə Azərbaycan yox, Ermənistan olacaq. Çünki Azərbaycan ərazi bütövlüyünü tam bərpa edərək qarşısına qoyduğu milli məqsədinə çatıb.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Qərbin geosiyasi süqutu qaçılmazdır

**ABŞ də daxil olmaqla bəzi Qərb siyasi mərkəzləri öz ambisiyalarını təmin etmək üçün insan hüquqlarından və demokratik dəyərlərdən sui-istifadə edirlər. Azərbaycana qarşı məkrli planlarını reallaşdırmaq üçün son dövrlər bu istiqamətdə fəaliyyətlərini daha da artırıblar. Lakin unudurlar ki, onların ölkəmizə qarşı yönəlmiş şər-böhtan kampaniyaları, milli həmrəyliyimizə kölgə salmaq və siyasi sabitliyi pozmaq cəhdləri əbəsdir.**



Milli Məclisin deputatı Ceyhun Məmmədov qəzetimizə açıqlamasında deyib ki, bu gün Qərbin, habelə ABŞ-nin məsələlərə ikili standartlarla yanaşması və qərəzli münasibəti özünü bir çox istiqamətdə açıq şəkildə göstərir: "Bu, Qərb ölkələrinə olan inamı və etimadı daha da sarsıdır. Qərb özünü demokratik dəyərlərin hamisi kimi aparmağa çalışsa da, reallıqda bu, daha çox imitasiya xarakteri daşıyır. Misal üçün, bu gün Paşinyan Qərb tərəfindən "demokratik lider" kimi təqdim olunur. Reallıq isə ondan ibarətdir ki, Ermənistanda demokratiyadan söhbət belə gedə bilməz. Nəzərə almaq lazımdır ki, Paşinyan özündən əvvəlki hakimiyyət nümayəndələrinin əksəriyyətini həbs etdirsə də, ona bununla bağlı heç nə deyilmir, Ermənistanın bu siyasəti tənqid olunmur".

Deputat qeyd edib ki, Qərb müxtəlif cəmiyyətlərdə demokratik dəyərləri məhv edən təbliğatla məşğuldur. Bunun nəticəsidir ki, bir çox ölkədə islamofob meyillər son dövrlərdə daha çox müşahidə edilir, miqrantlara qarşı amansız münasibət və bu yöndə fəaliyyət göstərən partiyaların sayı, həmçinin zərərli ideologiyalar artır. Bu gün digər dövlətlərə demokratiya dərsi keçən Qərb qərəzli yanaşmaları ilə tez-tez gündəmə gəlir.

"Qərb artıq süquta doğru gedir. Bunun fonunda isə Çin, Türkiyə və Pakistan sürətlə inkişaf edir və yeni oyunçu kimi meydana çıxırlar. Qərb sözdə sülhə çağırış etsə də, bunu əməllərində göstərmir. Əksinə, Ukraynada və Qəzzada vəziyyəti daha da qızışdırmaq üçün addımlar atır. Ona görə də əminliklə demək olar ki, dünyada baş verən müsibətlərin əsas günahkarlarından biri də məhz Qərbdir", - deyə Ceyhun Məmmədov söyləyib.

Deputatın sözlərinə görə, mütəmadi olaraq digər ölkələrin daxili işlərinə müdaxilə etməyə cəhdlər göstərən Qərbin geosiyasi kontekstdə süqutu qaçılmazdır. Qərbi Avropa ölkələrinin, xüsusilə də Fransa və Almaniyanın ölkəmizə qarşı münasibətinə gəlincə isə, bu ölkələrin qərəzi hər kəsə məlumdur. Açıq-aydın ortadadır ki, Qərb Azərbaycanın Vətən müharibəsində, əsasən də sentyabrın 19-20-də həyata keçirdiyi antiterror tədbirlərində əldə etdiyi zəfərləri həzm edə bilmir.

Ceyhun Məmmədov vurğulayıb ki, regionda söz sahibinə çevrilmiş Azərbaycana qarşı qeyri-obyektiv münasibət sərgiləməklə Cənubi Qafqazda mövqe əldə edəcəyini düşünən dövlətlər yanılırlar. Onlar unudurlar ki, Azərbaycan bir sıra Qərb ölkələri kimi, kiminsə marioneti deyil, başqa "güc"lərə xidmət göstərmir, müstəqil daxili və xarici siyasət yürüdür.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Azərbaycana qarşı yeni "xaç yürüşü"

## Bu məkrli kampaniya da iflasa məhkumdur

**Özlərini dünyanın ağası sayan, "demokratiya" adı altında həyasızcasına başqa xalqların, ölkələrin işlərinə qarışan, öz çıxarları naminə hər cür çirkin oyunbazlıqlara əl atan bəzi Qərb ölkələri indi də təşkilatlanaraq Azərbaycana qarşı XXI əsrin "xaç yürüşü"nə çıxıblar.**

2023-cü il sentyabrın 20-də Azərbaycanın Qarabağda suverenliyini təmin etməsi ilə heç cür barışa bilməyən ABŞ və Qərbi Avropa ölkələri, xüsusilə Fransa və Almaniya açıq şəkildə Azərbaycana qarşı təzyiq kampaniyası aparır, böhtan xarakterli bəyanatlar səsləndirir, yalançı qətnamələr qəbul edir, sanksiyalarla hədələyir, təcavüzkar Ermənistanı silahlandıraraq revanşa qızışdırır, necə deyərlər, erməni dindaşlarına "dəstək" olmağa çalışırlar.

Dildə sülhə tərəfdar olduqlarını bar-bar bağıran bu ikili standartlı ölkələr faktiki olaraq Cənubi Qafqazı müharibə ocağına çevirməkdən, bölgədə savaşın fitilini alovlandırmaqdan ötrü hər cür təhrikedici yola əl atırlar.

### Qərbin soyuq üzü: qandonduran biganəlik

ABŞ, Qərbi Avropa ölkələri Azərbaycanın suveren ərazilərinin 30 illik işğalı dövründə bir dəfə də olsun Ermənistana qarşı hansısa bəyanatlar səsləndirməyib, qətnamələr qəbul etməyib, sanksiyaların tətbiqindən danışmayıblar. İkili standartlı ölkələr işğalçı Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərini tərk etmələri ilə bağlı BMT TŞ-nin 4 qətnaməsinin yerinə yetirilməməsini gözardı ediblər.

ABŞ və Fransa vasitəçi olaraq onilliklər ərzində Ermənistan ilə Azərbaycan arasındakı münaqişənin həllinə nəinki hansısa töhfə verib, əksinə, onun Ermənistanın xeyrinə sonsuzadək sürməsində maraqlı olduğunu göstəriblər.

Bu gün özlərini bir ovuc erməninin olmayan problemlərinin həllinə həsr edən Qərb ölkələri 1988-ci ildən 1993-cü ilə qədər Ermənistanın işğalçılıq siyasəti nəticəsində bir milyondan çox azərbaycanlının etnik təmizləməyə, soyqırımlarına məruz qalmasına heç bir reaksiya verməyiblər.



Ermənipərəst ölkələr torpaqlarından zorla didərgin salınaraq acınacaqlı vəziyyətdə çadırlarda, vaqonlarda, yataqxanalarda yaşamağa məhkum olan milyondan çox azərbaycanlının taleyinə biganəlik nümayiş etdiriblər.

Faktiki olaraq dini və etnik məsələlərdə diskriminasiya hökm sürən Qərb ölkələrində islamofobiya, miqrantlara qarşı nifrət, rasizm, millətçilik baş alıb gedir. Təkcə bir insanlıq utancı faktını misal göstərək. "İnsan haqlarının keşikçisi" donuna bürünən bu qərəzli ölkələr Aralıq dənizində boğulan miqrantlar haqqında danışmaq belə istəmirlər, gənclərin, uşaqların, qadınların, yaşlıların sularda can çəkişməsinə qandonduran biganəliklə tamaşa edirlər...

Bütün bu insanlıqdan uzaq davranışların fonunda riyakar ölkələrin erməniəsilli sakinlərin Qarabağ bölgəsini könüllü tərk etməsini "etnik təmizləmə" adlandırmaları, Azərbaycana qarşı ittihamlar səsləndirmələri isə utanmazlıqdan başqa bir şey deyil.

### Qərbin son çırpınışları

Demokratiya ixracı adı ilə ölkələrə soxularaq onların daxili işlərinə müdaxilə edən, rejimləri dəyişdirən, təbii resurslarını talan edən məkrli Qərb ölkələri də fərqindədirlər ki, daha dünyada at oynatdıqları əyyamlar geridə qalıb. Dünyada Çin, Türkiyə, Braziliya, Pakistan və digər yeni oyunçuların yüksəlişi fonunda Qərb özü də çarəsizcəsinə sürətlə süquta doğru gedişini izləyir.

Hazırda Qərbin nümayiş etdirdiyi aqressiyanı, ölkələr arasında müharibələri qızışdırmaq cəhdlərini də dünyada itirdiyi mövqelərini geri qaytarmaq uğrunda son çırpınışları kimi xarakterizə edə bilərik.

Özü müstəqil siyasət yeridə bilməyən və ABŞ-nin marioneti olan Fransanın Ermənistanı silahlandırması da birbaşa bu məkrli niyyətə xidmət göstərir. Bu günlərdə Fransa tərəfindən Ermənistana çoxlu sayda "Bastion" çoxməqsədli zirehli avtomobillərinin və onlara məxsus avadanlıqların göndərilməsi də buna bariz nümunədir.

İslamofob, türkofob siyasət aparan müstəmləkəçi Fransa tərəfindən Ermənistana hücum xarakterli "Bastion" zirehli avtomobillərinin göndərilməsi Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən də pislənilib. XİN-in mətbuat katibi Ayxan Hacızadə bildirib ki, özünü beynəlxalq hüququn təbliğatçısı, bölgədə sülh və sabitliyin tərəfdarı kimi təqdim edən Fransanın bu addımları regionda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərinin qarşılıqlı şəkildə tanınması və hörmət edilməsi əsasında əlaqələrin normallaşdırılması səylərini ciddi şəkildə sual altına qoyur və vəziyyətin gərginləşdirilməsinə xidmət edir.

### "Dəmir yumruq" yerindədir

Göründüyü kimi, illər keçsə də, nə erməni fitnəsi bitir, nə də dünyanın ədalət nizamı düzəlir.

Lakin Azərbaycan xalqının, dövlətinin inamla yürütdüyü öz haqq və zəfər yolu var. İstər siyasi təzyiqlər, informasiya kampaniyaları, istərsə də güc yolu ilə ölkəmizi milli maraqlarının əksinə hansısa addım atmağa məcbur etmək mümkünsüzdür.

İndi İrəvanı silahlandıran məkrli Qərb ökələri də bu fitnəkar əməlləri ilə yalnız təcavüzkar Ermənistanı məhvə aparırlar.

Sentyabrın 20-də xalqa müraciətində Müzəffər Ali Baş Komandan İlham Əliyev də qətiyyətlə bəyan edib ki, bizə xor baxanlar, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt unutmasınlar ki, "dəmir yumruq" yerindədir və hər zaman yerində olacaq: "Heç kim bizimlə diktat və ultimatum dilində danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!"

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*



# ECO-nun zirvə toplantısı "Yaşıl keçid və qarşılıqlı əlaqələr"in önəmini bir daha təsdiqlədi

**Xəbər verildiyi kimi, noyabrın 9-da Özbəkistanın paytaxtı Daşkənd şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 16-cı Zirvə toplantısı keçirilib.**

Toplantıdakı çıxışında "Yaşıl keçid və qarşılıqlı əlaqələr" ilində Azərbaycanın sədrliyi çərçivəsində reallaşan tədbirlərin və təşəbbüslərin tərəfdaşlığımızın genişlənməsinə böyük töhfə verdiyini vurğulayan Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Bakıda Təmiz Enerji Mərkəzinin və Regional Elektrik Bazarının təşkili istiqamətində əməli tədbirlər həyata keçirildiyini, həmçinin ekologiya sahəsində də yüksəksəviyyəli dialoq platforması yaradıldığını xüsusi vurğulayıb.

Qardaş ölkənin Prezidenti xüsusi qeyd edib ki, Azərbaycanda turizm sektorunda əməkdaşlığın daha da genişləndirilməsi məqsədilə ilk dəfə olaraq turoperatorlar şəbəkəsi formalaşdırılıb və Təhlükəsiz Turizmin İnkişafı Proqramı təsdiq edilib. Qeyd edilənlər Azərbaycanla İqtisadi Əməkdaşlıq Təşkilatı, həmçinin quruma üzv olan dövlətlər arasında əlaqələrin yüksələn xətlə inkişaf etdiyini təsdiqləyir.

Prezident İlham Əliyev isə Zirvə toplantısındakı çıxışında ötən il Özbəkistana bir dəfə dövlət, iki dəfə isə işgüzar səfər etdiyini xatırlatmaqla münasibətlərimizin bugünkü inkişaf səviyyəsinə aydınlıq gətirib və daha bir vacib məqamı diqqətə çatdırıb: "Şavkat Mirziyoyev yenidən Prezident seçildikdən sonra ilk dövlət səfərini Azərbaycana etdi. Bu, iki ölkə arasında əlaqələrin yüksək səviyyədə olduğunu nümayiş etdirməklə yanaşı, həm də türk dünyası birliyinin təqdimatı oldu". Daha sonra müasir dövrün əsas çağırışı olan bərpaolunan enerji mənbələrinə investisiyaların yatırılmasından bəhs edən Prezident İlham Əliyev ölkəmizin bu sahədə böyük potensiala malik olduğunu qeyd edib. Azərbaycanın neft və qaz ehtiyatları ilə zəngin olmasına baxmayaraq, bərpaolunan enerji sektorunun inkişafına xüsusi diqqət yetirildiyini önə çəkib.

Dövlət başçısı toplantı iştirakçılarının diqqətinə çatdırıb ki, faktlarla ölkəmizin bərpaolunan enerji potensialı quruda 37 qiqavat külək və günəş enerjisi, Xəzər dənizinin ölkəmizə məxsus sektorunda isə 157 qiqavat külək enerjisi təşkil edir. Azərbaycan yaxın gələcəkdə "yaşıl və hidrogen enerjisi"nin ixracatçısına çevriləcək. Xarici investorlarla - dünyanın aparıcı "yaşıl enerji" şirkətləri ilə imzalanan sazişlərə və anlaşma memorandumlarına əsasən, qarşıdakı illərdə Azərbaycanda istehsal ediləcək bərpaolunan enerji 10 qiqavata çatdırılacaq. İşğaldan azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda 2021-2023-cü illər ərzində 170 meqavat gücündə hidroelektrik stansiyalar tikilərək istifadəyə verilib. 2024-cü ilin sonuna qədər bu rəqəm 270 meqavata çatdırılacaq. Bir neçə ildən sonra erməni işğalından azad edilmiş ərazilərdə hidroelektrik stansiyaların ümumi gücü 500 meqavat təşkil edəcək.

Yeri gəlmişkən, xatırladaq ki, ötən ayın 10-da mədəniyyət paytaxtımız olan Şuşa şəhəri İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 27-ci iclasına evsahibliyi etmişdi. Təbii ki, belə bir mötəbər tədbirin Şuşada keçirilməsi ölkəmizin dünya miqyasındakı yüksək və artan nüfuzundan xəbər verir. 44 günlük Vətən müharibəsindən sonra Qarabağ və Şərqi Zəngəzura səfər edən Prezident İlham Əliyev hər dəfə erməni vandalizmini göstərir, oradan bütün dünyaya səslənir, ikili standartlardan uzaq ədalətli bir yanaşma tələb edir. Məhz bu baxımdan Şuşada İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Xarici İşlər Nazirləri Şurasının 27-ci iclasının keçirilməsi xüsusi əhəmiyyət kəsb edirdi. Azərbaycanın təşəbbüsü ilə iclasın mövzusu "Yaşıl keçid və qarşılıqlı əlaqələr" adlanırdı.

Həmin günlərdə Prezident İlham Əliyev iclas iştirakçılarına müraciət ünvanlamışdı. Müraciətdə deyilirdi ki, 44 günlük Vətən müharibəsinin başa çatmasından 3 il keçsə də, Ermənistan tərəfi Azərbaycanın sülh təşəbbüslərini dəyərləndirmir. Lakin artıq Ermənistanın sülh sazişi imzalamaqdan başqa yolu qalmayıb və hər keçən gün Ermənistanın ziyanına işləyir. Hazırda dünyada ənənəvi enerji mənbələrindən "yaşıl enerji"yə keçid müasir dövrün əsas hədəflərindən biridir. Azərbaycanda da bu sahəyə xüsusi diqqət göstərilir. 2030-cu ilədək elektrik enerjisi qoyuluşu gücündə bərpaolunan enerji mənbələrinin payının 30 faizə çatdırılması, işğaldan azad olunmuş ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi ölkəmizin enerji siyasətində ən əsas vəzifələrdən biridir. Elə bu baxımdan da Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatında sədrlik mövzusunun "Yaşıl keçid və qarşılıqlı bağlantılar" kimi müəyyən edilməsi hazırkı dövrdə xüsusi aktuallıq kəsb edir. Eyni zamanda "yaşıl enerji" zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı yenidənqurma və bərpa işləri "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyasına uyğun olaraq həyata keçirilir.

Müraciətində ölkəmizin yüksək tranzit və nəqliyyat-logistika imkanları haqqında məlumat verən İlham Əliyev bu sahədə həyata keçirilən layihələri və tədbirləri də iclas iştirakçılarının diqqətinə çatdırmışdı. Azərbaycan Prezidentinin İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 27-ci iclasının iştirakçılarına ünvanladığı məktub həm də dünyaya bir mesaj idi. Xüsusi vurğulamağı vacib hesab edirik ki, müraciət Azərbaycan həqiqətlərinin, yaranmış yeni reallığın beynəlxalq ictimaiyyətə çatdırılması və perspektiv əməkdaşlıq imkanlarının təqdim edilməsi baxımından əhəmiyyətli bir sənəd idi.

Əslində, inkişafa, sülhə və ekoloji tarazlığın qorunmasına hesablanmış bu cür beynəlxalq tədbirlərə Azərbaycan hər zaman böyük əhəmiyyət verir. Bu səbəbdən də ölkəmiz indiyə kimi qurumun bir necə toplantısına evsahibliyi edib. İqtisadi Əməkdaşlıq Təşkilatının 9-cu və 12-ci Zirvə toplantıları müvafiq olaraq 2006-cı və 2012-ci illərdə Bakıda reallaşıb. Eyni zamanda Şuşa şəhəri 2026-cı il üçün ECO-nun turizm paytaxtı elan edilib. Dövlət başçısı İlham Əliyev hər tədbirdə vurğulayıb ki, Azərbaycan ECO-nun üzv dövlətləri ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığı daha da genişləndirməkdə qərarlıdır. Məhz bu qərarlılıq Daşkənddə keçirilən 16-cı Zirvə toplantısında Prezidentin keçirdiyi ikitərəfli görüşlərdə də "Yaşıl keçid və qarşılıqlı əlaqələr" baxımından Azərbaycana verilən önəmə və dəyərə işıq saldı.

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*

# Şanlı zəfərin rəmzi

**"2023-cü il noyabrın 8-də Xankəndidə Vətən müharibəsində əldə edilən Zəfərin 3-cü ildönümünə həsr edilmiş hərbi paradı bütün xalqımız, eləcə də dünya azərbaycanlıları böyük sevinc və qürurla izlədi. Hərbi paradda Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Vətən müharibəsində Azərbaycan Ordusunun əsgər və zabitlərinin göstərdiyi qəhrəmanlığı, şücaəti, Azərbaycan xalqının nümayiş etdirdiyi həmrəylik və mərdliyi, Ermənistanla onun havadarlarının ölkəmizə qarşı təxribat xarakterli siyasət həyata keçirdikləri barədə çıxış etdi".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamilə Əliyeva deyib. Deputat bildirib ki, Ermənistanın torpaqlarımızı işğal altında saxladığı dövrlərdə də xalqımız inanırdı ki, Heydər Əliyev siyasi kursunu, irsini davam etdirən müdrik, qətiyyətli, uzaqgörən siyasətçi, eləcə də mahir diplomatik bacarığa, sarsılmaz siyasi iradəyə sahib olan İlham Əliyev Azərbaycanı dünyada güclü bir dövlətə çevirəcək və düşmən tapdağında olan torpaqlarımızı azad edəcək.

"2003-cü il oktyabrın 15-də ilk dəfə Prezident seçilən cənab İlham Əliyev andiçmə mərasimində torpaqlarımızı işğaldan azad edəcəyi barədə xalqa söz verdi. Belə də oldu. Azərbaycan iqtisadiyyatı hər il inkişaf etdi, ordumuzun maddi-texniki bazası yeniləndi, ən müasir silahlarla təmin edildi. Bütün bu işlər bizi böyük Zəfərə yaxınlaşdırırdı", - deyə deputat bildirib.

Kamilə Əliyeva qeyd edib ki, 2020-ci ildə Azərbaycan Ordusu Ermənistanın hərbi təxribatlarının qarşısını almaq üçün əks-hücuma keçdi və 44 gün ərzində düşmən ordusunu darmadağın edərək şəhər və kəndlərimizi işğaldan azad etdi: "Azərbaycanın əsgər və zabitləri misli görünməmiş böyük qəhrəmanlıq göstərdilər, müharibə zamanı bir addım belə geri çəkilmədilər. Azərbaycan Ordusunun qəhrəmanlığı və şücaətindən qorxuya düşən erməni əsgərləri təşviş içində döyüş meydanlarını tərk edirdilər. Ermənilər özləri də etiraf edirdilər ki, 44 günlük müharibə zamanı 12 min erməni əsgər və zabiti fərarilik etmişdir. Amma Azərbaycanın Silahlı Qüvvələrinin bir nəfər hərbçisi belə döyüş meydanını tərk etməmişdir. Nəhayət, 2020-ci il noyabrın 8-də Şuşanın işğaldan azad edilməsi Zəfər Günü kimi tarixə yazıldı. Məhz Şuşa işğaldan azad edildikdən sonra Ermənistan məğlub olduğunu etiraf edərək kapitulyasiya aktına imza atdı".

Deputatın sözlərinə görə, 2023-cü ilin sentyabrında Azərbaycan Ordusunun həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycanın suverenliyi tam bərpa edildi, Qarabağda separatizmin kökü kəsildi. Bu il oktyabrın 15-də Prezidentin Xankəndidə Azərbaycan bayrağını ucaltması tariximizə yazılan şanlı bir gün oldu.

Kamilə Əliyeva vurğulayıb ki, Prezident 20 il əvvəl xalqımıza verdiyi vədi yerinə yetirdiyini Xankəndidəki hərbi yürüşlə bir daha sübuta yetirdi: "Bu gün dünya ictimaiyyəti, o cümlədən ermənilər və onların havadarları yaxşı başa düşürlər ki, Prezident İlham Əliyev nəyi deyibsə, ona da əməl edib. Dövlət başçımızın sözü imzası qədər dəyərlidir. Hərbi paradda Prezident İlham Əliyevin söylədiyi fikirlər həm də Ermənistana və havadarlarına mesaj xarakteri daşıyır. Ermənistan hakimiyyəti, revanşist qüvvələr və onların arxasında dayananlar bu ölkənin 2020-ci ildəki aqibətini unutmamalıdırlar".

*Nəzrin QAFARZADƏ, "Azərbaycan"*



# Fransa Ermənistanı məhvə sürükləyir

**Cənubi Qafqazla bağlı məkrli maraqları olan Fransa Azərbaycan-Ermənistan münasibətlərinin gərgin qalması, sülh müqaviləsinin bağlanmaması üçün cidd-cəhdlə çalışır.**



Paris Azərbaycanofob siyasətinin, ölkəmizə qarşı qarayaxma kampaniyalarının nəticə vermədiyini görərək indi də Ermənistanı başqa yolla "dəstəkləyir".

Bunun bariz nümunələrindən biri bu günlərdə Ermənistana zirehli avtomobillərin göndərilməsidir. Bütün bunlar Fransanın Ermənistanı silahlandırmaqla regionda vəziyyəti gərginləşdirməyə çalışdığını bir daha sübut edir.

Milli Məclisin deputatı Arzu Nağıyev mövzu ilə əlaqədar "Azərbaycan" qəzetinə açıqlamasında deyib ki, Ermənistanın silahlandırılması Fransanın ona havadarlıq etməsinin bariz nümunəsi və sübutudur.

Deputat qeyd edib ki, bu, birinci hal deyil. Fransa vaxtilə vizual kəşfiyyatçılardan ibarət jandarm qüvvələrini Ermənistana göndərməklə müstəmləkə siyasətini davam etdirdiyini göstərdi: "Dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, riyakar ölkə Ermənistanı himayə edir. Bunun da öz səbəbləri var. Vaxtilə işğal altında olan ərazilərimizdən iqtisadi, siyasi və digər istiqamətlərdə çox ciddi gəlirlər əldə etmiş Fransanın bu imkanları bu gün əlindən çıxıb. Eyni zamanda gələcək seçkilər üçün erməni lobbisinin səsini toplamaq naminə başda prezident olmaqla, Fransa siyasətçiləri bu addımları atırlar".

A.Nağıyev bildirib ki, digər məsələ Ermənistana silah verməklə onları boyunduruğa salmaqdır. Məlum məsələdir ki, Ermənistanın tənəzzülə uğramış iqtisadiyyatı ilə o ödəmələri həyata keçirməyə o qədər gücü yoxdur. Nəyin bahasına olursa-olsun, həmin jandarm qüvvələrini böyük bir briqadaya çevirərək silahlandırmağa çalışırlar. Bu da regionda sülhün bərqərar olmasına ən ciddi zərbələrdən biridir. Regiona nə qədər çox silah-sursat gəlsə, sülh müqaviləsinin imzalanması o qədər uzanacaq. Yəni Ermənistan bu silahlardan istifadə edəcək.

Deputat deyib ki, Fransa bununla həm də Ermənistana guya kömək etdiyini göstərir. "Məlumdur ki, Rusiyanın regiondan çıxması inandırıcı deyil. Onlar Rusiyanın alternativini yaratmağı düşünürlər. Bundan başqa, Fransanın Türkiyəyə qarşı addımları da göz qabağındadır və o, regionda nüfuz sahibi olmaq istəyir. Bu ölkə dünyanın müxtəlif qaynar nöqtələrində Türkiyəyə məğlubiyyətini həzm edə bilmir. Çünki bu gün NATO-Rusiya sərhədi elə Türkiyə-Ermənistan sərhədi deməkdir. Bu baxımdan bugünkü Türkiyə-Rusiya münasibəti Fransanı qane edə bilməz. Fransa hər yolla məkrli siyasətini həyata keçirmək üçün səylərini davam etdirir. Bunun sonu çox acınacaqlı nəticələnə bilər. Buna baxmayaraq, Azərbaycan öz xarici və daxili siyasətini aparmaqdadır. Biz ölkəmizin suverenliyinə olan təhdidin qarşısını hər bir vasitə ilə almağa hazırıq və daim belə də olacaq", - deyə o əlavə edib.

Azərbaycan Xarici İşlər Nazirliyi səviyyəsində Fransanın son hərəkətinə irad bildirildiyini xatırladan A.Nağıyev qeyd edib ki, bu ölkənin məqsədi regionda "nüfuz" sahibi olmaq və bunu güc hesabına, daha doğrusu, Ermənistanın vasitəçiliyi ilə həyata keçirməkdir. Buna görə də Birləşmiş Millətlər Təşkilatı, beynəlxalq təşkilatlar səviyyəsində bu məsələnin qiyməti verilməlidir.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Sözdə sülh, əməldə hərb

## Fransa Ermənistanı silahlandırmaqla Cənubi Qafqazda müharibəni körükləyir

**İkinci Qarabağ müharibəsində Azərbaycandan ağır məğlubiyyət alan Ermənistan dünyada ermənipərəst mövqeyi ilə seçilən Fransa ilə yaxından hərbi əməkdaşlıq etməyə başlayıb. Bütün bunlar isə məğlubiyyətini həzm edə bilməyən Ermənistanda revanşist qüvvələrin baş qaldırdığından xəbər verir.**





Ermənistanın bu hərbi əməkdaşlıqda əsas məqsədi müharibədə itirdiklərinin yerini doldurmaqdır. Fransanın Emənistana olan münasibəti çoxdan məlumdur. Fransa hələ ATƏT-in Minsk qrupunun həmsədri olduğu dövrlərdə ermənipərəst mövqeyi ilə seçilib - uzun illər beynəlxalq hüquq və ədalət prinsiplərini pozaraq işğalçı Ermənistana hərtərəfli dəstək olub, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinə göz yumub.

İndi isə Fransa Rusiya və Türkiyənin münaqişənin həlli ilə bağlı fəallığına qısqanclıqla yanaşır. Özünün danışıqlardan kənarda qalması, seyrçi olması ilə barışmaq istəmir. Buna görə də hər vasitə ilə müxtəlif səviyyələrdə suyu bulandırmağa çalışır, Ermənistanla daha da yaxından əməkdaşlıq etməyə can atır. Üstəlik də özünü dünyada sülhün carçısı kimi göstərmək istəyir, özü də nəyi ilə - tutduğu ədalətsiz mövqeyi, Ermənistana satdığı silahları ilə. Yəqin ki, Fansa bu addımları ilə dünyada itirməyə başladığı nüfuzunu bərpa etməyə çalışır. Amma, əksinə, Fransa bu hərəkətləri ilə beynəlxalq nüfuzunu getdikcə itirməkdədir.

İki ölkə arasındakı əməkdaşlıq nəticəsində Ermənistan Fransadan silahlar almağa başlayıb. Xəbər portallarında verilən məlumatlara görə, Fransadan göndərilən başqa silahlarla yanaşı, "Acmat" şirkətinin istehsalı olan "Bastion" çoxməqsədli zirehli texnikası artıq Ermənistana çatdırılıb. Ermənistan isə aldığı bu silahlarla Vətən müharibəsində itirdiyi gücünü bərpa etməyə çalışır. Amma düşmən ölkə nə qədər gücünü artırmağa səy göstərsə də, yenə Azərbaycan Ordusu qarşısında həmişə gücsüz, zəif olaraq qalacaq.

Azərbaycan həmişə sülhün tərəfində olduğunu bütün beynəlxalq səviyyələrdə açıq-aydın bəyan edib və etməkdədir. Verdiyi bəyanatlara da həmişə sadiqdir. Amma Ermənistan tərəfi bu günə qədər verdiyi vədlərin heç birini yerinə yetirməyib. Fransa Prezidenti də bütün dairələrdə haqsızcasına Ermənistanı müdafiə edir. Çağırılmamış qonaq kimi özünü sülh danışıqları prosesinə qatmaq istəyir. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü və vasitəçiliyi ilə keçirilmiş sülh müzakirələrində Fransa Prezidenti Emmanuel Makron az qala "tamhüquqlu tərəf" qismində iştirak etməyə çalışsa da, onun cəhdləri hər dəfə rəsmi Bakının qətiyyətli müqaviməti ilə qarşılaşır.

Bu gün müxtəlif dairələrdə Azərbaycanın mənfi imicinin formalaşdırılması istiqamətində fəal iş aparan Fransa öz tarixi keçmişinə nəzər salsa, daha yaxşı olar. Tarixdə qoyduğu qanlı izlərə baxıb özünün kim olduğunu bir az da dərindən tanıyar. Ayrı-ayrı xalqlara qarşı soyqırımı törədən Fransa Əlcəzair, Vyetnam, Mərakeş və Tunisdə milyonlarla insanı məhv edib. Bu da özünü "insan haqlarının və demokratiyanın vətəni" sayan Fransa tarixinin acı reallıqlarıdır. Tarixində belə qanlı izlər qoymuş bir ölkə heç vaxt sülhə xidmət edən addımlar ata bilməz. Necə ki, atmır da…

Bütün dünyaya məlumdur ki, Fransanın son əməlləri regionda sülhə arxadan vurulan zərbədir. Fransa tərəfindən Ermənistana silah verilməsi bu ölkədə revanşizmin güclənməsinə, gərginliyin daha da artmasına gətirib çıxaracaq. Aşkar görünən odur ki, regionda sülhün bərqərar olması rəsmi Parisin ürəyincə deyil. Fransa Cənubi Qafqaz regionuna geosiyasi rəqabət gətirməyə çalışır və məqsədinə çatmaq üçün verdiyi silahları ilə Ermənistanı Azərbaycana qarşı yeni müharibəyə hazırlayır. Bu gün Fransa Ermənistana silah satmaqla danışıqlar prosesinə əngəl törədir.

"Fransanın Ermənistana silah verməsi sülhə deyil, yeni qarşıdurmaya xidmət edən yanaşmadır və əgər regionda hər hansı yeni qarşıdurma baş verərsə, bunun səbəbkarı məhz Fransa olacaq". Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə telefon danışığı zamanı deyib. Eyni zamanda dövlətimizin başçısı Avropa Parlamenti tərəfindən ksenofob və şovinist yanaşma əsasında qəbul edilmiş anti-Azərbaycan xarakterli bəyanatın, orada səsləndirilən fikirlərin qəbuledilməz olduğunu diqqətə çatdırıb, bunun regionda sülhün və sabitliyin təmin olunmasına xidmət etmədiyini deyib.

Ermənistan bir əli ilə Azərbaycanla sülh müqaviləsi imzalamaq istəyir, bir əli ilə də Fransadan silahlar alır. Təbiidir ki, bu silahlar sülh üçün alınmır. Avropa İttifaqı da özünü iki ölkə arasında sülh yaratmağın təşəbbüskarı kimi göstərir. Amma nədənsə Azərbaycan və Ermənistan arasında sülh yaratmağa çalışan Avropa İttifaqı Fransanın belə məsuliyyətli və kövrək zamanda Ermənistana silah satmasına münasibət bildirmir, hələlik susmağa üstünlük verir. İstər Fransanın, istərsə də Avopa İttifaqının bu hərəkətləri açıq-açığına sülh prosesinin əleyhinə atılan addımlardır.

Gün kimi aydındır ki, özünü "sülhpərvər" göstərən Fransanın bu mövqeyi sülhə zərbə vurmaqdan başqa bir əməl deyil. Azərbaycan isə öz istəyinə doğru inamla addımlamaqdadır. Ölkəmizi uğurla getdiyi bu yoldan heç bir qüvvə döndərə bilməz.

*Vahid MƏHƏRRƏMOV*

# “Gəncə dünya səviyyəli şəhərə çevrilir”

## Prezident İlham Əliyevin bu sözləri reallıqdır

**Dünyaya Nizami, Məhsəti, Vazeh kimi dahilər bəxş edən Gəncə bu gün gözlərimiz önündə gündən-günə inkişaf edir. Gəncənin sürətli inkişafını, onun regionun abad və müasir şəhərləri ilə müqayisə edilə biləcək səviyyəsini göz önünə gətirmək üçün son illər bu qədim yurdda həyata keçirilən genişmiqyaslı abadlıq və quruculuq işlərinə nəzər salmaq kifayətdir. Özü də həmin işlər milli memarlıq elementləri əsasında aparılmaqla, şəhərin tarixi imicinə xələl gətirilmədən müasir şəhərsalma prinsipləri ilə həyata keçirilir. Bununla dünəndən bu günə, bu gündən sabaha möhkəm təməllər üzərində körpü salınır.**



Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin imzaladığı sərəncamlar, verdiyi tapşırıqlar şəhərin genişmiqyaslı inkişafında xüsusi önəm daşıyır, gəncəlilərin daha yüksək, ülvi amallar uğrunda yaşayıb yaratmalarına stimul verir. Şəhər icra hakimiyyətinin ictimaiyyətlə sıx əlaqəsi, hər bir işə çevikliklə yanaşması, qətiyyəti və işgüzarlığı əhalinin görülən işlərə inamını daha da artırır ki, bu da idarəçilik təcrübəsinə, səmimiyyət və ünsiyyətə əsaslanan fəaliyyətin nəticəsidir.

Prezidentin Gəncəyə hər səfəri bu qədim şəhərin sosial-iqtisadi həyatında dərin iz buraxır və daha sürətli inkişafına yeni təkan verir. Dövlət başçısının hər səfərindən sonra həyata keçirilən layihələr Gəncənin simasını tanınmaz dərəcədə dəyişir. Bu səfərlər zamanı Prezidentin verdiyi tapşırıq və tövsiyələr şəhər rəhbərliyi tərəfindən böyük məsuliyyətlə icra olunur. Dövlət başçısının Gəncəyə tarixi səfərlərindən birində dediyi bu sözlər əbəs yerə şəhər sakinlərində qürur hissi oyatmayıb ki: "Gəncə çox qədim, gözəl tarixi şəhərdir. Burada parklar, binalar bərpa edilir, gözəl küçələr salınır. Gəncə dünya səviyyəli şəhərə çevrilir".

Həqiqətən şəhərdə yaradılan bir-birindən gözəl muzeylər və mərkəzlər, park və xiyabanlar Gəncəyə xüsusi yaraşıq verməklə tariximizi yaşadır, gənc nəsildə Vətənə sevgi duyğuları aşılayır. Ulu Öndərin adını daşıyan park-kompleksdə inşa edilən Heydər Əliyev Mərkəzi, Zəfər Tağı, Amfiteatr, süni göl, Nizami məqbərəsi ətrafında inşa edilən Nizami Gəncəvi Muzeyi, Qala Qapıları Arxeologiya və Etnoqrafiya Muzeyi, Gəncəçayın sol sahilində tikilən Məhsəti Gəncəvi Mərkəzi, Müasir İncəsənət Muzeyi, Uşaq Gənclər İnkişaf Mərkəzi, eləcə də Əziz Əliyev parkı qiymətli və zəngin eksponatları ilə qədim Gəncənin möhtəşəm tarixi keçmişini, maddi və mənəvi sərvətini əks etdirməklə şəhər sakinlərində qürur hissi yaradır. Yeni salınan parklara sanki çiçək yağışı yağıb. Hər tərəf al-əlvan libasa bürünüb. Əkilən gül-çiçəklər, minlərlə dekorativ ağac şəhəri cənnətə döndərib. Gecə işıqlandırılmasında həyata keçirilən yeniliklər axşamlar şəhərdə ecazkar mənzərə yaradır.

Gəncədəki inkişaf və tərəqqi bütün sahələri əhatə edir. Bu həm də o deməkdir ki, indi Gəncə öz inkişafında keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur, xüsusən də abadlıq və quruculuq işlərində. Şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramovun nəzarəti altında Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi tərəfindən şəhərdə genişmiqyaslı tədbirlər həyata keçirilir. Hazırda "Açıq Kommunal İnfrastruktur Proqramı II" layihəsi icra olunur, şəhərin daxili yollarında asfaltlanma işləri aparılır. Qərb bölgəsində ilk dəfə olaraq Gəncədə yaradılan Ekoloji Park Kompleksində də tikinti işləri davam edir. 11 hektarlıq ərazidə yaradılan park kompleksinin nəzərdə tutulan vaxtda istifadəyə verilməsi üçün bütün qüvvələr səfərbər olunub. Unikallığı ilə seçiləcək kompleksdə insanların rahatlığı və asudə vaxtlarını daha səmərəli keçirmələri üçün bütün lazımi şərait yaradılır. Burada xüsusi yaşıllıq zolaqlarının salınması ilə yanaşı, müxtəlif növ gül-çiçək, dekorativ bitkilər, eləcə də ağac tingləri yetişdirilir. Sahəsi 2100 kvadratmetr olan üçmərtəbəli oranjereya binasında tamamlama işləri görülür. Binanın əsas hissəsi dəmir-beton, metal və şüşə vitraj konstruksiyalarında yığılmışdır. Kompleksdə əyləncə mərkəzləri, idman qurğuları, iaşə obyektləri, habelə müxtəlif növ balıqlar üçün akvariumlar yaradılır, avtonəqliyyat vasitələri, piyadalar və velosiped istifadəçiləri üçün inşa edilmiş yollara və səkilərə asfalt örtüyü döşənir. Gəncəçayın sağ sahilində salınan Ekoloji Park Kompleksinin gələn il istifadəyə verilməsi nəzərdə tutulur.





Yeri gəlmişkən, qeyd edək ki, Prezidentin Gəncənin daxili avtomobil yollarının təmiri ilə bağlı imzaladığı sərəncamla Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən 52 küçədə genişmiqyaslı təmir-tikinti işləri aparılır. Eyni zamanda Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi tərəfindən 53 küçədə əsaslı təmir işləri həyata keçirilir. Təmir-tikinti işləri zamanı küçə və yolların köhnə asfalt örtüyü sökülür, zəruri olan yerlərdə yol yatağının yararsız hissəsi qazılaraq çıxarılır, optimal qırmadaş və qum-çınqıl qarışığı ilə yeni yol yatağı salınır. Sadalanan işlərin ardınca yeni asfalt-beton örtüyü döşənir. Layihə çərçivəsində zəruri olan yerlərdə vətəndaşların yol kənarı ilə rahat və təhlükəsiz hərəkətini təmin etmək üçün mövcud piyada səkiləri bərpa olunur, yeni piyada səkiləri inşa edilir, kənarlarına səki daşları düzülür. Asfaltlanma işləri yekunlaşdıqdan sonra küçələrdə hərəkətin normal təşkili üçün yol-cizgi və yol-göstərici xətlərin, həmçinin piyada zolaqlarının çəkilişi icra olunacaq, küçə və yollara zəruri yol nişanları, məlumatverici lövhələr quraşdırılacaq. Bütün işlər Gəncə Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyinin və AAYDA-nın nəzarəti altında tərtib olunmuş qrafikə uyğun aparılır. İşlərin vaxtında yekunlaşdırılması üçün ərazilərə lazımi sayda canlı qüvvə və texnika cəlb edilmişdir.

Şəhərin içməli su və çirkli su xətlərinin yenilənməsini hədəfləyən "Açıq Kommunal İnfrastuktur Proqramı II" layihəsinin icrası da davam edir. "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sifarişi ilə həyata keçirilən layihə çərçivəsində cari ilin 9 ayı ərzində içməli su xəttinin çəkilişi ilə bağlı nəzərdə tutulan işlər 100, çirkli su xəttinin çəkilişi ilə bağlı nəzərdə tutulan işlər isə 88 faiz həcmində yerinə yetirilmişdir. Bununla yanaşı, şəhər ərazisində küçə və prospektlərin, meydanların, park və xiyabanların, guşələrin, məhəllədaxili ərazilərin sanitar təmizliyinin təmin edilməsi, yaşıllaşdırılması, abadlaşdırılması, gecə işıqlandırılması və digər istiqamətlərdə də işlər aparılır. Qeyd edilən işlərin yerinə yetirilməsində Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyinin xüsusi təyinatlı texnikalarından və canlı qüvvəsindən istifadə olunur.

2023-cü ilin ötən dövrü ərzində şəhər ərazisində yaşıllıqların qorunub saxlanılması və biomüxtəlifliyin inkişafı məqsədilə İstiqlal parkı ərazisində, Bakı-Qazax magistral yolu istiqamətində, Fikrət Əmirov parkında, Qələbə parkında, "İmamzadə" Dini Ziyarətgahının ətrafında, "Xan bağı" istirahət parkında, Gəncə Hava Limanı yolunda, Füzuli parkında, "Gəncəçay" Park Bulvar Kompleksində, "Gəncə Avropa Gənclər Paytaxtı" parkında, Qəmbər Hüseynlinin məzarüstü abidəsinin ətrafında, Atatürk prospektində, Heydər Əliyev prospektində, Heydər Əliyev adına Mərkəzi Meydanda və digər ərazilərdə çox sayda müxtəlif növ ağac tingləri, kol və çiçək əkilmiş, çəmənliklər salınmışdır. Bu ərazilərdə həmçinin 7 subartezian quyusu qazılmışdır.

Şəhərdə qəzalı vəziyyətdə olan dam örtükləri də mütəmadi olaraq yenilənir. Belə ki, fiziki aşınmaya məruz qalmış dam örtükləri yenisi ilə əvəzlənir, suötürücü novdanlar, borular, ümumi istifadədə olan pilləkən və pilləkən meydançaları təmir olunur. Bununla yanaşı, Hacıkənd qəsəbəsində yerləşən "Nizami Gəncəvi: Sələfləri və Xələfləri Parkı"nda 16 ədəd büst bərpa edilmiş, sınmış qranit daşlar yenisi ilə əvəz edilmişdir.

Gəncədə bir yenilik də şəhər icra hakimiyyətinin, Kəpəz Bələdiyyəsinin dəstəyi və Gəncə İctimai İştirakçılıq Məclisinin təşəbbüsü ilə sahibsiz küçə heyvanları üçün sığınacağın istifadəyə verilməsidir. "Yuva" adı ilə fəaliyyətə başlayan sığınacağın tikinti işləri Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi tərəfindən həyata keçirilmişdir. Gəncə-Samux yolunun üstündə, Atabəylər prospektində yerləşən sığınacaqda ilkin olaraq 50 heyvanın yerləşdirilməsi nəzərdə tutulmuşdur. Onların qidalandırılması, baytar tərəfindən müayinə və müalicəsi, həmçinin peyvəndlənməsi təmin olunmuşdur.

Gəncədə həyata keçirilən abadlıq-quruculuq işləri çərçivəsində şəhər ərazisindəki köhnə fəvvarələrin əsaslı təmirinə də başlanılmışdır. Artıq 6 böyük fəvvarə yenidən qurulmuşdur. Gəncənin Heydər Əliyev Meydanı və "Xan bağı"nda olan 4 fəvvarə də sökülmüş, müasir standartlara uyğun şəkildə fərqli görünüşdə yenidən inşa edilmişdir. Şəhərin Cavad xan küçəsində olan 2 fəvvarə isə əsaslı şəkildə təmir olunmuşdur.

Gəncədə "Abad məhəllə" layihəsi də icra olunur. Adından da göründüyü kimi, layihə çərçivəsində şəhərin çoxmənzilli yaşayış binalarının həyətlərində abadlıq işləri görülür. Abadlaşdırılan məhəllələrdə söhbətgahlar, oturacaqlar, böyüklər üçün idman qurğuları quraşdırılır, uşaq meydançaları düzəldilir, məişət tullantılarının atılması üçün yeni konteynerlər qoyulur. "Abad məhəllə" layihəsi Gəncə şəhərinin bütün ərazilərində mərhələli şəkildə həyata keçirilir.

Gəncə İdman Sarayının inşası da sürətlə davam edir. Sarayda 2092 yerlik böyük idman zalı, 1410 yerlik tamaşaçı zalı, 100 nəfərlik restoran və 160 çarpayılıq hotel olacaq. İdman sarayında beynəlxalq standartlara cavab verən böyük idman zalı, üzgüçülük hovuzu, beynəlxalq turnirlərin keçirilməsi üçün məkan, şahmat, güləş, boks və idmanın digər növləri üzrə məktəblər fəaliyyət göstərəcək.

Dünyaşöhrətli bəstəkar Qəmbər Hüseynlinin məzarüstü abidəsinin ətrafında parkın salınması ilə bağlı şəhər sakinlərinin müraciəti də öz müsbət həllini tapmışdır. Ziyalılar şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramova müraciət edərək görkəmli bəstəkarın məzarının ətrafında fidanlar üçün park salınmasını xahiş etmişdilər. Edilən müraciət əsasında şəhər rəhbərliyi tərəfindən müvafiq tədbirlər görülmüş və parkın salınması işlərinə başlanılmışdır. Park tamamilə yenidən qurularaq Qəmbər Hüseynlinin doğum günü ərəfəsində istifadəyə verilmişdir. Yeni istifadəyə verilən parkda uşaqların əylənməsi üçün müxtəlif attraksionlar quraşdırılmış, idman qurğuları, söhbətgah və oturacaqlar yerləşdirilmişdir.

Göründüyü kimi, Gəncənin abadlığı istiqamətində başlanan işlər bir gün də səngimir. Demək olar ki, şəhərdə hər gün müxtəlif yeniliklərin şahidi olmaq mümkündür. Dövlət başçısının diqqət və qayğısı ilə həyata keçirilən bu işlər, həqiqətən, qədim Nizami yurdunu dünya səviyyəli şəhərə çevirir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*







# Günəşdən doğulan, oddan yoğrulan şəhər

## 75 il əvvəl qədim yaşayış məskəni olan Mingəçevirə şəhər statusu verilmişdir




**Ölkəmizin elektirik enerjisinə olan tələbatının təxminən yarıdan çoxunu ödəyən Mingəçevir şəhərinin 75 yaşı tamam oldu. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1948-ci il 11 noyabr tarixli qərarına əsasən, Mingəçevir qəsəbəsinə şəhər statusu verildi. Yeni status bu qədim yaşayış məskənində abadlıq, tikinti-quruculuq işlərinə zərbəçi ahəng verməklə geniş imkanlar açdı. Yenidən qurulan Mingəçevir öz əvvəlki görkəmini sürətlə dəyişdi, yeni sənaye müəssisələri, fabrik və zavodlar, böyük istehsal və emal sahələri yaradıldı.**



Su-elektirik stansiyası, "Azərkabel", yol maşınları, şüşə lifi, maşınqayırma, izolit zavodları, toxuculuq kombinatı və s. Mingəçevirin ilk sənaye müəssisələri hesab olunur. Şəhərin tikilib qurulmasında ayrı-ayrı rəhbərlərin, müxtəlif peşə sahiblərinin böyük əməyi olmuşdur. Qədirbilən mingəçevirlilər şəhərin ilk qurucularından olan Qafar Xəlilovu, Nicat Muradovu, İslam Həsənzadəni, Məmməd Əliyevi, Rüstəm Aslanovu, Vidadi Damanskini, Andrey Zaqryaçskini və başqalarını hər zaman xoş duyğularla yada salırlar. Minnətdarlıqla xatırlananlar sırasında İslam İslamzadənin, Kamran Hüseynovun, Züleyxa Həsənovanın, Sosialist Əməyi Qəhrəmanı Sarvan Salmanovun, Bəhlul Bayramovun və Yaqub Rüstəmovun işıqlı xatirəsi yaddaşlara əbədi həkk olub.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbər seçiləndə Mingəçevir sənaye şəhəri olaraq yeni formalaşırdı. Müdrik rəhbər, uzaqgörən lider ölkə iqtisadiyyatının inkişafında Mingəçevirin oynaya biləcəyi rolu doğru dəyərləndirərək bu bölgəyə xüsusi qayğıkeşliyini və diqqətini əsirgəmədi. Ulu Öndər 1998-ci ildə Mingəçevirə səfəri zamanı şəhər sakinləri ilə unudulmaz görüşündə o illəri belə xatırlayırdı: "Mingəçevirin tikilməsində, qurulmasında, inkişaf etməsində vaxtilə mən çox əziyyət çəkmişəm. İndi mən buraya gəlib, bu hündür binaları, gözəl küçələri, gözəl meydanları, gözəl yaşıllıqları görəndə sevinirəm. Çünki 30 il bundan öncə mən Azərbaycanda rəhbərliyə başlayarkən biz Azərbaycanın hər bir yerində quruculuq işləri aparırdıq. Ancaq Mingəçevir gənc şəhər olduğuna görə, energetiklər şəhəri olduğuna görə buraya xüsusi fikir verirdik!" Beləcə Ulu Öndərin diqqəti, dəstəyi sayəsində Mingəçevir Azərbaycanın energetika, sənaye və abad şəhərinə çevrildi.

Prezident İlham Əliyev öz səmərəli fəaliyyətinin bütün istiqamətlərində olduğu kimi, ölkəmizin enerji nəhəngi Mingəçevirə münasibətdə də öz varislik missiyasını şərəflə davam etdirir. Bu da təsadüfi deyil. İlham Əliyev 20 ili yenicə tamam olan prezidentlik dönəmində Azərbaycanı regionda lider dövlətə, dünyada söz sahibinə çevirmişdir. Bu möhtəşəm 20 ildə biz 2 əsr boyunca arzuladığımız böyük Zəfərə qovuşduq. 44 günlük müqəddəs savaşda Ermənistan silahlı qüvvələrini darmadağın edib, diz çökdürdük. İndi uşaqdan-böyüyə bütün xalqımız Xankəndidə keçirilən möhtəşəm hərbi paradın yaratdığı sonsuz qüruru, xoş ovqatı yaşayır. Təbii ki, bu barədə danışmağa, böyük Zəfərin qürurverici məqamlarından söz açmağa istək də çoxdur, faktlar da yetərincədir. Amma günümüzün mövzusu 75 yaşlı Mingəçevirdir. Yeri gəlmişkən, böyük Zəfərə mingəçevirlilərin sanballı töhfəsini də minnətdarlıqla qeyd etmək lazımdır. Torpaqlarımızın erməni işğalından azad edilməsi uğrunda müqəddəs savaşda göstərdikləri fədakarlığa, xüsusi xidmətlərə görə 4 mingəçevirli ən ali mükafata - Azərbaycanın Milli Qəhrəmanı, 2 nəfər Vətən müharibəsi Qəhrəmanı adlarına layiq görülmüş, 9 nəfər "Azərbaycan Bayrağı", 2 nəfər "3-cü dərəcəli Rəşadət", 19 nəfər "3-cü dərəcəli Vətənə xidmət" ordenləri ilə təltif olunmuşdur. Vətənimizin ərazi bütövlüyü uğrunda döyüşlərdə 387 mingəçevirli gənc şəhidlik zirvəsinə ucalmışdır.

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq Mingəçevir Şəhər İcra Hakimiyyəti şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə, veteranlarına davamlı qayğı və diqqət göstərir. Ümumiyyətlə, bu gün nur şəhərindəki mövcud sağlam mənəvi-psixoloji mühit şəhər sakinlərinin məmnunluğunu təmin edən əsas şərtdir. Xüsusilə son illər bu istiqamətdə təqdirəlayiq tədbirlər həyata keçirilir, şəhər rəhbərliyi xalqın xidmətçisi olduğunu əməli işləri ilə təsdiqləməyə çalışır. ŞİH-nin başçısı İlham İsmayılov hüquq-mühafizə orqanlarının, şəhərdəki xidmət təşkilatlarının rəhbərliyi ilə birlikdə vaxtaşırı müxtəlif məhəllələrdə qəbul-görüşlər keçirir, vətəndaşların təklif və müraciətlərini yerində öyrənir, insanları rahatsız edən çətinlik və problemləri aradan qaldırmaq üçün operativ tədbirlər görür. Bütün bunlar isə öz növbəsində vətəndaş-məmur münasibətlərində səmimiyyəti, məmnunluğu formalaşdırır.

75 yaşlı şəhər son illər sözün həqiqi mənasında özünün yeni inkişaf dövrünü yaşayır. Bu payız günlərində şəhər yaşıl libası, al-əlvan gül-çiçəkləri ilə baharı xatırladır. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarında Mingəçevirin yüksəlişini təmin edən tədbirlərin uğurla həyata keçirilməsi şəhərin gerçək bir sənaye nəhənginə çevrilməsini təmin etmiş, burada müasir texnologiyaya əsaslanan sənaye parkının, çoxsaylı fabrik və zavodların yaranmasını reallaşdırmışdır. Cənab İlham Əliyev prezidentliyi dönəmində dəfələrlə nur şəhərinə səfər etmişdir. Hər səfər Mingəçevirin yüksəlişinə hesablanmış yeni fabrik və zavodların, məktəblərin, xəstəxanaların, yaşayış məhəllələrinin açılışları ilə yaddaşlara həkk olunmuşdur. Dövlət başçısının Mingəçevirə səfərləri zamanı açılışında iştirak etdiyi müəssisələrin qısa siyahısı belədir: "Kür elektron avadanlıqları zavodu", "İnterenerci beton dayaqları", "İzolit" ASC-lər, "Kür Olimpiya Tədris İdman Mərkəzi", Şahmat məktəbi, YAP şəhər təşkilatının inzibati binası, Heydər Əliyev Mərkəzi, Gənclər evi, Dövlət bayrağı meydanı, "Günəşli" bağ massivinə çəkilən qaz xətti, Xaldan-Mingəçevir yolu, Mingəçevir Sənaye Parkı, "ASAN həyat" kompleksi, nəhəng sutəmizləyici qurğu, Mingəçevir Avtomatik İdarəetmə və Nəzarət Mərkəzi, Dövlət Rəmzləri Muzeyi və s. Bundan əlavə, son 20 il ərzində Prezident şəhərin sosial-iqtisadi inkişafına yönəlik 9 sərəncam imzalamış, 36 milyon manat vəsait ayırmışdır.

Mingəçevirin uğur salnaməsinə günü bu gün də yeni və parlaq səhifələr yazılır. Dövlətin güclü əlini hər zaman kürəyində hiss edən mingəçevirlilər əsl vətəndaş mövqeyində çalışır, ürəklərinin odu, əllərinin hərarəti ilə daş üstə daş qoyub şəhəri daha da abadlaşdırırlar. İndi şəhərdə salınan parkların sayı 10-a çatır. Bu sırada son 5 ilin töhfələri daha böyükdür. Bu dövrdə 164 yaşayış binası əsaslı və cari təmir olunub, hündürmərtəbəli binalarda 16 yeni lift qoyulub, 15 nümunəvi məhəllə yaradılıb, 240 küçəyə işıqlanma xətti çəkilib, Dövlət Rəmzləri Muzeyi inşa olunub, 100 nəfərlik açıq səhnə istifadəyə verilib, şəhərin girişində Zəfər gününün şərəfinə yeni park salınıb, Nəsimi parkı yenidən qurulub. Hazırda Ulu Öndər Heydər Əliyevin 100 illiyi münasibətilə ağacəkmə aksiyaları davam edir, tikinti, abadlıq-quruculuq işləri səngimir. Şəhid ailələri və Qarabağ əlilləri üçün nəzərdə tutulan 72 mənzilli yaşayış binasında son tamamlama işləri görülür.

Nur şəhərinin dinamik inkişafında, müasir və abad görkəm almasında Heydər Əliyev Fondunun prezidenti, Birinci vitse-prezident Mehriban Əliyevanın da xidmətləri təqdirəlayiqdir. Müəllifi Mehriban Əliyevanın olduğu "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində şəhərdə hər biri 300 yerlik olan 19 və 20 nömrəli, 200 yerlik 5 nömrəli orta məktəblər, 1200 yerlik texniki-humanitar lisey, 13 nömrəli tam orta məktəb tikilib istifadəyə verilmişdir. Bu qayğını, isti və doğma münasibəti mingəçevirlilər hər zaman minnətdarlıqla vurğulayırlar.

Bütün bunların sayəsində Mingəçevirin şöhrəti bu gün Azərbaycandan uzaqlarda da geniş yayılıb. Şəhərin məhəbbət və səmimiyyətlə uzatdığı qardaş əli bir sıra xarici şəhərlərdə hərarətlə sıxılır, ehtiramla qəbul edilir. Qazaxıstanın Uralsk, Belarusun Polosk, İsrailin Afula, Türkiyənin Çölbaşı və Qars kimi şəhərləri belə şəhərlərdəndir. Bu qardaş şəhərlər də bu günlər Mingəçevirin 75 yaşını müxtəlif tədbirlərlə qeyd etmişlər.

Mingəçevirin özündə isə yubiley günündə bu münasibətlə silsilə tədbirlər keçirilmişdir. Tədbir iştirakçıları öncə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi önünə tər qızılgüllər qoymuş, Şəhidlər xiyabanına gedərək vətən fədailərinin əziz xatirəsini ehtiramla yad etmişlər. Sonra qonaqlar və şəhər sakinləri S.Vurğun parkında nur şəhərinə şöhrət gətirən gənc idmançıların çıxışlarına baxmış, Sahil parkında isə gənc və yeniyetmələrin elm və texnika sahəsində əldə etdikləri uğurlara həsr edilmiş sərgini maraqla seyr etmişlər.

Bayram tədbirlərinin rəsmi hissəsi şəhər teatrında gerçəkləşmişdir. Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov və digər natiqlər öz çıxışlarında Ulu Öndər Heydər Əliyevin tarixi xidmətlərini minnətdarlıqla xatırlamış, Mingəçevirin möhtəşəm yüksəlişində Prezident İlham Əliyevin böyük qayğı və diqqətini vurğulamışlar. Sonda tədbir iştirakçılarına musiqi proqramı təqdim olunmuşdur.

❖ ❖ ❖

Ana Kürün ikiyə böldüyü bu ecazkar şəhərin hər iki sahili yaraşıqlı parklarla, zümrüd donlu xiyabanlarla naxışlanıb. Hər addımda fəvvarələrin nəğməsi, güllərin rayihəsi göz oxşayır, ruhumuza sığal çəkir. Şəhərin çıraqban gecələri gündüzündən də gözəldir. Sahil parkı gecələr başqa bir aləm olur. Rəgbərəng işıqları göylərə güzgü tutan Ana Kürün nəğməkar ləpələrində bərq vurub dəcəl uşaqlar kimi oynaşır, həzin musiqinin sədaları dalğa-dalğa ətrafa yayılır. Ahıllar dəstə-dəstə masa ətrafında əyləşib çay içir, uşaqlar əylənir, gənclər isə qayıq gəzintisinə çıxırlar. Qoy bu həyat firavanlığını bizə bəxş edən dövlətimizin gücü, qüdrəti tükənməz, müstəqilliyi əbədi olsun!

75 yaşın mübarək, nur şəhəri!

*Lazım QULİYEV,*
*"Azərbaycan"*



# AÇG "ailə"sinin ilkini

## 26 il əvvəl "Əsrin müqaviləsi" çərçivəsində "Çıraq" platformasından hasilata başlanmışdır



**1997-ci il noyabrın 12-də Ulu Öndər Heydər Əliyev Xəzərin Azərbaycan sektorunda quraşdırılmış "Çıraq" platformasına gəldi. Burada "Azəri-Çıraq-Günəşli" (AÇG) layihəsi tərəfdaşları nümayəndələrinin, xarici ölkələrdən gəlmiş nüfuzlu qonaqların iştirakı ilə təntənəli tədbir keçirildi. Bu, sıradan bir tədbir deyildi. Çünki həmin gün təkcə neft sənayemizin deyil, ümumiyyətlə, ölkəmizin tarixinə önəmli bir səhifə yazılırdı.**

Neft-qaz hasilatı ilə məşğul olan istənilən ölkədə hər bir karbohidrogen yatağından hasilata başlanması iqtisadi cəhətdən böyük əhəmiyyət daşıyır və mühüm hadisə sayılır. Azərbaycan üçün isə "Çıraq"dan ilkin neftin çıxarılması daha böyük məna kəsb edirdi. Bu, həmin vaxt iqtisadi durumu çox zəif olan ölkəmizin dirçəlişinə və böyük gələcəyinə hesablanmış "Əsrin müqaviləsi"nin birinci nefti idi.

"Çıraq"dan neft alınmaqla çətin sınaqlardan keçmiş möhtəşəm bir layihənin - "Əsrin müqaviləsi"nin gerçəkliyə çevrildiyi təsdiq olundu. Bu, müəllifi Ümummilli Lider Heydər Əliyev olan yeni neft strategiyasının ilk böyük qələbəsi idi.

"Çıraq"ın neft verməsi sıradan bir qurğudan hasilata başlanması anlamından böyük məna daşıyırdı. "Çıraq" "Əsrin müqaviləsi"nin birinci platforması idi. Odur ki, ilkin neft təkcə platformadan quyuların qazılıb karbohidrogenlərin çıxarılması deyildi. Bundan əvvəl vacib olan genişmiqyaslı işlər görülmüşdü. Belə ki, həmin işlər köhnə "Çıraq-1" platformasının əsaslı təmirini, əslində, təzədən tikilməsini, Xəzərin sahilində Səngəçal və Qara dənizin sahilində Supsa terminallarının yaradılmasını, hasil olunan nefti quruya çıxarmaq üçün sualtı boru xətlərinin çəkilməsini əhatə etmişdi. Başqa sözlə, "Əsrin müqaviləsi" imzalanandan cəmi üç il sonra həmin saziş çərçivəsində hasilata başlanması dünyada misli görünməmiş nailiyyət, neftin çıxarılması və nəqli üçün belə geniş infrastrukturun yaradılması əsl rekord idi.

Xatırladaq ki, "Çıraq" platforması Xəzərdə, Bakı şəhərindən 120 kilometr şərqdə yerləşir. Onun dayaqları suyun 120 metr dərinliyində qərar tutub. Platformanın qurğularından quyuların qazılmasına 1997-ci ilin avqustunda başlanıb. Həmin ilin noyabrından, yəni ilk neftin əldə olunmasından bəri "Çıraq" təmir və profilaktika üçün ayrılmış qısa fasilələri çıxmaqla, ahəngdar işləyir.

"Çıraq"dan neft 24 düymlük sualtı kəmərlə Səngəçal terminalına nəql edilir. Bu xəttin uzunluğu 154 kilometrdir. Terminalda neft tərkibində gələn sudan təmizlənib çənlərə vurulur, sonra ixrac marşrutu ilə yola salınır. Yataqdan çıxarılan səmt qazı uzunluğu 50 kilometr olan 16 düymlük sualtı kəmərlə Neft Daşlarındakı kompressor stansiyasına ötürülür.

"Çıraq" neft platforması olmaqla yanaşı, həm də böyük uğurlar üçün platforma - özül oldu. Belə ki, ondan sonra Xəzərdə, AÇG müqavilə sahəsində daha yeddi platforma quraşdırıldı. Onlardan dördü "Azəri" yatağında, ikisi "Dərinsulu Günəşli"də, biri "Qərbi Çıraq"da yerləşir. İndi Xəzərdə "Çıraq"ın daha bir "qonşu"su məskən salmaqdadır. AÇG müqavilə sahəsində quraşdırılan, "Azəri Mərkəzi Şərqi" (ACE) adlanan platformadan gələn il hasilata başlanacağı gözlənilir. Bu qurğuların hamısının inşasında və istismarında "Çıraq"ın təcrübəsindən geniş istifadə edilib.

AÇG-də yeni daha böyük və daha müasir platformalar istirmara verilənədək, yəni 2005-ci ilədək "Çıraq" bu yataqlar blokunda yeganə hasilat və ixrac mənbəyi olub. Başqa sözlə, "Çıraq" ilkin olaraq 7 illik istismar üçün planlaşdırılmışdı. Lakin peşəkar işçi heyətinin əla iş icrası, yüksək ixtisas bilikləri, texnoloji bacarıqları və qətiyyəti sayəsində bu qurğu hələ də AÇG layihəsinin yeni platformaları ilə yanaşı, əməyin təhlükəsizliyi üzrə beynəlxalq standartlara uyğun, həmçinin yüksək əməliyyat səmərəliliyi ilə istismardadır. AÇG-nin operatoru olan bp şirkətinin məlumatına görə, bu ilin əvvəlindən "Çıraq"dan gündə orta hesabla 23 min barel neft hasil olunub.

Xatırladaq ki, AÇG layihəsində iştirak payları belədir: bp (30,37 faiz), SOCAR (25 faiz), MOL (9,57 faiz), İNPEKS (9,31 faiz), "Ekvinor" (7,27 faiz), "EksonMobil" (6,79 faiz), TPAO (5,73 faiz), İTOÇU (3,65 faiz), ONGCVideş (2,31 faiz).

"Çıraq"a aid bir önəmli fakt isə odur ki, bu gün platformada çalışan 60 bp işçisinin hamısı dünya səviyyəli yerli mütəxəssislərdir və növbəli işləyən hər iki rəhbəri də Azərbaycan vətəndaşıdır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Hayastanda insan alveri halları 10 dəfə artıb

**Bu il Hayastanda sosial-iqtisadi müstəvidə vəziyyətin daha sürətlə pisləşməsi müşahidə edilməkdədir. Erməni mediası yazır ki, acınacaqlı durum Nikol Paşinyan hökumətinin yarıtmaz siyasətinin, ölkənin inkişafı naminə konkret addımların atılmamasının göstəricisidir. Bildirilir ki, baş nazir xalqı yox, yalnız özünü düşündüyü üçün Hayastan ağır böhranı yaşayır. Postmüharibə dönəmində Hayastanda korrupsiya faktları dəfələrlə artıb.**

Korrupsiya nəticəsində hakimiyyət təmsilçilərinin var-dövləti artdığı halda sadə əhalinin güzəranı daha da pisləşib. Hayastanın borcları sürətlə artır, əhalinin rifahı isə aşağı düşür, ölkənin xarici iqtisadi asılılığı güclənir. Hayastan qarşıdakı dövr ərzində də sosial, siyasi və iqtisadi problemlərdən yaxa qurtara bilməyəcək.

Bunların fonunda Hayastanda insan alveri hallarının sayı 10 dəfə artıb. Cinayət hallarının sayının artmasını rəsmi statistika da təsdiq edir. Hayastanın Daxili İşlər Nazirliyinin məlumatına görə, 2023-cü ilin yanvar-avqust aylarında qeydə alınan insan alveri və ya istismarı halları ötən ilin eyni dövrü ilə müqayisədə 10 dəfə çoxdur.

Eyni zamanda qeyd edilir ki, son illər Hayastanda yetkinlik yaşına çatmayanlar tərəfindən küçələrdə dilənçilik etmələri çoxalıb.

Bütün bunların fonunda İrəvanda sosial-iqtisadi durum getdikcə ağırlaşmaqda, ölkədə yaşanan tənəzzül durmadan genişlənməkdədir. Bu əsnada sadə vətəndaşların vəziyyəti daha da pisləşir ki, bu da ölkədə müşahidə olunan sosial narazılığın artmasına rəvac verir. İndi bu ölkədə insanlar gələcəklərinə nikbin yanaşmır və Hayastanı tərk etməyə çalışırlar. Çünki böyük səfalət içində yaşayır, gündəlik ərzaq almağa pul tapmaqda belə çətinlik çəkirlər. Hazırda Hayastanda əhalinin böyük əksəriyyəti banklara borcludur. Bank faizləri isə kifayət qədər yüksəkdir. Bu ilin 9 ayının nəticələrinə görə, Hayastanda makroiqtisadi, eyni zamanda sosial göstəricilərdə kəskin enişlər var.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Milli Kitabxanada "Talesizlər şəhəri" kitabının təqdimatı keçirilmişdir

**Azərbaycan Milli Kitabxanasında "44 günün Şanlı Zəfəri" adlı ənənəvi kitab sərgisinin açılışı və Rəfiqə Sadıqovanın "Talesizlər şəhəri" kitabının təqdimat mərasimi keçirilib. Tədbir Dövlət himninin səsləndirilməsi və Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olan qəhrəmanlarımızın xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlamışdır.**









Tədbiri giriş sözü ilə açan Milli Kitabxananın direktoru Kərim Tahirov tarixi Zəfərimizin üç illiyi münasibətilə təsis edilən "44 günün Şanlı Zəfəri" adlı kitab sərgisi barədə ətraflı məlumat vermiş, bu ilin əlamətdar hadisələrlə zəngin olduğunu vurğulamışdır: "2023-cü il Prezident İlham Əliyevin sərəncamı ilə "Heydər Əliyev İli" elan edilib. Bu il Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevə həsr olunmuş silsilə tədbirlərlə yadda qalır. Bu günlərdə isə ölkəmizin, xalqımızın həyatında müstəsna yeri olan Şanlı Zəfərimizin üçüncü ildönümü tamam oldu. 8 Noyabr - Zəfər Gününü Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun tariximizin səhifələrinə qızıl hərflərlə yazdığını qeyd edən Kərim Tahirov demişdir ki, Azərbaycan xalqı yaşadıqca bu gün həmişə qürurla xatırlanacaq: "Hamımız arzusundaydıq və bilirdik ki, Ermənistanın işğal etdiyi ərazilərimiz nə vaxtsa azad olacaq. Amma belə tezliklə bu tarixi hadisənin olacağını gözləmirdik. Dünyada cərəyan edən hadisələr, ikili standartlar bizə bu əminliyi vermirdi. Otuz ilə yaxın bax, burada, bu zalda Qarabağla, Şuşa ilə və erməni qəsbkarlarının işğal etdikləri digər ərazilərimizlə bağlı tədbirlər keçirmiş və hər dəfə sonda demişdik: "Allah torpaqlarımızın azad olduğu günləri görməyi bizə nəsib etsin". Arzumuza çatdıq. Xoşbəxtik ki, bu günləri yaşamaq bizə qismət oldu. Xoşbəxtik ki, işğal günlərinin ağrısını, acısını, problemlərini gələcək nəslin də görməsinə imkan vermədik. Bunun üçün Ali Baş Komandana, Azərbaycan xalqının qəhrəman oğullarına, bu zəfərdə payı olan bütün insanlara təşəkkürümüzü, minnətdarlığımızı bildiririk. Böyük Zəfər günü hamımız sevincdən ağladıq. Biz başımızı dik tutduq, bütün danyaya göstərdik ki, nəyə qadirik".

30 ilə yaxın davam edən işğal müddətində təcavüzkar ermənilər Qarabağ və Şərqi Zəngəzurda abad kəndləri, qəsəbələri, şəhərləri xarabalığa çevirdilər. Azərbaycan dövləti indi həmin ərazilərində geniş və sürətli tikinti, quruculuq işləri aparır. Keçmiş məcburi köçkünlər yenidən qurulmuş yurdlarına, evlərinə qayıdırlar. Kərim Tahirov bildirmişdir ki, biz qurub-yaradan xalq olduğumuzu bütün dünyaya göstəririk: "Biz fərəhli günlər yaşayırıq. Gözəl günlərin şahidi oluruq. Gələcək nəsillər bugünkü quruculuq işlərindən fəxrlə danışacaqlar. Amma işğal dövründə gördüyümüz çətinliklər, müsibətlər də yaddan çıxmayacaq. O illər, eləcə də böyük Zəfərimizlə nəticələnən İkinci Qarabağ müharibəsi və indiki quruculuq illərində baş verən hadisələr barədə məqalələr, elmi əsərlər, bədii ədəbiyyat nümunələri yaradaraq yazılı mənbələrdə saxlamalıyıq ki, gələcək nəsillər oxuya bilsinlər, öz atalarının, babalarının qəhrəmanlığı haqqında tam təsəvvürləri olsun. Yazıçı-jurnalist Rəfiqə Sadıqovanın "Talesizlər şəhəri" kitabı da, məncə, bu amala xidmət edir, bu məqsədlə yazılıb. Bu gün biz Azərbaycan xalqının tarixini əks etdirən bir kitabın işığına yığışmışıq. Mən bu kitabı oxuyanda qələmin gücünə, sehrinə valeh oldum. Rəfiqə Sadıqova çadır şəhərciyini, orada çox ağır vəziyyətdə yaşayan insanların çəkdiyi acıları ustalıqla qələmə alıb. "Talesizlər şəhəri"ni oxuyanlara müəllif o ağrıları, acıları dərindən hiss etdirə bilir. Belə kitablar çox yazılmalıdır. Yazılan qalır. Böyük hadisələrə şahidlik edən əsl tarixi sənəd budur".

K.Tahirov daha sonra qeyd etmişdir ki, İkinci Qarabağ müharibəsində Azərbaycan oğulları Şuşa kimi qala şəhəri qəhrəmanlıqla azad ediblər: "Mənə elə gəlir ki, Birinci Qarabağ müharibəsində vəhşicəsinə öldürülən valideynlərinin, digər qohumlarının ruhu onlara güc verib. Eyni zamanda 30 il ərzində yaşadıqları məşəqqətlər onlara elə bir güc-qüvvət verib ki, silahlı düşmənin üstünə əliyalın gediblər. "Talesizlər şəhəri" kitabında bəhs edilən, o hadisələrdə iştirak edən uşaqlar, mənə elə gəlir ki, böyüyüb, gedib Qarabağı azad ediblər. Bu kitabı oxuyandan sonra əmin olursan ki o çətinlikləri, sıxıntını, məhrumiyyəti görənlər düşmənin üstünə əliyalın gedərdi".

Tədbirdə çıxış edən Milli Məclisin deputatı, yazıçı, publisist Aqil Abbas ağrılı bir həqiqəti diqqətə çatdırmışdır: "Ermənilər təkcə torpaqlarımızı işğal etmədilər, evlərimizi dağıtmadılar, hər birimizin ömründən 35 ilini çaldılar. Mənim 70 yaşım var, onun 35 ilini yaşamamışam. Axırda qələbə bizim oldu. Çünki ədalət bizim tərəfimizdə idi". Aqil Abbas onu da diqqətə çatdırdı ki, Rəfiqə Sadıqova Qarabağ mövzusunda çoxsaylı publisistik məqalələr yazıb: "Mən gözləyirdim ki, Rəfiqə xanım "Talesizlər şəhəri" kimi bir əsər də yazacaq. Bakıda da doğulub o faciədən yazmaq olar. Amma bir də var ki, olanları özün görmüsən, özün yaşamısan. Həmin faciələri yaşayanlar yaxınların, doğmaların olub. Rəfiqə Sadıqovanın "Talesizlər şəhəri" kitabında həmin hisslər ifadə edilib. Tarixi hadisələr müəllif tərəfindən böyük məharətlə qələmə alınıb".

Tədbirdə çıxış edən Milli Məclisin deputatı, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov Zəfərimizin üçüncü ildönümündə xalqımızı qürurlandıran hadisələrin baş verdiyinə diqqəti çəkdi. Bildirdi ki, Xankəndidə Azərbaycanın Dövlət Bayrağını qaldıran Müzəffər Ali Baş Komandan İlham Əliyevin ordumuzun növbəti paradını qəbul etməsi tarixi Zəfərimizin daha bir səhifəsidir: "Böyük qələbədir. Böyük fəxarətdir. Bu günü səbirsizliklə gözləmişdik. Bəzən səbrimiz tükənmişdi, ağlaya-ağlaya, sına-sına, bəzən isə, az qala, ümidimizi itirə-itirə gözləmişdik. Amma cənab İlham Əliyev bizim ümidimizi diriltdi. Bu qələbə sevincini, qələbə xoşbəxtliyini bizə yaşatdı".

Tarixə çevrilən o çətin günlər, ermənilərin yurdsuz, evsiz qoyduğu insanların çəkdikləri əzab-əziyyətlər unudulmayıb. Bu gün o hadisələrin şahidi olan insanların çoxu həyatdadır. Gələcək nəsillərimizə isə bu barədə yazılan əsərlər dolğun məlumat verəcək. Bəxtiyar Sadıqov qeyd etdi ki, "Talesizlər şəhəri" əsəri bu mənada olduqca əhəmiyyətlidir: "Əsər işğal nəticəsində evlərini tərk etməyə məcbur olan, çadırlara sığınan soydaşlarımızın çətin məqamlarda da xalqımıza xas olan mənəvi keyfiyyətlərinə sadiq qaldıqlarını əks etdirir. Çadır şəhərciyi qeyri-adi, dəhşətli yer idi. Yardım paylananda insanların növbəsini görmüşük, yağış yağanda yorğan-döşəkləri islanırdı, səhər sərməyə yer tapmırdılar. O çadır şəhərciyinin qəhrəmanları bizim Azərbaycan qadınları olub. Onlar iş tapa bilməyib çadır şəhərciyinə qayıdan həyat yoldaşlarına dayaq olurdu. Heç olmasa çır-çırpı tapıb yandırır, ömür-gün yoldaşına bir stəkan çay verirdi. O müsibətə Azərbaycan qadınları dözdü. Qəhrəman oğullar böyütdülər. Həmin oğullar 44 günlük savaşda düşməndən qisas almağı bacardılar. Min zillətlə böyütdüyü övladı şəhid olan, yenə də qürurla başını dik tutan qadınlarımız var. Ailə cəmiyyətin kiçik modelidir, nə qədər möhkəmdirsə, cəmiyyət də möhkəm olacaq. Bizim xalqımız ən çətin, məşəqqətli günlərində də mənəviyyatı yüksək tutub. Hər zaman böyüyə, kiçiyə hörmətlə yanaşılıb, bir-birinə qayğı, kömək göstərilib. Bunu "Talesizlər şəhəri"ndə, əsərin qəhrəmanı Rasimin timsalında da görürük. Bu cür mənəviyyatdan bəhs edən kitabların yazılması çox vacibdir. Yazıçılarımız, qələm əhlimiz bu mənada borcludur. Boyuk Zəfərdən 3 il keçir, bəs yeni əsərlər hardadır? Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qəhrəman ordumuz Vətən torpağının işğalda qalmaması üçün canından keçən şəhidlərin qisasını aldı. O çadır şəhərciklərində zülm çəkən, aclıq çəkən qadınlarımızın, analarımızın, qocalarımızın, uşaqlarımızın qisasını aldı. Talesizlər şəhəri bu gün artıq bəxtəvərlər şəhərinə çevrilir".

Tədbirin sonunda qonaqlar kitab sərgisi ilə tanış oldular.

***Zöhrə FƏRƏCOVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# "Azərişıq" ASC Laçında yenidənqurma işlərini davam etdirir

**Tarixi torpaqlarımızın işğaldan azad olunmasından sonra yenidənqurma işlərində "Azərişıq" ASC üzərinə düşən vəzifəni böyük həvəs və məsuliyyətlə yerinə yetirir. Cənab Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən aparılan yenidənqurma işləri çərçivəsində digər rayonlarımız kimi, Laçında da böyük ölçüdə işlər görülüb.**



"Azərişıq" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, hazırda Cağazur, Qorçu və Qaragöl istiqamətində elektrik şəbəkələri yenilənir.

Ümumilikdə görülən digər işlərlə yanaşı, Laçın şəhəri daxilində yeraltı xətlərin çəkilişi davam edir. Eyni zamanda Şəlvə, Qaragöl, Zağazur və Minkənd istiqamətinə çəkilən 35 kv-luq hava xətti də tamamlanmaq üzrədir.

Qeyd edək ki, "Azərişıq" ASC elektrik təsərrüfatının yenidən qrurulması ilə bağlı işləri ölkənin bütün regionlarında paralel olaraq davam etdirir.

# Bizim öz şəhər günlərimiz var

**Noyabrın 8-də ilk dəfə Şuşa Şəhəri Günü qeyd edildi. Bu, işğaldan azad edilmiş şəhərlərimizlə bağlı keçirilən ilk belə tədbir deyil. Yeri gəlmişkən, xatırladaq ki, Prezident İlham Əliyev işğaldan azad edilmiş bütün şəhərlərimizin günlərinin qeyd edilməsi barədə sərəncam imzalamışdır və həmin sərəncamın icrası çərçivəsində Qarabağ və Şərqi Zəngəzurun şəhərlərinin işğaldan azad olunduqları tarixlər xüsusi günlər kimi qeyd edilir.**

Bu gün isə işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur yenidən qurulur, minalardan təmizləndikdən sonra bütün ərazilərdə sürətlə genişmiqyaslı tikinti və bərpa işləri aparılır. Bu, Prezidentin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası deməkdir. Hətta artıq insanlar geriyə - yurd yerlərinə dönməyə başlamışlar. Hamı əmindir ki, erməni işğalçılarının viran qoyduğu şəhərlər bir neçə ilə ayağa qaldırılacaq. Biz hər ucalan bina ilə, hər bərpa edilən abidəmizlə düşmən üzərində çaldığımız qələbəni bir daha təsdiq edəcəyik. Qarabağın hər qarış torpağının bizim üçün nə dərəcədə müqəddəs olduğunu və onu necə məhəbbətlə bərpa etdiyimizi, necə cənnətə döndərdiyimizi bütün dünyaya da, düşmənə də göstərəcəyik. Bundan sonra qeyd edəcəyimiz hər şəhər günü bizi bir daha möhtəşəm qələbələrə, eyni zamanda bundan sonra ayıq olmağa səsləyəcək.

Hazırda dünya əhalisinin yarıdan çoxu şəhərlərdə yaşayır və bu minvalla 2050-ci ilə qədər planetin əhalisinin 68 faizinin şəhərlərə köçəcəyi gözlənilir. Hər gün Yer kürəsində şəhər əhalisinin sayı 180 min nəfər artır. Şəhərlər böyüdükcə onların problemləri də çoxalır. Beləliklə, şəhərlərdə həyat tərzi dəyişdikcə, müasirləşdikcə insanların rahatlığını və dincliyini nəzərə alan tədbirlərin siyahısı uzanır. İndi bütün şəhərlərdə həyat tərzinin yaxşılaşdırılması ilə bağlı müəyyən tədbirlər həyata keçirilir, təcrübə mübadiləsi aparılır və yeniliklər tətbiq edilir. Urbanizasiya problemləri artdıqca şəhərsalmaya da fərqli rakursdan yanaşılır, gündəmə yeni problemlər fərqli tərzdə çıxarılır.

Qayıdaq yenə ölkəmizə. Azərbaycanın ən qədim və tarixi şəhərləri 30 il erməni işğalı altında darmadağın edilərək Yer üzündən silinmişdir. Erməni faşistləri bütün Qarabağdan və Şərqi Zəngəzurdan Azərbaycanın tarixi izlərini silmək məqsədilə yolları belə dağıtmış, binaların himlərini belə sökmüşlər. Amma yanılmışlar. Bu gün bütün Qarabağ və Şərqi Zəngəzur heç kimin ağlına gəlməyən bir tərzdə yenidən bərpa edilir, şəhərlərimiz daha möhtəşəm bir görkəm alır. Dünyada hər il noyabrın ilk günü Beynəlxalq Şəhərlər Günü kimi qeyd olunur. Amma bizim öz şəhər günlərimiz var: 26 Avqust - Laçın Şəhəri Günü; 4 Oktyabr - Cəbrayıl Şəhəri Günü; 17 Oktyabr - Füzuli Şəhəri Günü; 20 Oktyabr - Zəngilan Şəhəri Günü; 25 Oktyabr - Qubadlı Şəhəri Günü; 8 Noyabr - Şuşa Şəhəri Günü; 20 Noyabr - Ağdam Şəhəri Günü və 25 Noyabr - Kəlbəcər Şəhəri Günü.

Ümumiyyətlə, son illər bütün şəhərlərimizin inkişafı istiqamətində mühüm addımlar atılmışdır. Vaxt var idi postsovet məkanında Bakını yalnız neft şəhəri kimi tanıyırdılar. Amma indi Bakıya aşiq olan, onu görməyə can atanların sayı-hesabı yoxdur. Keçmişin çalarları ilə müasir memarlıq cizgilərinin ecazkar tərzdə uzlaşdığı paytaxtımız gülərüz insanları ilə milyonların qəlbini fəth edir. Çünki Bakı 10-20 il əvvəlki deyil, hamının qəlbini riqqətə gətirən bir şəhərdir.

Elə rayon mərkəzlərimizin də görkəmi sürətlə dəyişir. Yeni parklar, yeni binalar yerli insanlara rahatlıq, dinclik gətirir, əcnəbiləri isə valeh edir. 20-30 il öncə vaxt var idi bizim rayon mərkəzlərinin darıxdırıcı və yeknəsək bir görkəmi vardı. Yaxşı yadımdadır, ötən əsrin 70-75-ci illərində Qubaya yeni birinci katıb təyin edilmişdi. İşə başladığı gündən harada dağınıq yer vardısa, qarşısını bir hasarla hördürürdü. Bir-iki aydan sonra ona hamı "Çəpərxan" deyirdi.

İndi isə Qubaya gələn ona valeh olur. Şəhərin müasir mərkəzi formalaşıb və bu qədim şəhərdə yeni memarlıq abidələri köhnə tikililərlə harmoniya yaradır. Vaxt vardı rayon mərkəzlərində qadının küçəyə, parka çıxması ayıb sayılardı. Çünki bu yerlərdə adam olmazdı. Amma indi parklarımız öz gözəlliyi ilə uşaqların və qadınların istirahət mərkəzinə çevrilib. Bəli, şəhərlərimiz abadlaşdıqca, inkişaf etdikcə özümüz də dəyişirik - daha fərqli, daha yüksək mədəniyyətin daşıyıcısına çevrilirik.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Sankt-Peterburqda Şuşanın mədəniyyət kodu təqdim edilib




**Sankt-Peterburqda "Mədəniyyət kodu Şuşa" lonqridinin təqdimatı keçirilib. 2023-cü ildə türk dünyasının mədəniyyət paytaxtı seçilən Şuşanın Rusiyanın mədəniyyət paytaxtı Sankt-Peterburqda təqdimatı Şuşanın mədəni-mənəvi məzmun və əhəmiyyətinin Rusiya ictimaiyyətinə çatdırılması baxımından zəruridir.**

AZƏRTAC xəbər verir ki, təqdimat Əlimərdan bəy Topçubaşov adına "Rus-Azərbaycan mədəni-humanitar mərkəzi" tərəfindən təşkil edilib. Tədbirdə Azərbaycanın Sankt-Peterburqdakı baş konsulu Sultan Qasımov, Türkiyənin konsulu Erkan Dəmirqoparan, Müasir Dövlət İnkişafı İnstitutunun direktoru Dmitri Solonnikov, Rusiyanın Xalq artisti Sergey Novojilov iştirak ediblər.

Layihənin müəllifi, Bakı Slavyan Universitetinin professoru, Əməkdar jurnalist Şəlalə Həsənova qeyd edib ki, "codeshusha.com" sadə sayt deyil. Bu, Azərbaycan üçün tam yeni media məhsulu olan lonqriddir. Dalma jurnalistikasına uyğun olaraq fitçer üslubunda yazılmış mətn maraqlı fotolar, videoçarxlar, musiqi kompozisiyaları ilə zənginləşdirilib. Müəllif vurğulayıb ki, Pənahəli xanın xoşbəxt şəhər konsepsiyası, onu ilhamlandıran möhtəşəm dağlarda həkk olunmuş qədim türkün izi, Ağabəyim Ağanın, Gövhər Ağanın, Xurşidbanu Natəvanın timsalında mütərəqqi şərq qadını obrazı, gözəl, əsrarəngiz və sirli Şuşanın ədəbi mühiti, musiqi təmtərağı və bir çox maraqlı fakt Şuşanın mədəniyyət kodunu təşkil edən amillər kimi lonqriddə orijinal formatda əks olunur.

Lonqridin 21 mövzusu 7 bloka bölünüb. Saytın üz qabığındakı xarıbülbülün hər ləçəyi açılaraq oxucunu yeni mövzulara yönləndirir və hər mövzuya məxsus musiqi səsləndirilir.

Bu platformada internetdə ilk dəfə olaraq işğaldan azad olunmuş ərazilərdə yerləşən alban kilsələrinin interaktiv xəritəsi, Şuşa məhəllələri xəritəsi, şuşalı musiqiçilərin 10 qızıl şəcərəsi infoqrafikası təqdim olunur.

Xatırladaq ki, layihə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "İctimaiyyətlə Əlaqələrin İnkişafına Kömək" İctimai Birliyi tərəfindən hazırlanıb və onun ilk təqdimatı ötən il İsveç Krallığında keçirilib.

# Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin layihələri – Hövsan Yaşayış Kompleksinin birinci mərhələsində, Hövsan Yaşayış Kompleksinin ikinci mərhələsində, Gəncə Yaşayış Kompleksində və Sumqayıt layihəsində mənzillərin güzəştlə satışı barədə

# ELAN

Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi, Zığ şossesi-Hava Limanı 12-ci km. "22" ünvanında yerləşən Hövsan Yaşayış Kompleksinin birinci mərhələsi üzrə 18 mənzilin, Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi, Hava Limanı-Zığ şossesi 8-ci km, "10L" ünvanında yerləşən Hövsan Yaşayış Kompleksinin ikinci mərhələsi üzrə 379 mənzilin, Gəncə şəhəri, Azərbaycan Bayrağı küçəsində yerləşən Gəncə Yaşayış Kompleksi üzrə 34 mənzilin, Sumqayıt şəhəri, 41-ci məhəllə, Zəminə Həsənova küçəsində yerləşən Sumqayıt layihəsi üzrə 1 mənzilin, ümumilikdə 432 mənzilin satışı 16 dekabr 2023-cü il tarixində saat 11:00-da başlayacaq və 23 dekabr 2023-cü il tarixi saat 11:00-dək davam edəcəkdir.

"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"na uyğun olaraq **gözləmə qaydasında mənzillərin seçimi** 19 dekabr 2023-cü il tarixində saat 11:00-da başlayacaq və 23 dekabr 2023-cü il tarixi saat 11:00-dək davam edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 1113 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi "Elektron hökumət" portalı üzərində (www.e-gov.az) "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Yalnız "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdir. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq mənzillərin seçimində bərabər hüquqa malikdir.

"Güzəştli mənzil" sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla www.mida.gov.az internet saytının ana səhifəsində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış olmaq mümkündür.

## Satışa çıxarılan mənzillər barədə ümumi məlumat:

Satışa Hövsan Yaşayış Kompleksinin birinci mərhələsi üzrə 18, Hövsan Yaşayış Kompleksinin ikinci mərhələsi üzrə 379, Gəncə Yaşayış Kompleksi üzrə 34, Sumqayıt layihəsi üzrə 1 mənzil olmaqla, ümumilikdə 432 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə təklif olunur.

Bütün binalar Azərbaycan Respublikasının Dövlət Tikinti Normalarına (AzDTN) uyğun layihələndirilib və inşa olunub. Bununla bağlı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin:

Hövsan Yaşayış Kompleksinin birinci mərhələsi üzrə - 28.02.2018-ci il tarixli 24956 və 08.05.2018-ci il tarixli 25318;

Hövsan Yaşayış Kompleksinin ikinci mərhələsi üzrə - 30.09.2020-ci il tarixli 30175, 20.10.2020-ci il tarixli 30325, 02.11.2020-ci il tarixli 30383;

Gəncə Yaşayış Kompleksi üzrə - 13.05.2020-ci il tarixli 29272;

Sumqayıt layihəsi üzrə - 04.06.2019-cu il tarixli 27459 nömrəli müsbət rəyi mövcuddur.

**Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 1 saylı Bakı Ərazi İdarəsi, 2 saylı Sumqayıt Ərazi İdarəsi və 3 saylı Gəncə Ərazi İdarəsi tərəfindən mənzillərə mülkiyyət hüquqlarına dair "hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış"lar verilmişdir.**

### Hövsan Yaşayış Kompleksinin birinci mərhələsi üzrə satışa çıxarılmış mənzillər barədə ümumi məlumat:

| Bina № | Binanın yerləşdiyi tikinti sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 7076,02 | 7 | 18 | 1 | 1 | 38,6 | 48,58 | "HN Construction" MMC (binanın 1-ci və 2-ci seksiyaları) / Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şossesi, ev 185, mənzil 14; | 29.12.2019 |
| | | | | 3 | 1 | 67,2 | 84,9 | | |
| 5 | 7076,02 | 7 | 18 | 1 | 1 | 38,5 | 48,75 | "Merkuri-İnşaat" MMC ("Conco" MMC ilə konsorsium) (binanın 1-ci və 2-ci seksiyaları) / Bakı şəhəri, Xətai rayonu, Babək prospekti, ev 64, mənzil 143; | 28.02.2020 |
| 6 | 7076,02 | 7 | 18 | 1 | 3 | 38,5 - 38,6 | 48,58 - 48,76 | "Chinar İnshaat" MMC ("Caspian Service" MMC konsorsium) (binanın 1-ci seksiyası) / Bakı şəhəri, Nəsimi rayonu, İzzət Həmidov küçəsi, ev 3, mənzil 18; "Mak-Ari" MMC (binanın 3-cü və 4-cü seksiyaları) / Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, ev 26 N; | 29.12.2019 29.03.2020 29.03.2020 |
| | | | | 2 | 3 | 49,9 - 58,4 | 63 - 71,61 | | |
| 7 | 7076,02 | 7 | 18 | 1 | 3 | 38,5 - 38,8 | 48,75 - 48,82 | "NN Group" MMC (binanın 1-ci və 3-cü seksiyaları) / Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, ev 41, mənzil 47; "Hünər-İnşaat" Firması (binanın 4-cü və 5-ci seksiyaları) / Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti, ev 97, mənzil 63; | 18.06.2020 31.03.2021 |
| | | | | 2 | 4 | 49,9 - 58,4 | 61,39 - 71,23 | | |
| | | | | 3 | 2 | 68,9 - 72,8 | 85,68 - 88,15 | | |

### Hövsan Yaşayış Kompleksinin ikinci mərhələsi üzrə satışa çıxarılmış mənzillər barədə ümumi məlumat:

| Bina № | Binanın yerləşdiyi tikinti sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 10 | 704,35 | 9 | 2 | 2 | 2 | 57,68 | 69,01 | "Rabitəinşaat" ASC, Bakı şəhəri, Nərimanov rayonu, Təbriz küçəsi, ev 227C | 24.07.2023 |
| | | | | 3 | 18 | 72,82 - 72,93 | 85,63 | | |
| | | | | 4 | 18 | 98,7 - 99,03 | 119,5 | | |
| 11 | 708,07 | 9 | 2 | 2 | 2 | 57,68 | 69,01 | "Rabitəinşaat" ASC, Bakı şəhəri, Nərimanov rayonu, Təbriz küçəsi, ev 227C | 24.07.2023 |
| | | | | 3 | 18 | 72,82 - 72,93 | 85,63 | | |
| | | | | 4 | 18 | 98,7 - 98,99 | 119,5 | | |
| 12 | 555,09 | 12 | 1 | 3 | 44 | 74,53 - 76,71 | 89,54 - 90,96 | "Rabitəinşaat" ASC, Bakı şəhəri, Nərimanov rayonu, Təbriz küçəsi, ev 227C | 24.07.2023 |
| 13 | 519,08 | 12 | 1 | 3 | 48 | 74,53 - 76,71 | 89,54 - 90,96 | "Hünər İnşaat" Firması, Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti, ev 97, mənzil 63. | 24.07.2023 |
| 14 | 519,08 | 12 | 1 | 3 | 48 | 73,71 - 76,71 | 89,54 - 90,96 | "Hünər İnşaat" Firması, Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti, ev 97, mənzil 63. | 24.07.2023 |
| 15 | 519,08 | 12 | 1 | 3 | 48 | 74,53 - 76,71 | 89,54 - 90,96 | "Hünər İnşaat" Firması, Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti, ev 97, mənzil 63. | 24.07.2023 |
| 38 | 828,73 | 9 | 2 | studio | 1 | 40,1 | 48,33 | "HN Construction" QSC, Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şossesi, ev 185, mənzil 14 | 17.03.2023 |
| 48 | 828,73 | 9 | 2 | 3 | 16 | 72,9 | 85,4 | "Hovers Group" MMC, Bakı şəhəri, Nəsimi rayonu, Abbas Səhhət küçəsi, ev 73 | 12.09.2023 |
| | | | | 4 | 2 | 114,6 | 135,8 | | |
| 49 | 519,08 | 12 | 1 | 3 | 8 | 75,2 - 76,7 | 89,5 - 91 | "Hovers Group" MMC, Bakı şəhəri, Nəsimi rayonu, Abbas Səhhət küçəsi, ev 73 | 12.09.2023 |
| 50 | 708,07 | 9 | 2 | 2 | 12 | 57,7 | 69 | "Hovers Group" MMC, Bakı şəhəri, Nəsimi rayonu, Abbas Səhhət küçəsi, ev 73 | 12.09.2023 |
| | | | | 3 | 18 | 72,9 | 85,6 | | |
| | | | | 4 | 4 | 99 | 119,5 | | |
| 51 | 704,35 | 9 | 2 | 2 | 17 | 57,7 | 69 | "Hovers Group" MMC, Bakı şəhəri, Nəsimi rayonu, Abbas Səhhət küçəsi, ev 73 | 12.09.2023 |
| | | | | 3 | 18 | 72,9 | 85,6 | | |
| | | | | 4 | 18 | 99 | 119,5 | | |
| 56 | 708,07 | 9 | 2 | 4 | 1 | 98,7 | 119,5 | "DDlar İnşaat" QSC (TAW Construction MMC konsorsium), Bakı şəhəri, Nərimanov rayonu, Talat Şıxəliyev küçəsi, ev 20, Qapı 1,2,3. | 03.03.2023 |

### Gəncə Yaşayış Kompleksi üzrə satışa çıxarılmış mənzillər barədə ümumi məlumat:

| Bina № | Binanın yerləşdiyi tikinti sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 797,2 | 9 | 2 | studio | 2 | 34,85 | 42,98 | "Müasir Tikintilər" MMC, Bakı şəhəri, Yasamal rayonu, Landau küçəsi, məhəllə 546, mənzil 118 | 12.06.2023 |
| | | | | 3 | 3 | 74,43 - 74,78 | 87,05 - 87,35 | | |
| 2 | 797,21 | 9 | 2 | 3 | 3 | 72,55 - 72,74 | 87,46 - 87,53 | "Müasir Tikintilər" MMC, Bakı şəhəri, Yasamal rayonu, Landau küçəsi, məhəllə 546, mənzil 118 | 12.06.2023 |
| | | | | 4 | 18 | 96,1 - 96,67 | 111,31 - 111,37 | | |
| 3 | 797,2 | 9 | 2 | studio | 3 | 34,97 | 42,98 | "Amal Group" MMC ("NN Group" MMC ilə konsorsium) / Bakı şəhəri, Yasamal rayonu, Məhəmməd İbn Hinduşah Naxçıvani küçəsi, ev 22, mənzil 90 | 27.05.2023 |
| | | | | 3 | 1 | 74,78 | 87,05 | | |
| 4 | 797,2 | 9 | 2 | 2 | 1 | 56,78 | 68,34 | Amal Group MMC ("NN Group" MMC ilə konsorsium) / Bakı şəhəri, Yasamal rayonu, Məhəmməd İbn Hinduşah Naxçıvani küçəsi, ev 22, mənzil 90 | 27.05.2023 |
| 5 | 804,2 | 9 | 2 | 2 | 1 | 56,4 | 68,34 | Amal Group MMC ("NN Group" MMC ilə konsorsium) / Bakı şəhəri, Yasamal rayonu, Məhəmməd İbn Hinduşah Naxçıvani küçəsi, ev 22, mənzil 90 | 27.05.2023 |
| 6 | 565,92 | 12 | 1 | 3 | 2 | 75,17 - 75,89 | 89,52 - 90,96 | Amal Group MMC ("NN Group" MMC ilə konsorsium) / Bakı şəhəri, Yasamal rayonu, Məhəmməd İbn Hinduşah Naxçıvani küçəsi, ev 22, mənzil 90 | 27.05.2023 |

### Sumqayıt layihəsi üzrə satışa çıxarılmış mənzil barədə ümumi məlumat:

| Bina № | Binanın yerləşdiyi tikinti sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 2 | 779,2 | 9 | 2 | 3 | 1 | 74,5 | 87,06 | "Amal Group" MMC ("NN Group" MMC ilə konsorsium) / Bakı şəhəri, Yasamal rayonu, Məhəmməd İbn Hinduşah Naxçıvani küçəsi, ev 22, mənzil 90 | 26.02.2021 |

## Satış şərtləri və qiymətlər:

Bu elan çərçivəsində mənzillərin satışı həm **ipoteka kreditindən istifadə etməklə**, həm də **öz vəsaiti hesabına** ödəniş üsulu ilə nəzərdə tutulmuşdur.

***Qeyd:*** *"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 5.6-cı bəndinə əsasən mənzilin dəyərinin* ***ipoteka krediti hesabına ödəniş üsulunu yalnız ilkin razılıq qərarını alaraq elektron kabinetində yerləşdirilməsini təmin etmiş şəxs seçə bilər.***

**Hövsan Yaşayış Kompleksinin birinci mərhələsi üzrə:**
1 otaqlı mənzillərin qiyməti – **32 725** manatdan,
2 otaqlı mənzillərin qiyməti – **42 415** manatdan,
3 otaqlı mənzillərin qiyməti – **57 120** manatdan başlayır.

**Hövsan Yaşayış Kompleksinin ikinci mərhələsi üzrə:**
Studio tipli mənzilin qiyməti – **34 085** manat,
2 otaqlı mənzillərin qiyməti – **49 028** manatdan,
3 otaqlı mənzillərin qiyməti – **61 897** manatdan,
4 otaqlı mənzillərin qiyməti – **83 895** manatdan başlayır.

**Gəncə Yaşayış Kompleksi üzrə:**
Studio tipli mənzillərin qiyməti – **29 623** manatdan,
2 otaqlı mənzillərin qiyməti – **47 940** manatdan,
3 otaqlı mənzillərin qiyməti – **61 668** manatdan,
4 otaqlı mənzillərin qiyməti – **81 685** manatdan başlayır.

**Sumqayıt layihəsi üzrə:**
3 otaqlı mənzilin qiyməti – **63 325** manatdır.

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Vətəndaş mənzili Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun güzəştli ipoteka krediti vəsaiti hesabına aldıqda:

**Hövsan Yaşayış Kompleksinin birinci mərhələsi üzrə:**

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | | |
|---|---|---|---|---|---|
| | | | *1 otaqlı* | *2 otaqlı* | *3 otaqlı* |
| 4% | 3-30 il | 10% | 141-142 manat | 183-213 manat | 246-266 manat |

* Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda.

**Hövsan Yaşayış Kompleksinin ikinci mərhələsi üzrə:**

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | | | |
|---|---|---|---|---|---|---|
| | | | *Studio tipli* | *2 otaqlı* | *3 otaqlı* | *4 otaqlı* |
| 4% | 3-30 il | 10% | 147 manat | 211 manat | 266-281 manat | 361-419 manat |

* Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda.

**Gəncə Yaşayış Kompleksi üzrə:**

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | | | |
|---|---|---|---|---|---|---|
| | | | *Studio tipli* | *2 otaqlı* | *3 otaqlı* | *4 otaqlı* |
| 4% | 3-30 il | 10% | 128 manat | 206-208 manat | 265-278 manat | 351-353 manat |

* Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda.

**Sumqayıt layihəsi üzrə:**

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* |
|---|---|---|---|
| | | | *3 otaqlı* |
| 4% | 3-30 il | 10% | 272 manat |

* Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda.

**DİQQƏT! Mənzilə güzəştli ipoteka krediti vasitəsilə sahib olmaq istəyən vətəndaş minimal ilkin ödənişdən artıq ödənilən məbləğə görə, mənzilin satış qiymətini tam həcmdə öz vəsaiti hesabına birdəfəlik ödəyən vətəndaş isə bütün məbləğə əlavə 10% endirim əldə edəcək.**

**Mənzilə öz vəsaiti hesabına birdəfəlik ödəniş edərək sahib olmaq istəyən vətəndaş üçün mənzillərin satışı aşağıdakı qiymətlərdən başlayır:**

**Hövsan Yaşayış Kompleksinin birinci mərhələsi üzrə:**

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manat) |
|---|---|---|---|
| 1 | 32 725 | 3 272 | 29 453 |
| 2 | 42 415 | 4 241 | 38 174 |
| 3 | 57 120 | 5 712 | 51 408 |

*Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.*

**Hövsan Yaşayış Kompleksinin ikinci mərhələsi üzrə:**

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manat) |
|---|---|---|---|
| Studio tipli | 34 085 | 3 408 | 30 677 |
| 2 | 49 028 | 4 903 | 44 125 |
| 3 | 61 897 | 6 190 | 55 707 |
| 4 | 83 895 | 8 389 | 75 506 |

*Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.*

**Gəncə Yaşayış Kompleksi üzrə:**

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manat) |
|---|---|---|---|
| Studio tipli | 29 623 | 2 962 | 26 661 |
| 2 | 47 940 | 4 794 | 43 146 |
| 3 | 61 668 | 6 167 | 55 501 |
| 4 | 81 685 | 8 168 | 73 517 |

*Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.*

**Sumqayıt layihəsi üzrə:**

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manat) |
|---|---|---|---|
| 3 | 63 325 | 6 332 | 56 993 |

*Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.*

Hövsan Yaşayış Kompleksinin birinci mərhələsinin **www.hovsan.mida.gov.az**, Hövsan Yaşayış Kompleksinin ikinci mərhələsinin **www.hovsan2.mida.gov.az**, Gəncə Yaşayış Kompleksinin **www.gence.mida.gov.az**, Sumqayıt layihəsinin **www.sumqayit.mida.gov.az** internet səhifələrinə daxil olaraq satışa çıxarılan hər bir mənzilin (və otaqlarının) dəqiq ölçüsü, qiyməti, tətbiq edilən güzəştlər və əlavə endirimlər, agent banklar haqqında məlumatla tanış olmaq, habelə güzəştli mənzil kalkulyatoru vasitəsilə müvafiq hesablamalar aparmaq mümkündür.

Güzəştlə mənzil əldə etmək hüququ olan şəxslər mənzili güzəştlə əldə etmək üçün ərizənin təqdim olunması qaydası, gözləmə qaydasında mənzillərin seçimi və mənzillərin satış şərtləri, agent banklar barədə ətraflı məlumatla **www.mida.gov.az** internet səhifəsində və ya müvafiq "ASAN xidmət" mərkəzlərinə (1, 3, 5 saylı Bakı, 1 saylı Sumqayıt və 1 saylı Gəncə), habelə "108" çağrı mərkəzinə müraciət edərək tanış ola bilərlər.

# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışına başlanılır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |




**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# "Azərenerji" ASC

**110/35/10 kV-luq "Xankəndi 1" Qapalı tipli YS-nin yenidən qurulması işləri,**
**110/35/10 kV-luq "Xankəndi-2" YS-nin yenidən qurulması işləri,**
**110/35/10 kV-luq "Həsənriz" YS-nin yenidən qurulması işləri,**
**Regional Rəqəmsal Elektrik Enerji idarəetmə mərkəzi, Nəqliyyat təmir sahəsi, Mühəndis yataqxanasının tikintisi işləri,**
**110 kV-luq birdövrəli "Kəlbəcər YS - Həsənriz YS" EVX-nin ikidövrəli yenidən qurulması işlərinin satın alınması üzrə**

## *təkliflər sorğusu prosedurunu elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

İddiaçılar Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10-dan (Əlaqələndirici şəxs: İsazadə Həmid, telefon: 598-26-96, 490-09-27) ala bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 50 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı. Tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə analoji işlərə uyğun elektrik stansiyalarının, yarımstansiyaların və elektrik verilişi xətlərinin tikintisi işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də, yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyərinin minimum olaraq* ***15 000 000 (on beş milyon manat) AZN-dən*** *yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması.*
- *iddiaçı şirkətin elektrik stansiyalarının, yarımstansiyaların, elektrik istehsalı işləri üzrə başqa layihələrin tikintisi, yenidənqurulması, elektrik şəbəkəsində genişlənməsi və elektrik verilişi xətlərinin tikinti-quraşdırılması üzrə ən azı 3 layihədə baş podratçı qismində iştirak təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər.*
- *iddiaçı şirkətin çox təcrübəli, yüksək peşəkar mütəxəssislərinin olmasını təsdiq edən sənədlər (tərcümeyi-halları).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri, tender təklifi və bank təminatını ikiqat zərfdə **27 noyabr 2023-cü il saat 15:00-a** qədər, Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10 ünvanına Ümumi şöbəyə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri **28 noyabr 2023-cü il saat 15:00-da** yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır.

Onlayn iclasın linki əlaqələndirici şəxs tərəfindən iştirak edəcək iddiaçıların elektron poçt ünvanlarına müraciət əsasında göndəriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri onlayn qaydada iclasda iştirak edə bilərlər.

***Tender komissiyası***

# "Azərenerji" ASC

- **110 kV-luq ikidövrəli "Şuşa YS - Xankəndi 1 YS" EVX-nin giriş-çıxış sxemi ilə "Xankəndi 2" YS-na qoşulması işlərinin satın alınması üzrə**

## *təkliflər sorğusu prosedurunu elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

İddiaçılar Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10-dan (Əlaqələndirici şəxs: İsazadə Həmid, telefon: 598-26-96, 490-09-27) ala bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 50 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı. Tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə analoji işlərə uyğun elektrik stansiyalarının, yarımstansiyaların və elektrik verilişi xətlərinin tikintisi işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də, yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyərinin minimum olaraq* ***15 000 000 (on beş milyon manat) AZN-dən*** *yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *iddiaçı şirkətin elektrik stansiyalarının, yarımstansiyaların, elektrik istehsalı işləri üzrə başqa layihələrin tikintisi, yenidənqurulması, elektrik şəbəkəsində genişlənməsi və elektrik verilişi xətlərinin tikinti-quraşdırılması üzrə ən azı 3 layihədə baş podratçı qismində iştirak təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, yüksək peşəkar mütəxəssislərinin olmasını təsdiq edən sənədlər (tərcümeyi-halları).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri, tender təklifi və bank təminatını ikiqat zərfdə **27 noyabr 2023-cü il saat 16:00-a** qədər, Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10 ünvanına Ümumi şöbəyə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri **28 noyabr 2023-cü il saat 16:00-da** yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır.

Onlayn iclasın linki əlaqələndirici şəxs tərəfindən iştirak edəcək iddiaçıların elektron poçt ünvanlarına müraciət əsasında göndəriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri onlayn qaydada iclasda iştirak edə bilərlər.

***Tender komissiyası***

<u>*Təkrar*</u>

# Azərbaycan Respublikasının Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq Əsas vəsaitlərin və nəqliyyat vasitələrinin sığortasından ibarət olan birləşdirilmiş sığorta xidmətləri üzrə

## *açıq tender keçirir*

1. Tender proseduru 13 dekabr 2023-cü il tarixində saat 15:00-da Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi 90) keçiriləcək.

2. İddiaçı qismində Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş qaydada sığorta fəaliyyətinə lisenziyası olan, müvafiq sığorta növlərinin aparılması üzrə rəsmi razılıq almış, müvafiq icbari sığorta növləri üzrə İcbari Sığorta Bürosunun İştirakçısı Sığortaçılarının Reyestrinə daxil edilmiş sığorta şirkəti çıxış edə bilər.

3. Hesabat dövrünün sonuna İddiaçının məcmu kapitalı qanunvericiliyə müvafiq olaraq hesablanmış tələb olunan kapitalın məbləğindən az olmamalıdır.

4. Təkrarsığorta xarici təkrarsığorta şirkəti tərəfindən həyata keçirildikdə xarici təkrarsığorta şirkəti Mərkəzi Bankın müvafiq reyestrinə daxil edilmiş təkrarsığorta şirkəti olmalıdır (təkrarsığorta xarici sığorta brokeri vasitəsilə həyata keçirildikdə də).

5. Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün ərizə;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış) notariat qaydasında təsdiq edilmiş surətləri, bank rekvizitləri;*
- *iddiaçıya Azərbaycan Respublikasında sığorta fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş xüsusi razılığın (lisenziyanın) və əmlakın yanğından və digər risklərdən sığortalanmasına, habelə avtonəqliyyat vasitələrinin könüllü və avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortasına dair verilmiş razılığın surəti;*
- *Tenderin Əsas şərtlər toplusunda müəyyən edilmiş reytinqə malik olan təkrarsığortaçılar tərəfindən riskin qəbul edilməsini təsdiq edən məlumat;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iki nüsxə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (Tender təklifi 13 dekabr 2023-cü il tarixindən azı 30 (otuz) bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) %-i məbləğində təminat (tenderin Əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının əsas vəsait və nəqliyyat vasitələrinin sığorta fəaliyyəti sahəsində ən azı 3 (üç) il təcrübəsinin olması barədə məlumat;*
- *satınalma prosedurunun başlanmasından əvvəlki 5 (beş) il ərzində iddiaçının özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərində həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyətinin dayandırılmaması barədə müvafiq dövlət orqanından arayış.*

6. İddiaçı tender təklifini və tender təklifinin təminatını 12 dekabr 2023-cü il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 04 dekabr 2023-cü il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi 90 ünvanında yerləşən inzibati binasında Satınalmalar komissiyasının əlaqələndirici şəxslərinə təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaq.

7. İddiaçılar tenderdə iştirak etmək üçün Mərkəzi Bankın aşağıdakı hesabına 200 (iki yüz) manat məbləğində iştirak haqqı köçürməlidir:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**kod 501004, VÖEN 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesab AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T. BİK NABZAZ2C**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

8. Sığorta xidmətinin göstərilməsinə 01 yanvar 2024-cü il tarixindən başlanılır. Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə xidmət göstərilməsinə 25 yanvar 2024-cü il tarixindən başlanılır.

9. Xidmətin göstərilməsi müddəti: 1 (bir) il müddətində.

10. Qiymətləndirmə amilləri: qiymət, təklif olunan xidmətlər paketi üzrə sığorta şərtləri və şərtsiz azadolma məbləğləri.

11. Tenderdə iştirak etmək istəyən sığortaçılar iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi 90 ünvanında yerləşən inzibati binasında Satınalmalar komissiyasının əlaqələndirici şəxslərindən Azərbaycan dilində tərtib edilmiş Tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər.

**Tender üzrə əlaqələndirici şəxslər:**

Elvin Şirdanov (Hüquq departamenti). Telefon: 493-11-22 (428).

Şəhriyar İmanov (İnzibati və satınalmalar departamenti). Telefon: 493-11-22 (214).

***Satınalmalar komissiyası***

# "Azərenerji" ASC

- **110 kV-luq ikidövrəli "Şuşa YS - Xankəndi 1 YS" EVX-nin tikintisi işlərinin satın alınması üzrə**

## *təkliflər sorğusu prosedurunu elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

İddiaçılar Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10-dan (Əlaqələndirici şəxs: İsazadə Həmid, telefon: 598-26-96, 490-09-27) ala bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 50 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı. Tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə analoji işlərə uyğun elektrik stansiyalarının, yarımstansiyaların və elektrik verilişi xətlərinin tikintisi işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də, yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq* ***15 000 000 (on beş milyon manat) AZN-dən*** *yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *iddiaçı şirkətin elektrik stansiyalarının, yarımstansiyaların, elektrik istehsalı işləri üzrə başqa layihələrin tikintisi, yenidənqurulması, elektrik şəbəkəsində genişlənməsi və elektrik verilişi xətlərinin tikinti-quraşdırılması üzrə ən azı 3 layihədə baş podratçı qismində iştirak təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, yüksək peşəkar mütəxəssislərinin olmasını təsdiq edən sənədlər (tərcümeyi-halları).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri, tender təklifi və bank təminatı ikiqat zərfdə **27 noyabr 2023-cü il saat 16:15-ə** qədər, Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10 ünvanına Ümumi şöbəyə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri **28 noyabr 2023-cü il saat 16:15-də** yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır.

Onlayn iclasın linki əlaqələndirici şəxs tərəfindən iştirak edəcək iddiaçıların elektron poçt ünvanlarına müraciət əsasında göndəriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri onlayn qaydada iclasda iştirak edə bilərlər.

***Tender komissiyası***

# ALLAH RƏHMƏT ELƏSİN!

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları Tamerlan Tağıyevə atası

**HƏSƏN TAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İqtisadiyyat Nazirliyinin kollektivi iş yoldaşları Nicat Eyvazzadəyə atası

**İMRAN EYVAZZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatları Vahid Əhmədov və Əli Məsimli sabiq baş nazir

**RƏHİM HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru professor Ədalət Muradov və universitetin kollektivi Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor Hamlet İsaxanlıya anası

**PƏRİXANIM ASTANQIZININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5328**
**Sifariş 2958**

**Qiyməti 40 qəpik**